i

# İLHAM ABBAS

# *SƏNƏT DUYĞULARI*

**"Elm və təhsil"**

**Bakı - 2015**

**Redaktor** **Əzizxan TANRIVERDİ,**
*filologiya üzrə elmlər doktoru,*
*professor*

**Məsləhətçi** **Ramiz ƏSKƏR,**
*filologiya üzrə elmlər doktoru,*
*professor, əməkdar jurnalist*

**İlham ABBAS. Sənət duyğuları.** Bakı, Elm və təhsil, 2015, səh.205.

***Kitabda müəllifin görkəmli incəsənət xadimlərinin həyat və yaradıcılığı ilə bağlı müsahibə və məqalələri toplanmışdir. Yazılarda musiqi, teatr, kino, ədəbiyyat, ifaçılıq kimi sənət sahələrinin müasir aktual problemləri haqqında müəllifin və onun həmsöhbətlərinin fikir və mülahizələri yer almışdır.***

# «MUĞAMAT İLAHİ NEMƏTDİR»

**Deyirlər, qadınlar yaşları haqqında danışmağı xoşlamırlar, amma Sara xanım özü söhbətə bundan başladı, sualımızı gözləmədən ötüb keçən illəri xatırladı. Üzünün-gözünün ifadəsindən aydınca sezilirdi ki, görkəmli müğənnimiz, Xalq artisti Sara Qədimova 75 yaşını səmimi bir qürurla qarşılayır və bütün söhbət boyu adına, mövqeyinə yaraşan bir ağbirçək ərki ilə, xanım-xatın ədasıyla danışırdı.**

***– Sara xanım*, 75 *yaşın*, 57 *illik sənət ömrünün ucalığından baxanda yadınıza nələr düşür*, *nələri xatırlayırsınız?***

– Düzü, 75 yaşa heç özümün inanmağım gəlmir. Elə bil hər şey dünən olub... Mən həyatda hər şey görmüşəm – yaxşı da, pis də. Şan-şöhrət də görmüşəm, çətinliklər də. Yadda qalan günlərim çox olub. Amma iki hadisəni xüsusi demək istəyirəm: Bir 1992-ci ildə 70 yaşım qeyd olunanda Heydər Əliyev cənablarının Naxçıvandan mənə zəng vu-

rub, teleqram göndərib təbrik etməyini, bir də Türkiyə prezidenti Süleyman Dəmirəlin xüsusi dəvəti ilə qardaş ölkəyə səfərimi. Belə şeylər unudulmur.

Amma ötən günləri, göz önünə gətirəndə hər şeydən öncə mənim yadıma sənət yoldaşlarım, dostlarım düşür. Özümü yetim kimi hiss eləyirəm. Həm sənətləri gözəl idi, həm də insanlıqları.

Tale mənə Üzeyir bəyi, Səməd Vurğunu, Heydər Hüseynovu, Rəsul Rzanı tanımağı qismət edib, Xan Şuşinski, Şövkət Ələkbərova, Rübabə Muradova, Hacıbaba Hüseynov kimi gözəl insanlarla, misilsiz sənətkarlarla yoldaşlıq eləmişəm. Musiqiçilərin səfər yoldaşlığı, inanın, ailədən də doğma olur adama.

***– Bu insanlarla ünsiyyət, dostluq Sizə bir sənətkar kimi nə verib?***

– Bizim sənət tərbiyəmiz bir az başqa cür olub. İşimizə, ifaçılığa tələbimiz, məsuliyyətimiz çox böyük idi. O zaman filarmoniyada muğamat üzrə dörd qadın müğənni vardı. Hərəmizin öz yolumuz, öz stilimiz. Məsələn, "Kəsmə şikəstə"ni mən də oxumuşam, başqaları da. Amma Fatma xanımın əvəzi yox idi. Bir qəzəli biri oxuyanda, başqası oxumazdı.

Mən peşəkar muğam ifaçılığına "Qatar"la başlamışam. 1940-cı ildə Əbilov klubunda məşğul olurdum, Zülfü bəydən dərs alırdım. İfaçıların ümumbakı baxışına dəvət olundum. Hərə bir hava oxumalı idi. "Qatar" oxudum.

Üzeyir bəy dedi, bir şey də oxu. “Gəlmə-gəlmə” xalq mahnısını oxudum. Bəyəndilər. Odu-budu səhnədəyəm.

Bəstəkar mahnıları da çox oxumuşam, ancaq xalq musiqisi, muğamat olmasaydı, mən müğənni olmazdım.

Sonralar “Şahnaz”, “Mirzə Hüseyn segahı”, “Xaric segah” da oxudum. Ümumiyyətlə, səkkiz muğam oxumuşam.

1957-ci ildə Fikrət Əmirov məni operaya dəvət elədi. On ilə yaxın işlədim. “Leyli və Məcnun”da Əbülfət Əliyevlə, “Əsli və Kərəm”də Qulu Əsgərovla oynamışam. Allah üçünə də rəhmət eləsin. Deməyi lazım bilirəm ki, Kərəm rolunda Qulunun misli yoxdu.

1965-ci ildə xəstələnəndə bir il səhnəyə çıxmadım. Yerimin içində qəzəl əzbərləyirdim.

Xəstəliyimlə bağlı cürbəcür şayiələr gəzirdi. Qalxandan sonra rəhmətlik Şıxəli Qurbanov çağırtdırdı, dedi, mütləq açıq konsertlə çıxış etməlisən. Onda ilk konsertimdə “Mahur-Hindi” oxudum.

***– Sara xanım, Siz "Mahur-Hindi”ni, "Şur"u kişi xanəndələr kimi oxumusunuz...***

– Hə, bunun maraqlı tarixçəsi var. 60-cı illərə qədər lent yazdırmağa o qədər də fikir vermirdik. Günümüz qastrollarda keçirdi. Xəstəlikdən qalxandan sonra rəhmətlik Hacıbaba (bilirsiniz axı, Hacıbaba Hüseynov həm də mənim qohumum – bacımın əri idi) dedi ki, Sara, gəl, sən heç nəyə fikir vermə, “Şur”u, “Mahur-Hindi”ni, “Bayatı-Şiraz”ı hazırla, lentə yazdır. Dedi, bunları tamam dəsgah

oxumağa sənin səsin çatar. Xəstəxanadan çıxandan sonra Hacıyla hər gün rəhmətlik Bəhram Mansurovgilə gedib məşğul olurduq. O vaxtacan bu muğamları qadınlar oxumamışdı. İlk dəfə mən oxudum və təbii ki, kişi xanəndələrin oxumağından bəzi şeyləri götürdüm. O muğamlar belə yarandı.

***– Muğam ifaçılığında, xanəndəlik sənətində iki yol, iki üslub var: ənənəvi oxuma yollarının qoruyub yaşadanlar, nəsildən-nəslə ötürənlər və bir də yenilikçilər – muğamata yeni ştrixlər, yeni xallar, yəni nəfəslər gətirənlər. Sizin ifanızı ikinci qismə aid etmək olar. Çoxəsrlik tarixi olan bir sənətdə yenilik etmək, yəqin ki, asan deyil...***

– Bunların hamısı istedadla bağlı şeylərdir. Hər yolun öz dəyəri, qiyməti var. Biri olmasa, o biri də olmaz. Əsas odur ki, muğamatın ana yolundan çıxmayasan. Bu baxımdan mən indikilərdən Alim Qasımovu gözəl xanəndə hesab eləyirəm. Oxuyanda əl-qol atması bir az qəribə gəlir adama. Özünə də demişəm, deyir, Sara xanım, o hərəkətləri eləməsəm, oxuya bilmərəm. Bəzən bizimkilər onun oxuduğunu qavraya bilmirlər, amma dünyanın hər yerində səsdən, musiqidən baş çıxaranlar Alimə qiymət verirlər.

Bu saat muğamat oxuyan qızlar içində gözəl istedadlar var. Həm səsləri gözəldir, həm yolunu düz oxuyurlar, həm də qəzəlləri yaxşı seçirlər. Xüsusən Səkinə Quliyeva, bir də Reyhan Rəcəbova mənim çox xoşuma gəlirlər.

Muğamatı hamı eyni cür oxusaydı, bu sənət belə möhtəşəm olmazdı. Mən özüm bir muğamı iki dəfə dal-badal, istəsəm də, eyni cür oxuya bilmərəm. Muğam bizim xalqımıza bəxş olunmuş ilahi bir nemətdir.

***– Sara xanım, bizim muğam ifaçılığında iki əsas məktəb var: Qarabağ və Şirvan-Bakı məktəbləri. Sizin oxumağınızda bu ifa üslubları qəribə bir şəkildə qovuşur. Zəngulələriniz, avazınız Qarabağ məktəbinə, guşəxanlığınız, söz incələmələriniz Şirvan məktəbinə uyğun səslənir. Bu nədəndir?***

– Birincisi, bu, qandan-süddən gəlir. Mənim atam qarabağlı, anam isə bakılı qızıdır. İkincisi, öyrənməklə bağlıdır. Mən muğam dərsini iki böyük ustaddan – qarabağlı Zülfü Adıgözəlovla bakılı Hüseynqulu Sarabskidən almışam. Sonralar da uzun illər böyük muğam ifaçıları Xan əmi və Hacıbaba Hüseynovla sənət yoldaşlığı etmişəm, onlardan da öyrənmişəm.  Görünür, hamısının təsiri olub.

***– Sara xanım, Türkiyə səfəriniz haqqında mətbuatda çox yazıldı, televiziyada göstərildi. Siz Atatürkün və M.Ə.Rəsulzadənin məzarları ilə bir sırada görkəmli Türkiyə müğənnisi Zəki Mürenin də qəbrini ziyarət etdiniz. Bu sevgi, bu bağlılıq hardandır?***

– Mən həmişə onun mahnılarının vurğunu olmuşam. Zəki Müren klassik müğənnidir, türk dünyasının böyük sənətkarıdır. Onu heç kimlə müqayisə etmək olmur. Onun mahnılarını çox oxumuşam. Qəbrinin üstündə də oxudum.

Bu ziyarət səfər proqramında nəzərdə tutulmamışdı. Mən israr etdim. Dedilər, çox uzaqdır, 1000 kilometrlik yoldur, yorularsan. Ancaq fikrimdən dönmədim. Bircə ona heyfsilənirəm ki, Zəki Müreni sağlığında görmək mənə qismət olmadı.

***– Könlünüzə musiqi dinləmək düşəndə kimlərə qulaq asırsınız?***

– Zülfü, Xan əmi, Bülbül, Rəşid, Şövkət, Rübabə, Yavər xanım... hərəsinin öz yeri var. Mən onlara, necə deyim, ürəksiz yanaşa bilmirəm. Amma Şövkətin yeri bir ayrıdır. Şövkət xanım mənim ürək dostum, könül sirdaşım idi. Bəzən kişi musiqiçilər zarafatla bizim aramızı vurmaq istəyirdilər. Bir-birimizə göz vurub gülüşürdük...

***– Məmməd Arazın Sizə həsr etdiyi şeirdə belə bir misra var: "Vahid ona söz dəftəri, sinələri alışdıran köz dəftəri bağışladı." O, nə əhvalatdır elə?***

– Hə, gözəl şeirdir. Allah Məmməd Araza can sağlığı versin...

... Belə olub. Vahid mənə çox qəzəllər verirdi. Deyirdi, sözlərimi yaxşı oxuyursan. Bir dəfə də filarmoniyada məni çağırıb dedi ki, Sara, sənin üçün təzə bir qəzəl yazmışam.

... Söndür onu... (Diktafona işarə edir.) Bilirsən, hansı qəzəl idi?...

**Əvvəldə gərək sevgili yarım sən olaydın,**
**Sərvim, çəmənim, bağü-baharım sən olaydın.**

**Bir başqa nigar eşqinə düşməzdim əzəldən,**
**Hərgah, gözəlim, nazlı nigarım sən olaydın.**

**Gülzarı gəzib, nərgizə baxmazdım ölüncə,**
**Ömrüm boyu gər çeşmi-xumarım sən olaydın.**

**Xoşdur mənə, öz Vahidinəm, eşqinə yansam,**
**Peyvəstə gərək dildə şüarım sən olaydın.**

– ***Sara xanım, gününüz-güzəranınız necə keçir?***

– Mən şikayət eləməyi xoşlamıram. Taleyimdən gileyli deyiləm. İki oğlum, dörd nəvəm var. Hamısından razıyam. Ən çox da gəlinlərimdən. Mənim gəlinlərimdən dünyada yoxdur. Azərbaycanda yox ha, dünyada!

İlin səkkiz ayını şəhərdə – gördüyünüz bu balaca mənzildə yaşayıram, dörd ayını bağda. İyunda yığışıb köçürəm bağa, bir də sentyabrın axırında qayıdıram.

Biz qocaman sənətçilərin birinci növbədə mənəvi qayğıya ehtiyacımız var. Mədəniyyət Fondundan çox razıyam. Heç kim inciməsin, mən sözün düzünü deyən adamam. Heç elə bil ölkədə Mədəniyyət Nazirliyi yoxdur. Prezidentimiz özü şəxsən maraqlanmasa, heç kimin yadına düşmürük.

Allaha şükür, həyatda şan-şöhrətə də çatmışam, hər cür mükafat, orden-medal, ad-san da almışam. Cənubi Afrikadan belə bütün dünyanı gəzmişəm. 63-cü ildən Xalq artistiyəm. Məsələ onda deyil. Ən əsası, xalqımın sevgisi-

ni qazanmışam. Vətənimə etdiyim xidmətin ən böyük mükafatı budur.

Bilirsiniz, mənim oxumağım Süleyman Dəmirəlin yadında necə qalmışdı? Abbas Səhhətin şerini oxumuşdum:

**Könlümün sevgili məhbubu mənim**
**Vətənimdir, Vətənimdir, Vətənim!**

*"Xalq qəzeti", 1.06.1997*

## TÜRKİYƏ PREZİDENTİNİN DƏVƏTİ İLƏ

**Görkəmli sənətkarımız, respublikanın Xalq artisti Sara Qədimova Türkiyə Respublikasının prezidenti Süleyman Dəmirəlin şəxsi dəvəti ilə qardaş ölkəyə səfərə hazırlaşır. Bizimlə söhbətində Sara xanım həmin dəvətin tarixçəsini belə açıqladı:**

– Keçən ilin dekabrında sayın Süleyman Dəmirəl cənabları ölkəmizə gəlmişdi. Onun şərəfinə verilən ziyafətdə mənim adımı çəkib. Deyib ki, ilk dəfə 1967-ci ildə Türkiyənin baş naziri kimi Bakıya gələn gündən Sara xanımın səsi könlümdə yaşayır. Hətta mənim ifamda eşitdiyi muğamın sözlərini də xatırlayıb: – "Könlümün sevgili məhbubu mənim Vətənimdir, Vətənimdir, Vətənim."

Bundan sonra mənə bir neçə adam zəng vurub soruşdu ki, S.Dəmirəlin ziyafətdə səni xatırlamağından xəbərin varmı? Dedim, bilmirəm, mən ziyafətdə olmamışam, heç kəs məni dəvət etməyib. Hətta bir gün sonra Respublika Sarayında S.Dəmirəllə keçirilən görüşə də məni dəvət etmədilər. Nə mədəniyyət nazirimiz, nə də başqaları... Məni S.Dəmirəllə görüşdürmədilər. Nə isə, qismət belə imiş...

Üstündən beş-altı ay keçəndən sonra mən ehtiram əlaməti olaraq S.Dəmirəl cənablarına bir minnətdarlıq məktubu yazdım. Heç on-on beş gün keçməmiş Türkiyənin səfiri mənə zəng vurdu ki, sizə S.Dəmirəl cənablarından məktub gəlib. Bu məktub məni çox sevindirdi. Yəqin oxucularınız da onun məzmunu ilə tanış olacaqlar. S.Dəmirəl məni özünün şəxsi qonağı olaraq Türkiyəyə dəvət edirdi.

– ***Sara xanım, indiyəcən Türkiyədə olmusunuzmu?***

– Xeyr, olmamışam, ilk dəfədir. Ancaq həmişə arzulamışam. Dünyanın hər yerini gəzsəm də, könlümdə həmişə Türkiyəni tutmuşam. Bir dəfə nazirimizə dedim, göndərin məni, min cür tədbir, festival olur. Dedi ki, indi zaman başqadır... Nə isə, mümkün olmadı. Ancaq yaxşı ki, qismət varmış.

Nəhayət, bu yaxınlarda viza aldım. İndi mən Türkiyəyə prezidentin qonağı kimi gedirəm. Dekabrın 2-dən 9-na kimi orada olacağam. Mənə dedilər, istəsəniz, bir konsert də verə bilərsiniz. Lent yazılarımı götürdülər. 14 mahnı seçdilər. Dekabrın 5-də TRT kanalı ilə göstərəcəklər. Konsert Üzeyir bəyin “Qaragöz" mahnısı ilə açılacaq. Sonra Azərbaycan bəstəkarlarının mahnıları, xalq mahnıları, arada muğam parçaları da səslənəcək.

Dünən hörmətli Prezidentimiz Heydər Əliyev cənabları mənimlə telefonla danışıb uğurlu yol arzuladı. Onun incəsənət işçilərinə diqqəti, qayğısı hamıya məlumdur.

Mənim dəvət olunmağıma çox şad olduğunu bildirdi, Türkiyə xalqına onun salamlarını yetirməyimi xahiş etdi.

– ***Sara xanım, səfərinizin proqramı neçədir?***

– Mən ora müğənni kimi getmirəm, dediyim kimi, televiziya ilə bir konsert nəzərdə tutulub, qalanı da, qonağam də, necə məsləhət bilsələr, elə... Ancaq bir-iki yer var ki, ürəyimdən keçir, ziyarət eləməliyəm – Atatürkün məqbərəsidir, Məmməd Əminin məzarıdır... Xahiş edəcəyəm, o yerlərə aparsınlar. Sonra incəsənət adamları ilə görüşmək istəyirəm. Çoxları ilə onlar bura gələndə tanış olmuşam.

Mən dünyanı çox gəzmişəm, çox ölkələr görmüşəm. Avropadan tutmuş, İndoneziyaya, Cənubi Afrikaya qədər hər yerdə olmuşam, ancaq Türkiyəni çox arzulasam da, görə bilməmişəm. Hətta İranda da olmuşam, Təbrizi görmüşəm, konsertlər vermişəm, Türkiyəyə isə gedə bilməmişəm. O vaxt bizi ora buraxmırdılar. Şükür, bu arzuma da çatdım.

Mən bu səfərimi türk xalqının, onun cümhur başkanının Azərbaycan sənətçilərinə, mədəniyyətinə ehtiramı kimi qiymətləndirirəm və oraya, sadəcə, Sara xanım kimi yox, Azərbaycan incəsənətinin təmsilçisi kimi gedirəm.

**Söhbətimizin sonunda Sara xanım Türkiyəyə səfərdən qayıdandan sonra "Xalq qəzeti" üçün geniş müsahibə verəcəyini vəd etdi.**

***"Xalq qəzeti", 30.11.1996***

## «TƏBRİZƏ QAYIDANDAN SONRA BÜTÜN SUALLARA CAVAB VERƏ BİLƏCƏYƏM»

**Milli düşüncə tərzinin, milli mənəviyyatın yüksəlişinin nəzərəçarpan əlamətlərindən biri də son illər xalq musiqisinin, xüsusən muğam ifaçılığı sənətinin yeni adlarla zənginləşməsi, bu sahəyə marağın, həvəsin güclənməsidir. Muğamsevərlərin diqqətini cəlb edən belə adlar sırasında orijinal istedadı, yetkin ifaçılığı ilə az bir zamanda şöhrət qazanmış gənc xanəndə Cavid Murtuzaoğlunun da adı var.**

Cavid 1962-ci ildə Təbrizdə doğulub. Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Musiqi Akademiyasının muğam şöbəsinin tələbəsidir. Bəstəkarlığı, şairliyi də var. Öz mahnılarından ibarət bir kaset buraxdırıb. Bu yaxınlarda şeir kitabı çapdan çıxacaq,

Söhbətimiz onun sənətə həvəsinin, bağlılığının kökləri haqqında sualdan başladı.

– Musiqiyə bağlanmağımın əsas səbəbi atamın aşıq sənətinə böyük sevgisi olub. Atam sadə fəhlə olsa da, evimizdə hər axşam aşıqlar qonaq olub, saz səslənib. Uşaq

musiqi festivallarında oxuduğum Azərbaycan mahnılarına görə iki dəfə laureat olmuşam. Böyüdükcə əksər təbrizlilər kimi mən də Bakı radiosuna, xüsusən konsertlərə qulaq asmağa başladım.

Sonralar Aslan və Elxan Həzrəti qardaşları ilə birlikdə "Nəsimi" muğam üçlüyü yaradıb toylarda, şənliklərdə çıxış etməyə başladıq. Tehranda, Cənubi Azərbaycanın müxtəlif şəhərlərində konsertlər vermişik.

– ***Musiqi təhsili almaq üçün Bakıya gəlmək istəyi necə yarandı?***

– Mən bura gəlməzdən öncə özüm musiqi məktəbində dərs deyirdim, iyirmiyə yaxın şagirdim vardı. Dərs deyə-deyə bir həqiqəti anladım ki, orada – Cənubi Azərbaycanda biz muğamatımızı tam şəkildə bilmirik. Əslində, biz muğamatda çox şeyi Azərbaycan radiosu vasitəsilə, buradan gedib çıxan kaset və valların köməyilə öyrənirdik. Məndə beş yüzdən çox kaset vardı. Ustadlardan Seyid Şuşinskinin, Zülfü Adıgözəlovun, Hacıbaba Hüseynovun, Nəriman Əliyevin, müasir xanəndələrin kasetləri.

Mən şagirdlərimə dərs keçə-keçə özümdəki çatışmayan cəhətləri görürdüm. Bəzən elə sual verirdilər ki, cavab tapa bilmirdim. Başa düşürdüm ki, ciddi təhsil almaq lazımdır.

Peşəmlə bağlı bu dediyim maraqlar və bir də ürəyimdə illər uzunu gəzdirdiyim Şimali Azərbaycanı görmək istəyi məni Bakıya gətirdi. 1993-cü ildə qavalımı qoltuğuma vurub Arazı adladım bu taya.

***– Bəs, Cənubi Azərbaycanın özünün muğam ifaçılığı məktəbinin, sənətçilərinin sənə təsiri olmayıbmı?***

– Hamı bilir ki, Cənubi Azərbaycanın ən böyük muğam xanəndəsi Əbülhəsən xan olub. Əbülhəsən xan Azər İqbalın sənətinin bu taydakı muğam ifaçılarına da böyük təsiri olub, o tayda da hamının ustadı odur. Qəribədir ki, İran radiosu onun lent yazılarını heç vaxt səsləndirmir, ancaq məndə Əbülhəsən xanın doqquz kaseti var. Onun adını uşaqlıqdan eşitmişdim. Sonra gedib ailəsini tapdım, nəvələri ilə söhbət elədim, həyatını, yaradıcılığını öyrəndim, lent yazılarını dinlədim və deyə bilərəm ki, mənim birinci ustadım elə Əbülhəsən xan İqbaldır.

***– Təhsillə yanaşı Bakının musiqi mühiti sənə nə verir? Bura gəlməkdə ürəyində tutduğun istəklər doğruldumu?***

– Konservatoriyanın ab-havası, musiqi mühiti, əlbəttə, muğam da daxil olmaqla, özü bir dünyadır. Burada heç musiqiyə həvəsi olmayan da, yəqin ki, tezliklə ifaçılığa meyil göstərər. O ki qalmışdı mənim kimi sənət təşnəsi ola! Mənim ilk və ən böyük tapıntım konservatoriyanın musiqi, muğam mühiti olubdur.

Mən Xalq artisti İslam Rzayevin tələbəsiyəm. Onunla yanaşı Xalq artisti Arif Babayevin də bizə köməyi böyükdür. Bir tələbə kimi onlardan çox şey öyrənirəm. Bir də ki, konservatoriyadan kənarda da bizim nə qədər böyük sənətkarlarımız var. Hərəsindən bir şey görüb-götürsən, dünyaları qazanmaq olar.

Bu mənada, əlbəttə ki, Bakıya gəlməkdə mənim arzularım göyərdi.

***– Cavid, sənin Təbrizdə öyrəşdiyin ifa üslubu, oxumaq tərzi ilə burada sənə öyrədilənlər arasında ciddi fərqlər, yaradıcılıq baxımından problem doğuran ziddiyyətlər varmı?***

– Xeyr, müəyyən üslub fərqləri olsa da, heç bir ziddiyyətlə qarşılaşmamışam. Bütöv ruhumuzun ifadəsi olan muğamatımız da bütövdür. Fərq yalnız ondadır ki, Cənubda muğam ifaçılığında improvizə sərbəstliyinə daha çox yer verilir. Yəni xanəndələr muğamın mayəsini saxlamaqla guşə və şöbələrin seçilməsində tam sərbəst hərəkət edirlər. Burada isə məktəb ənənələri daha səylə qorunur.

***– Sən indi tələbəsən və konkret proqram üzrə nələrisə öyrənməlisən. Yəqin ki, bu baxımdan mütləq müəyyən çərçivələr var. Bəs, ifaçılıq sərbəstliyi ilə tədris-proqram məhdudiyyətlərini necə uyuşdura bilirsən?***

– Əlbəttə, muğam tədrisində, siz deyən kimi, müəyyən bir konkretlik, çərçivə mütləq olmalıdır. Müəllim bilməlidir ki, tələbəsinə nə öyrədir və ilin axırında, imtahanda ondan nə tələb edəcək. Ancaq mən arzu edərdim ki, bununla yanaşı, adi musiqi məktəblərindən fərqli olaraq, konservatoriya tələbələrinə daha çox yaradıcılıq sərbəstliyi veriləydi. Yəni mən imtahanda proqram üzrə öyrədilənlərdən başqa, həm də hər bir muğama öz yaradıcı münasibətimin hesabatını verəydim. Məncə, belə olsaydı, gənc musiqiçilər yaradıcılıq axtarışlarına, sərbəst çalışmalara

daha çox meyil edər, bu böyük sənəti öyrənmək üçün daha çox zəhmətə qatlaşmalı olardılar.

– ***Yaxşı, tələbəlik öz yerində, bəs bir ifaçı, xanəndə kimi dediyin bu vəziyyətdən necə çıxırsan?***

– Bir ifaçı kimi mən İslam müəllimə minnətdaram ki, mənə yaradıcılıq sərbəstliyi verir. Konservatoriya tələbələri içərisində mən ruhən və fikrən özümə doğma olan tarzən dostum Fəxrəddini və kamançaçı Rəfaili tapmışam. Birlikdə “Şah Xətai” muğam üçlüyü yaratmışıq. Hazırladığımız “Nəva" muğamını radionun fondunda lentə yazdırmışıq. İndi “Bayatı Türk”, “Əbu-Əta” və “Əfşar” muğamları üzərində işləyirik. Niyyətimiz indi Şimali Azərbaycanda oxunmayan bir sıra qədim muğamlarımızı bərpa etməkdir.

Mənim hər bir xalqın sənətinə hörmətim var. Eləcə də farsların. Ançaq bizim muğam ifaçılığında adət etdiyimiz yol yəni şöbələr üzrə bəmdən zilə doğru inkişaf, yüksəliş muğamatın məhz Azərbaycan yoludur. Farslarda bu yoxdur.

– ***Yeri gəlmişkən, bir şeyi də soruşum. Bizim bəzi xanəndələrin ifasında fars təsiri duyulur. Və bu təsir – fars nəfəslərinin, fars boğazlarının, farssayağı zəngulələrin işlədilməsi Azərbaycan muğamatında yamaq kimi görünür. Necə olub ki, sən həmin mühitə daha yaxın ola-ola öz ifanı yabancı təsirlərdən qoruyub bu cür təmiz saxlaya bilibsən?***

– Cənubda muğam oxuyanlar iki qismə ayrılırlar: fars musiqisinin təsiri altına düşənlər və Azərbaycan musiqisinin təmizliyini qorumağa çalışanlar. Görünür, bu, qandan və tərbiyədən gələn bir işdir. Açığı, burda da mən muğam ifaçılığında yenilik zərurətindən söz salanda oxumağımı eşitməmiş bəzi adamlar əvvəl-əvvəl elə bu farssayağılıq məsələsindən şübhələnirlər.

***– Bayaq dedin ki, gözünü açandan evinizdə saz səsi eşidibsən. Yəqin sənin oxumağında milli ruhu saxlamağına bunun da təsiri olub.***

– Heç şübhəsiz. Düzünü desəm, mən Bakıya gələndən sonra aşıq musiqisi ilə daha dərindən maraqlanmağa başlamışam. Belə hesab edirəm ki, biz muğam sənətkarları aşıq musiqisinə daha ciddi baxmalıyıq. Orda öyrənməli çox şeylər var. Saz bizim üzümüzə çox qapıları aça bilər. Mən deyərdim ki, mənəviyyat baxımından dünyada ən zəngin musiqi aşıq musiqisidir. Təəssüf ki, konservatoriyada saza primitiv bir şey kimi baxırlar. Ümumiyyətlə, bizim konservatoriyada mənim ürəyimcə olmayan bir cəhət var. Sözüm kimlərinsə xətrinə dəysə də, deyəcəyəm. Xalq musiqisi ilə məşğul olanlara bir az ögey münasibət göstərilir. Bəzilərinin dilində bizim haqqımızda deyilən "narodnik" gəlməsi mənim ürəyimə toxunur. Tədris prosesində də, konsertlərin təşkilində də klassik musiqi ilə məşğul olanlara üstünlük verilir. Məsələn, biz klassik musiqi fənləri keçirik, ançaq onlar xalq musiqisini öyrənmirlər. Bu, hətta Cənubi Azərbaycandan gəlmiş tələbələrə müna-

sibətdə də görünür. Klassik musiqi ilə məşğul olanları daha əziz tuturlar.

Arzum budur ki, Üzeyir bəyin böyük fədakarlıq və tükənməz zəhmət hesabına yaratdığı bu təhsil ocağından milli musiqimizin sədaları heç zaman kəsilməsin.

– ***Cavid**, **bayaq dedin ki, Bakıya gəlməkdə ürəyində tutduğun arzular cücərdi. İndi, sağlıq olsun, gələcək üçün niyyətin, planların nədir?***

– Mənim arzum burada muğamları imkanım daxilində mükəmməl öyrənmək və Təbrizə qayıtmaqdır. **İnanıram ki, daha şagirdlərimin bütün suallarına cavab verə biləcəyəm. Hətta ən çətin suallarına da. Hətta musiqi ilə bağlı olmayanlarına da.** Bu baxımdan bizim – Bakıda təhsil alan cənublu gənclərin üzərinə böyük tarixi missiya düşür. Kaş bu məsələnin incəliyini və vacibliyini hər yerdə başa düşəydilər. Xüsusən də televiziyada. Nəzərə almaq lazımdır ki, Cənubda imkanı olanlar Bakı televiziyasına baxırlar və cənublu musiqiçinin Bakı televiziyasında çıxış etməsi təkcə sənət məsələsi deyil.

Əsas odur ki, biz hamımız Azərbaycana xidmət etməliyik.

***"Xalq qəzeti", 1.08.1997.***

# DAHİLİYİN TƏKRARI OLMUR

**Görkəmli bəstəkarımız, Xalq artisti Tofiq Quliyev Rəşid Behbudovun həm ən yaxın sənət yoldaşlarından, həm də ən yaxın dostlarından biri olub. Böyük müğənni haqqında onun xatirələrini, ürək sözlərini eşitmək üçün görüşünə getdik. Bir neçə saatlıq söhbətin bəzi məqamlarını oxuculara təqdim edirik.**

***– Tofiq müəllim, Siz Rəşid Behbudovun ən yaxın dostlarından biri olmusunuz. Bəlkə, elə söhbətə bu dostluğun tarixçəsindən, ilk tanışlığınızdan başlayaq? Necə oldu ki, sənət əməkdaşlığı şəxsi dostluğa çevrildi?***

– Bakıda çoxları kimi mən də Rəşidlə ilk dəfə “Arşın mal alan” filminin çəkilişi zamanı tanış olmuşam – 1945-ci ildə. O zaman Rəşid Behbudov Ermənistan caz orkestrinin solisti idi. Bakıya qastrola gəlmişdilər.

Mən kinostudiyada başqa bir filmin musiqisi üzərində işləyirdim. Bilirdim ki, “Arşın mal alan"ın çəkilişinə hazırlıq gedir, onu da bilirdim ki, Əsgəri tapa bilmirlər. Filmin rejissoru Rza Təhmasib Rəşidin sorağını aldı və çəkilişə dəvət etmək qərarına gəldi. Ancaq onu Bakıda

saxlamaq asan deyildi. Onların Rostova səfəri var idi. Orkestrin rəhbəri Ayvazyan isə belə bir solisti əldən buraxmaq istəmirdi. Özbaşına qalmaq da olmazdı, zəmanə başqa idi. Nə isə... Niyaziylə ikimiz Rəşidlə razılaşıb belə bir hiylə qurduq ki, bunlar yola düşəndə vaqzalda Rəşid "dava salır" və milis onu "saxlayır". Orkestr də məcburən onsuz çıxıb getməli olur. Ayvazyan da əsl erməniydi də, "planımızı" dərhal başa düşdü. Mənə dedi ki, Tofiq-can, lazım deyil, qoy bu qastrollarımızı qurtaraq, mən özüm onu Bakıya göndərərəm. Halbuki o vaxt hələ Rəşidin çəkilib-çəkilməyəcəyi bilinmirdi. Ayvazyan sözünün üstündə durdu. Qastrollar başa çatandan sonra Rəşidi, dilindən söz alıb, hətta qayıdacağına and içdirib, Bakıya göndərdi.

Əsgər roluna Rəşidi Üzeyir bəy özü bəyənib seçdi. "Arşın mal alan" elə əsərdir ki, onunla bircə dəfə təmasda olan ömürlük bağlanır. Rəşid də Əsgər roluna çəkilməklə "canını qurtara bilmədi", bu obraza ömürlük bağlandı, onun mahnılarını son gününə qədər bütün konsertlərində oxudu, dünyada onunla tanındı. İndi Əsgərlə Rəşidi bir-birindən ayrı təsəvvür etmək də mümkün deyil. Rəşid çox istedadlı adam idi. İstənilən musiqini bircə dəfə eşitməklə tam qavrayırdı. Ancaq sənətinə elə ciddi yanaşırdı ki, mahnını səhnəyə çıxaranacan azı üç-dörd ay işləyirdi. Əsgərin mahnılarını isə ömrünün sonunacan dönə-dönə işlədi, daim yeniləşdirdi, təkmilləşdirdi. Heç deməzdin ki, bu müğənni bu mahnını qırx ildir oxuyur. Elə təravətli idi.

“Arşın mal alan”ın çəkilişi xeyli çəkdi. Biz tez-tez görüşürdük. Dostluğumuzun da binası elə o zaman qoyuldu.

Rəşid kimi müğənnilər dünyada az-az olur. Mən cəsarətlə deyə bilərəm ki, mənim mahnılarımın müəlliflik haqqının yarısı Rəşidindir. Mən bu sözləri deməkdən utanmıram, əksinə, bununla fəxr edirəm. Mən mahnıların musiqisi haqqında onun təkliflərini həmişə qəbul edirdim, həmişə də işin xeyrinə olurdu.

***–Tofiq muəllim, mən bu sualı bir az sonra vermək istəyirdim, bir halda ki, söhbət gəlib bura çatdı, elə bəri başdan soruşum. Sizin mahnılarınızı Bülbül oxuyub. Şövkət xanım, Gülağa Məmmədov, Mirzə Babayev, Müslüm Maqomayev, Fidan Qasımova kimi görkəmli müğənnilər oxuyub. Bu sırada Rəşidin yeri, özünəməxsusluğu nədə idi?***

– Bu barədə mənim bəxtim gətirib. Mənim mahnılarımı böyük müğənnilər oxuyub. Bülbüldən başlamış.

Rəşid mahnıya ikinci müəllif kimi yanaşırdı. Mənim çox mahnılarım bu günə qədər məhz Rəşidin dəyişdiyi, Rəşidin işlədiyi şəkildə yaşayır.

***– Adətən, tanınmış sənət adamlarının şəxsi həyatı da onların pərəstişkarları üçün maraqlı və çox zaman bütün xırdalıqlarına qədər bəlli olur. Ancaq Rəşid Behbudov uzun illər çox populyar ifaçı olmağına baxmayaraq, səhnədən kənardakı həyatı elə pərdə arxasında da***

***qalıb. Rəşid yoldaşlıqda, dostluqda, adi insani münasibətlərdə necə idi?***

– Kişi məclisində Rəşidin misli yox idi. Çox canlı, çox həvəsli, zarafatcıl. Dostluqda da sənətdəki qədər tələbkar idi. Bəzən tərsliyi də vardı.

... Şəxsi həyatını deyə bilmərəm, ancaq sənətdə Rəşid xoşbəxt idi, hamıdan xoşbəxt. Rəşidin tayı-bərabəri yox idi. Nə vaxtsa olacaqmı, onu Allah bilir. Bəlkə də, heç olmayacaq.

– ***Tofiq müəllim, Rəşid Behbudovun musiqi təhsili olmayıb. İstedad öz yerində, bəs bu qədər zəngin musiqi savadının, biliyinin köku hardan idi?***

– Rəşidin atası muğam ustası olub. Məcid Behbudov əsrin əvvəllərində ən məşhur xanəndələrdən imiş. Rəşid peşəkar sənətə cazla gəlmişdi, sonra nadir estrada müğənnisi kimi bütün dünyada tanındı. Romanslar da oxuyurdu, operada da çıxış edirdi.

Düzdür, muğam oxumamışdı, amma mahnılarında, hətta başqa xalqların mahnılarını oxuyarkən muğam boğazlarından, zəngulələrindən çox böyük ustalıqla istifadə edərdi. Əlbəttə, Xan Şuşinski deyildi, amma muğamatı yaxşı bilirdi. Ümumiyyətlə, Rəşid dünya mədəniyyətinə bağlı olsa da, çox milli sənətkar idi. Dilini, vətənini çox sevirdi. Təsadüfi deyil ki, bütün yaradıcılığı boyu repertuarında xalq mahnıları əsas yer tuturdu. Bir də ki, Rəşid hər mahnını bəyənib oxumazdı.

***– İncəsənətdə belə bir qanunauyğunluq var ki, təzə gələn cavanlar heç olmasa bir müddət o sahədə öndə gedən sənətkarın təsiri altında olurlar. İstedadsızı yamsılayır, istedadlısı yaxşı cəhətlərini götürür. Rəşid peşəkar səhnəyə gələndə Bülbül sənətkarlığın, şan-şöhrətin zirvəsində idi. Rəşidin Bülbül üslubunun birbaşa davamçısı olmaq ehtimalı çox böyük idi və bu, təbii görünərdi. Repertuarlarında da müəyyən yaxınlıq vardı, Bülbülün oxuduğu bir çox mahnıları Rəşid də oxuyurdu. Ançaq tamam ayrı cür oxuyurdu – başqa yöndə, yeni üslubda. Və ifaçılıq sənətimizdə yeni yol aça, yeni məktəb yarada bildi...***

– Rəşid Bülbülə pərəstişlə yanaşırdı. Bülbül də onu çox istəyirdi. Dəfələrlə Bülbülün evində görüşərdik, oturardıq, stol açılardı... Rəşid Bülbüldən çox şey öyrənib. Amma Rəşid gənc idi, enerjili idi. 50-ci illər artıq onun dövranı idi. Zamanın ruhuna o daha yaxın idi. Mən təzə mahnılarımı Rəşidə verəndə hərdən hiss edirdim ki, Bülbülün xətrinə dəyir.

İkisi də dahi sənətkar idi, ikisi də mənim yaradıcılığımda böyük rol oynayıb, ikisinin də xətrini dünyalarcan istəmişəm. Ancaq hərəsinin öz yeri vardı. Və nə yaxşı ki, Rəşid özünə yeni yol seçmişdi. O, sənətdə daha qısqanc idi. Heç vaxt istəməzdi ki, kiməsə bənzəsin. Cürbəcür "xodlar" tapırdım ki, nə məndən, nə də bir-birindən incimısinlər. İki böyük və bir-birinə bənzəməyən müğənninin olmasından sənətimiz udurdu.

**Rəşid Bülbül oxuyan kimi oxuya bilməzdi, amma Bülbül də Rəşid kimi oxuya bilməzdi. Azərbaycanın nə qədər istedadlı müğənnisi olub, elə indi də var. Ancaq nə Bülbül, nə də Rəşid təkrar olunmayacaq. Ümumiyyətlə, dahiliyin təkrarı olmur.**

Rəşid haqqında danışanda mən həmişə dilxor oluram. Çünki elə nadir şəxsiyyəti, elə dostu bir də tapa bilmərəm. Onun haqqında adi müğənni kimi danışmaq olmaz. O cür adamlar dünyaya yüz ildə bir dəfə gəlir.

*"Xalq qəzeti", 14.12.1997.*

# MUĞAMATIN İLK PROFESSORU

**Görkəmli muğam ustası, respublikanın Xalq artisti Arif Babayevin 60 yaşı tamam olur. Azərbaycan Prezidenti Heydər Əliyevin fərmanı ilə o, "Şöhrət" ordeni ilə təltif edilmişdir. Arif Babayev Azərbaycan xalq musiqisi ifaçılığı sənətində dəyərli xidmətləri olan sənətkarlardandır. Onun ifasında "Rast", "Şur", "Çahargah", "Segah", "Mirzə Hüseyn segahı", "Segah-Zabul", "Zabul'', "Bayatı-Şiraz'', "Mahur", "Mahur-hindi", "Orta-mahur", "Bayatı-Qacar" muğam dəsgahları, zərb muğamlar, təsniflər, xalq mahnıları musiqi xəzinəmizin inciləri sırasına daxil olmuşdur.**

Muğam ifaçılığı sahəsində zaman etibarilə Arif Babayevdən sonra bu qədər zəngin repertuar təcrübəsinə malik ikinci bir müğənninin adını çəkmək mümkün deyil.

Xanəndəliklə yanaşı o, otuz ildən artıq opera səhnəsində baş rollarda çıxış etmiş – Məcnun, Kərəm, Şah İsmayıl, Aşıq Qərib, Camal kimi bənzərsiz obrazlar yaratmışdır.

1984-cü ildə Azərbaycan Dövlət Konservatoriyasında ilk muğam sinfini təşkil edən Arif Babayev 1996-cı ildə muğam sənəti üzrə ilk professor adına layiq görülmüşdür.

Görkəmli sənətkarımızı 60 yaşı və yüksək dövlət mükafatına layiq görülməsi münasibətilə təbrik edir, ona ifaçılıq və müəllimlik işində yeni-yeni uğurlar arzulayırıq.

## *"Xanəndəlikdə "mən bilirəm" söhbəti yoxdur"*

***– Arif muəllim, 60 yaşın ucalığından baxanda keçdiyiniz ömur və sənət yolu necə görünür?***

– Geriyə boylananda mən, hər şeydən əvvəl, özümə ustad bildiyim böyük sənətkarlarımızı – Seyid Şuşinski, Xan Şuşinski, Zülfü Adıgözəlov, Mütəllim Mütəllimov kimi xanəndələri, onların xalq musiqisini göz bəbəyi kimi qorumaq yolunda çəkdikləri zəhməti, bu sənətə qoyduqları xətir-hörməti xatırlayıram. Və o günlə indini bu cəhətdən müqayisə eləyəndə görürəm ki, yerlə göy qədər fərq var. Onların sənətdəki məsuliyyətini, tələbkarlığını bu gün biz heç təsəvvür edə bilmirik. Özlərinə də, başqalarına da yalnız sənət meyarları ilə qiymət verirdilər, hər yetəni sənət meydanına buraxmırdılar. Nəticədə də xalq sənətimiz, muğamatımız urvata minirdi.

Bunları yadıma salanda xalq musiqimizin indiki halına mənim yazığım gəlir. İstedadlı musiqiçilərimiz bu gün də var. Amma münasibət... Vallah, belə olmaz. Başa düşürəm, vaxt dəyişir, şərait dəyişir. Hərdən mənə deyirlər ki, müasir musiqiyə meydan vermək lazımdır. Deyirəm, iyirmi, otuz, qırx il əvvəlin də "müasir" musiqisi vardı. Hanı indi o mahnılar, kimin yadında qalıb? Amma muğamat, xalq musiqisi yaşayır. Bir sənət ki, yüz illər yaşayıb bu günə çatıb, deməli, indən belə də yüz illər yaşayacaq, həmişə də müasir olacaq. Onu qorumaq, yaradıcılıqla inkişaf etdirmək lazımdır.

– ***Sənət yolunuzun başlanğıcı, bu yolda atdığınız ilk addımlar barədə...***

– Çox çətin yollar keçmişəm. Kənd məktəbində nəğmə oxumaqdan başlamışam. Sonra Ağdamda 5 N-li məktəbdə oxuyanda özfəaliyyət dərnəyinə getdim, rayon mədəniyyət evində çıxış etdim, yavaş-yavaş tanınmağa başladım. Dəfələrlə Bakıya – yaradıcılıq olimpiadalarına gəlmişəm, elə vaxt olub ki, ağlaya-ağlaya qayıtmışam. Qayıtmışam, amma ruhdan düşməmişəm. Demişəm, sübut eləyəcəm ki, mən oxuyanam.

– ***Arif muəllim, yəqin Sizin yeniyetməlik çağlarınızda Ağdamda, Qarabağda Sizin kimi səsi, oxumaq həvəsi, şövqü olan, özfəaliyyətdə iştirak edən, müsabiqələrə qalib-qayıdan onlarca gənc olub. Ancaq onların sırasından tək-tək peşəkar xanəndələr yetişib. Oxumaq həvəsi ilə peşəkar sənətin sərhədi hardadır və necə keçilir?***

– Bu, ilk növbədə zəhmətdən, işinə, sənətinə tələbkarlıqdan asılıdır. Təkcə Allahın verdiyi səsə, istedada bel bağlamaqla peşəkar olmaq olmaz. Gərək öyrənəsən. Mən artıq yeddinci sinifdə oxuyarkən qarşıma məqsəd qoymuşdum ki, xanəndə olacağam. Bayaq adlarını çəkdiyim ustad sənətkarlarımızın radio çıxışlarını, vallarını dinləməklə yanaşı, toylarda, məclislərdə rayonun tanınmış xanəndələrinə qulaq asırdım. Hərəsindən bir şey götürürdüm. Elə gözəl, elə təmiz oxuyurdular ki! Qondarma şey oxuyanı yaxın buraxmazdılar, lağa qoyardılar. İlk öyrəndiyim xanəndələri – Şelli Məhəmmədi, Bəylər əmini, Bahadur kişini, Niqay kişini, Xosrovu həmişə minnətdarlıqla xatırlayıram.

1961-ci ildə birdəfəlik yığışıb gəldim Bakıya. İnstituta girdim, filarmoniyaya qəbul olundum.

Ümumiyyətlə, sənət yolunda heç nəyə asan və tezcə çatmamışam. Filarmoniyanın, opera teatrının səhnəsi mənə əlçatmaz görünüb.

– ***Bəs nə zaman ozunuzə etiraf etdiniz ki, daha peşəkar muğam ifaçısısınız?***

– Vallah, bu gün də mən bunu etiraf eləməyə qorxuram. Ömrüm boyu ustad xanəndələrdən öyrənmişəm. Ürəyim istəyənləri elə ürəyim istədiyi kimi oxumağa çalışmışam. Amma xalq musiqisini, muğamatı nə qədər öyrənsən də, azdır, dəryadan bir damladır. İnanın, indinin özündə də öyrənirəm. Bir də görürsən, heç kəsin tanıma-

dığı bir xanəndə elə nəfəs vurur ki, görürəm, bizim heç ondan xəbərimiz yoxdur.

– **Deyirsiniz, gənclikdə sənətin zirvələri sizə əlçatmaz görünürdü. Bu gün mubaliğəsiz demək olar ki, siz o zirvəyə çatıbsınız. Muğam ifaçılığında az-az sənətkara nəsib olan qədər uğurlar qazanıbsınız. İfaçılıq baxımından elə şeylər varmı ki, bu gün baxanda – hələ buna əlim yetməyib – deyəsiniz?**

– Niyə yoxdur? Var! Çoxdur. Elə şeylər var, mən hələ öyrənməliyəm. Muğamatın sirri də bundadır ki, dərinə getdikcə görürsən bilmədiyin bildiyindən də çoxmuş. Və bu adı üstünə götürübsənsə, gərək ömrünün axırına qədər öyrənəsən. "Mən muğamatı bildim" sözünü kimdən eşitsəniz, bilin ki, ciddi adam deyil. Xanəndəlikdə "mən bilirəm" söhbəti yoxdur.

Lent yazılarımı dinlədikcə görürəm ki, daha yaxşı oxumaq olar. Düzdür, səs cavandır, amma ustalıq məsələsi ayrı şeydir. Əyər-əysikləri görürəm. Oxumaq lazımdır. İmkan olsaydı, oxuduqlarımın hamısını təzədən yazdırardım. Bir neçə il əvvəl oxuduğum bütün dəsgahları Moskvada muğam antologiyası şəklində yazdırmışdım. Heyf ki, ara qarışdı, o lentlər gəlib çıxmadı.

Elə muğamlar da var ki, məclislərdə oxusam da, lentə yazdırmamışam. "Hümayun"u, "Şüştər"i hazırlayıram, qismət olsa, yazdıraçam. Bir də "Çoban bayatı". Bu havanı tək-tək xanəndələr oxuyub. Mən də oxumuşam, amma

ürəyimdə ayrı bir istəyim var – “Çoban bayatı”nı muğam dəsgahı kimi hazırlamaq. Neçə ildi üzərində işləyirəm.

## *"Ən böyuk arzuma çatdım"*

***– Arif muəllim, belə bir məsəl var ki, xanəndə 30 yaşınacan öyrənir, 30 yaşından 50 yaşınacan oxuyur, 50 yaşından sonra öyrədir. Sizin taleyiniz elə gətirib ki, fəal ifaçılıqla yanaşı, onunla eyni vaxtda muğamatı öyrətməklə bağlı da üzərinizə böyük bir vəzifə düşüb. Muğam ifaçılığı tarixində ilk dəfə siz bu sənəti ali məktəb – konservatoriya səviyyəsində tədris etməyə başlamısınız. Bunun tarixçəsi necə olub?***

– Mənim müəllimlik fəaliyyətimin tarixi 1981-ci ildən başlayır. Bəlkə də, yadınızda olar, mərhum Xeyransa Məmmədova o zaman lap kiçik yaşlarında səhnəyə çıxıb tamaşaçıların məhəbbətini qazandı və indiki Prezidentimiz Heydər Əliyev cənabları respublikanın rəhbəri kimi istedadlı uşaqları toplayıb Bülbül adına məktəbdə xüsusi muğam sinfi təşkil etmək barədə göstəriş verdi. Bu, tarixi bir hadisə idi. Rayonlara getdik, qabiliyyətli uşaqları tapıb Bakıya gətirdik, müsabiqə keçirdik və qalib gələnləri həmin sinfə cəlb etdik. Məktəbin o vaxtkı direktoru rəhmətlik Nazim Əliverdibəyovun təklifi ilə Şövkət xanım və İslam Rzayevlə birgə mən də həmin uşaqlarla məşğul olmağa başladım. Odu-budu müəllimlik peşəsinə bağlanmışam.

İçi mən qarışıq hamımız deyirik ki, xalq musiqimizi yaşatmaq lazımdır. Neçə? Gərək gəncləri öyrədək ki, yaşasın.

Sonra Konservatoriyada muğam sinfi yaratmaq zərurəti yarandı. İlk təşəbbüsçülərdən biri də mən oldum, iş də mənim boynuma düşdü. Bizim Musiqi Akademiyasında muğam tədrisi bu ocağın yaradıcısı Üzeyir bəyin ideyası olub. Nəhayət ki, zamanı gəlib çatdı. 1984-cü ildə Bülbül adına məktəbi bitirən şagirdlərimizin ən yaxşılarını Konservatoriyaya qəbul etdik. Mən də ən böyük arzuma çatdım – Azərbaycan Konservatoriyasında ilk muğam müəllimi oldum.

***– Sinif açmaq, tələbə toplamaq işin təşkilati tərəfidir. Daha çətini, analoqu olmayan bu təcrübəni həyata keçirmək – metodika yaratmaq, proqram və dərs vəsaitləri hazırlamaq, tədris prosesini qurmaq idi. Bunlara necə nail oldunuz?***

– Çətinliyimiz çox oldu. Əvvəl proqram tərtib etdik. Şübhəsiz ki, biz orta ixtisas məktəblərinin gördüyü işi təkrar edə bilməzdik. Tələbələrimizin artıq müəyyən bilik və bacarığa malik olmalarını nəzərə alaraq qarşıya daha ciddi məqsədlər, ali musiqi təhsili səviyyəsində vəzifələr qoyuruq, muğamın incəliklərini onlara daha dərindən öyrədirik. İkincisi də, burada məqsəd təkcə ayrı-ayrı muğamları, onların şöbələrini, yəni muğamatın yalnız formal cəhətlərini yox, həm də mahiyyətini, fəlsəfəsini, nəzəriyyəsini öyrətməkdir. Bir sıra dərs vəsaitləri nəşr etdirmişik, yenilərini də hazırlayırıq. Tələbələrimiz ali məktəb səviy-

yəsinə uyğun bir çox başqa fənləri də öyrənirlər. Sağlıq olsun, gələcəkdə dilimizi, tariximizi, ədəbiyyatımızı, xüsusən klassik poeziyamızı, əruzu daha geniş tədris etmək fikrindəyik. Musiqi Akademiyasında ayrıca bir muğam kafedrası yaratmaq planımız da var. Bütün bu işlərdə Akademiyamızın rektoru, görkəmli sənətkarımız Fərhad Bədəlbəyli bizimlə həmfikirdir.

– ***Arif muəllim, muğam ifaçılığının bölgələr üzrə spesifik xüsusiyyətləri var. Deyək ki, Qarabağ xanəndələrinin üslubu ilə Bakı, yaxud Şirvan xanəndələrinin oxuması xeyli fərqlənir. Tədris isə müəyyən standartlar tələb edən bir prosesdir. Bununla bağlı problemlər meydana çıxmır ki?***

– Açığı, mən üslublar arasında elə bir ciddi fərq görmürəm. Əsas yol, klassik yol birdir. Müəyyən spesifik cəhətlər, əlbəttə, var. Danılmaz həqiqətdir ki, səs daha çox Qarabağdan çıxır. Amma biz hamımız oxumağın inçəliklərini Bakıda, daha doğrusu, Bakının 32 kəndində, onların toy məclislərində öyrənirik, burada püxtələşirik. Bizdən əvvəlki ustadlar da bunu belə deyirdilər, həqiqət də budur. Xanəndələrin hamısı həm sənət, həm də dolanışıq baxımından Bakı kəndlərinə minnətdar olmalıdır. Bu camaat sənəti də, sənətin qədrini də, sənətkarın qiymətini də gözəl bilir.

Bir şeyi də açıq demək lazımdır – sənətkar üçün toy da bir məktəbdir. Toy ha! Toy kimi toy.

Oxumadakı fərqlər deyəndə məni başqa şey düşündürür. Biz xalq sənətimizi, Azərbaycan muğamatını yad təsirlərdən, özgələri yamsılamaqdan qorumalıyıq. Milli muğam ifaçılığına gətirilən yad nəfəslər, yad xallar bu sənətin yolunu uçuruma aparır. Muğamatı torpaq kimi qorumaq lazımdır. Muğamat bizim mənəvi ərazimizdir.

Müəllim kimi mən demokratik adamam. Əsas yolu gözləmək, muğamatın təmizliyini pozmamaq şərtilə, tələbələrimin yaradıcılıq axtarışlarını alqışlayıram, onlara sərbəstlik verirəm. Nə yenilik eləyirsən elə, amma yoldan, ölçüdən çıxma. Bu muğamatın elə bir ilahi düzümü var ki, yoldan çıxsan, mütləq yıxılacaqsan.

– ***Xanəndəliklə yanaşı, siz həm də uzun illər opera teatrının aparıcı solisti olmusunuz, muğam operalarında baş rollarda çıxış etmisiniz. Musiqi Akademiyasında muğam tədrisi zamanı opera amili nəzərə alınırmı? Tələbələrinizi bu sahəyə də hazırlayırsınızmı?***

– Mütləq nəzərə alırıq. Mənim tələbələrimdən Nəzakət Teymurova artıq Leylini oynayır, özü də yaxşı oynayır, öhdəsindən gəlir. Neçə dəfə onun oynadığı tamaşalara getmişəm, ancaq axıra qədər baxa bilmirəm. Çox həyəcanlanıram. Heç özüm oynayanda o qədər həyəcan keçirmirdim...

Bilirsiniz, operada xanəndə kimi oxumaq fayda vermir. Bunları bir-birindən ayırmaq hökmən lazımdır. Operanın öz qaydaları var.

Məcnunu oynayanda mən həmişə çalışmışam ki, tamaşaçılar mənim oxumağımı Məcnun kimi qəbul eləsin, Arif Babayev kimi yox. Başqa rollarda da o cür. Operada səni xanəndə kimi görürlərsə, deməli, rolun alınmır. Tamaşa qurtardı, qavalımı götürdüm getdim bir məclisə, yenə oldum xanəndə. Mən həmişə bunları fərqləndirmişəm.

– ***Müəllimlik peşəsinin bir ecazkar cəhəti də var – müəllim öyrədə-öyrədə özü də öyrənir. Bəzən dərs prosesində əvvəllər heç ağlına gəlməyən məsələlər ortaya çıxır...***

– Tamamilə doğrudur. Dərs müəllimi həmişə öyrənməyə, kamilləşməyə sövq edir. Muğamatın öyrəniləsi çox sirləri var. Onların bir çoxunu mən müəllimlik sayəsində dərk etmişəm. Təkcə tələbələrim məndən yox, mən də onlardan öyrənirəm. Tələbə bir çalışırsa, müəllim beş o qədər çalışmalıdır.

## *"Segah"da ruhumun ifadəsini görürəm "*

– ***Arif müəllim, mən yenidən ifaçılıq söhbətinə qayıdaraq, Sizinlə bir zamanda muğam sahəsində çalışan üç sənətkarı bir ifaçı kimi xarakterizə etmənizi xahiş edərdim. Sizdən yaşlı nəslin nümayəndəsi olan Hacıbaba Hüseynovu, Sizinlə eyni nəslə mənsub olan Qədir Rüstəmovu və sənətə Sizdən sonra gəlmiş Alim Qasımovu.***

–"El gözü tərəzidir" – deyirlər. Adlarını çəkdiyiniz xanəndələrin üçü də xalqın sevdiyi və haqlı olaraq yüksək

qiymətləndirdiyi sənətkarlardır. Hər birinin öz yolu, öz ifa tərzi var. Mən yolları təhlil etmək istəmirəm.

Allah Hacıbaba Hüseynova rəhmət eləsin. Səsinin zili olmasa da, çox böyük ustalığı vardı. Muğamata mükəmməl yiyələnmişdi, əruzu, qəzəliyyatı da gözəl bilirdi. Ağılla, düşünə-düşünə oxuyurdu. Üstəlik də yaradıcı sənətkar idi.

Qədirə gəlincə, bilirsiz, Qədirin səsindəki yanğı hər xanəndədə olmur. Çox ürəkdən gələn və ürəkləri fəth edən bir səsdir. Qədir oxuduğuna öz ruhunu verə bilir. Götürək elə, "Sona bülbüllər"i. Qədirdən əvvəl də oxumuşdular, amma o, başqa bir şey yaratdı, sanki mahnıya yeni ruh verdi.

Alim Qasımov çox yüksək istedadlı bir insandır. Yetkin xanəndə üçün lazım olan bütün keyfiyyətlər onda var. Mən Alimlə bir yerdə məclislərdə olmuşam, "Rast"ını, "Şur"unu, "Çahargah"ını eşitmişəm. Gözəl oxuyur, bütün qayda-qanunuyla. Alim muğamatda nə istəsə, oxuya bilər. Özünün də elə vaxtıdır ki, oxumalıdır, lentə yazdırmalıdır. Ancaq hələ ki, daha çox axtarışla məşğul olur. Mən ona uğurlar diləyirəm.

Muğam ifaçılığında bu üç xanəndənin hər birinin danılmaz xidməti var.

– ***Arif müəllim, niyə konsert vermirsiniz?***

– Yaralı yerimizə toxunursunuz. Bu, tək mənim yox, əksər ifaçılarımızın problemidir. Əlbəttə, konsert vermək istəyərəm. Lap tələbələrimi də yığaram başıma, elə gözəl

konsert verərik! Amma diqqət, qayğı yoxdur. Maraqlanan yoxdur. Filarmoniya işləmir, başqa yerlərdə də konsertlərin təşkili qaydaları indi başqa cürdür. Açığını bilmək istəsəniz, sənətkarın vaxtı, enerjisi, həvəsi, lap belə, üzünün suyu sponsor axtarışına sərf olunmamalıdır. Xalq musiqisinin təbliği, reklamı üçün xüsusi tədbirlər görmək lazımdır.

– ***Könlünüzə musiqi dinləmək düşəndə nəyə qulaq asırsınız? Özünüzdən və başqalarından...***

– Öz oxuduqlarından "Sekah"a qulaq asıram. Mənim qəlbimə ən yaxın muğam "Segah"dır. "Segah"da ruhumun ifadəsini görürəm.

Muğam xanəndələrinin hərəsinin öz yeri var. İfa üslubuna görə mənə doğma olan və ən çox dinlədiyim Yaqub Məmmədovdur.

## *"Torpaq anadan da şirindir "*

– ***Arif müəllim, söhbətimizin əvvəlində 60 yaşın ucalığından keçmişə nəzər saldınız. İndi mən bunun əksini soruşmaq istəyirəm. Gələcəyə baxanda nə görürsünüz? Arzularınız, istəkləriniz...***

– Gələcəkdən mənim gözlədiyim, arzuladığım yeganə bir şey torpaqlarımızın taleyidir. Torpaq şirin şeydir. Torpaq anadan da şirindir. Mənim yurdum-yuvam düşmən əlindədir. Ürəyimin dərdi budur.

Əminəm, inanıram ki, rəhbərimizin apardığı siyasət bu dərdimizə əlac eləyəcək. Hər birimiz bu yolda hər şeyə hazır olmalıyıq.

Sənət baxımından nə deyə bilərəm... Oxumaq lazımdır, çalışmaq lazımdır. Xalqımızın sənətini yaşatmalıyıq, ocaq sönməməlidir. Allaha şükür, hələ əldən-ayaqdan düşməmişəm. 60 yaş kişi üçün nədir ki!..

***R.S., yaxud "yubiley yazısı"nda "bədii hissə"nin olmaması haqqında üzrxahlıq***

**Təəssüf ki, Arif muəllimin söhbət zamanı yeri gəldikcə sözünə qüvvət üçün etdiyi şirin zümzümələri diktofondan yazıya köçürmək mümkün olmadı.**

***"Xalq qəzeti", 21.02.1998.***

## " SƏNƏ SEVİRƏM DESƏM..."

## *Bir zaman bu sözlər fərdi bir eşqin yaşantısı kimi yazılmışdı, indi isə...*

**Redaksiyamızın qonağı Almaniyada yaşayan soydaşımız şairə Nuridə Atəşidir. Nuridə Atəşinin adı, bəlkə də, qəzetimizin oxucularına tanış gəlməyəcək. Ancaq əminəm ki, bircə faktı xatırlatsam, onu hamı tanıyacaq. Müğənni İlhamə xanımın ifasında geniş populyarlıq qazanmış Faiq Sücəddinovun "Neylərsən mənə, görən?" mahnısı Nuridənin şeirinə bəstələnib.**

### *"Vətənimə qanımla bağlıyam"*

*– Nuridə xanım, Almaniyaya necə gedib çıxdınız? Taleyin hansı dolanbacları yolunuzu qurbətə saldı?*

– 1993-cü ildə qızım çox ağır xəstəliyə tutuldu, üç dəfə cərrahiyyə əməliyyatına düşdü. Sonra məlum oldu ki, bunlar hədərmiş, onu iynə-dərmanla sağaltmaq olarmış.

Burada həkimlər üzümə dedilər ki, uşaq yaşamayacaq. Öyrəndim ki, bu xəstəliyi Almaniyada müalicə edirlər. Ölümlə savaşa qalxdım. Dedim, yox, mən balamı qurtaracağam.

Sağ olsunlar, Prezident Aparatından, Nazirlər Kabinetindən lazımi sənədləri tezliklə hazırlamağa kömək etdilər. “Azərkimya” şirkətinin rəhbəri Fikrət Sadıqov maddi kömək göstərdi. 1994-cü ilin aprelində Almaniyaya yola düşdüm. Berlində professor Mario Brokun klinikasında uşağı müalicəyə götürdülər, çətin vəziyyətdən çıxardılar. Ancaq dedilər ki, müəyyən yaşa qədər daimi həkim nəzarətində olması lazımdır və uşaq burada saxlanılmalıdır. Beləliklə, Almaniyada qalmalı oldum.

– ***Bəs bu illərdə Almaniyada gününüz-güzəranınız necə keçib? Nə ilə məşğul olmusunuz?***

– Berlində TD-1 adlı alman-türk telekanalı var. Gündə 24 saat veriliş yayınlayır. Orada məni bir proqrama dəvət etdilər. Yarım saatlıq verilişdə Azərbaycandan gəlmiş sənətçi kimi çıxış etdim. Veriliş seyrçilər və televizionun rəhbərliyi tərəfindən çox bəyənildi, mənə təklif etdilər ki, gəl bizim kanalda Azərbaycan dilində bir proqram aç, çalış. Mən “Berlindən Asiyaya körpü” adlı yeni bir veriliş açdım. Həftədə bir dəfə, bazar günləri efirə çıxan bir saatlıq verilişdir. Çox uğurlu alındı. Televizionun rəhbərliyi Azərbaycan televiziyasına, Mədəniyyət Nazirliyinə, Nazirlər Kabinetinə məktubla müraciət elədi ki, sizin mədəniyyətinizi, incəsənətinizi biz Almaniyada təbliğ edirik,

səsinizi dünyaya yetirmək istəyirik. Proqramın hazırlanmasına çəkiliş materialları ilə, xəbərlərlə kömək göstərilməsini xahiş etdilər. Bakıdan bir soraq gəlmədi...

Proqram çox sevildi. Sonra televiziyadan mənə təklif etdilər ki, türk gəncləri üçün yeni bir proqram açım. Bu səfər "Sevgi dünyası" adlı ikinci bir veriliş açdım. İlk növbədə qadınlar üçün nəzərdə tutulan bu veriliş iki kültür – alman və türk mədəniyyətləri arasında böyüyən, yetişən gənclərə milli dəyərlərin, milli hisslərin aşılanmasına xidmət edir.

Berlində iki milyondan çox türk yaşayır. Cənubi Azərbaycandan gəlmiş, buradan gedən soydaşlarımız da var. Onlar bizi özlərindən ayırmırlar – "həpimiz türkük"– deyirlər.

Yeni proqramımız efirə hər gün bir saatlıq canlı yayımla çıxır. Bundan başqa, radio verilişləri də hazırlayıram.

Berlində "Tüha bilim" adlı türk kültür mərkəzi var. Məni ora müəllim kimi dəvət etdilər və türk uşaqlarına Azərbaycan teatrı, xalq oyunları, xalq rəqsləri mövzularında dərs deməyə başladım.

Elə həmin vaxtdan da Almaniyada və Belçikada çıxan türk qəzetlərində şeirlərim çap olunmağa başladı. Cənublu soydaşlarımız bir çox şeirlərimi tərcümə edib Almaniyada farsca buraxdıqları qəzetlərdə dərc etdilər. Almancaya, ingiliscəyə tərcümə olundum. "Qarabağımız –

qara bağrımız" adlı bir şeirim özümün xəbərim olmadan İsveçdə çap olundu.

Berlində "Şeirlik" adlı aylıq poeziya almanaxı nəşr olunur. Bu almanaxa böyük bir yayın evi – nəşriyyat sponsorluq edir. Orada da bir şeirim çıxdı və maraqla qarşılandı. Bundan sonra məni axtarıb tapdılar və kitabımın nəşrini təklif etdilər. Almaniyada kitab çıxarmaq çox bahadır. "Ovundan qaçan ovçu" adlı bu iri kitabın nəşrinə yayın evi 14 min marka xərc çəkdi. Bu kitabdakı şeirlər türkcədir. Bəlkə də, mənə irad tutarsınız ki, niyə ana dilində yazmıram. Ancaq nəşriyyatın buraxdığı kitabın satılmasında maraqlı olmasını nəzərə alın. Elə mən özüm də şeirlərimin oxucu tapmasını istəyirdim. Bizim türkcəmizdə isə orada oxucu, demək olar ki, yoxdur. Şeirlərimin bir qismini özüm türkcəyə çevirdim, sonra redaktə etdilər. Bir çoxunu isə türkcə yazmışam. Reallıqla hesablaşmalıyam.

Bir dəfə məni Fransaya, bir şeir axşamına dəvət etmişdilər. Azərbaycanca üç şeir oxudum, anlamadılar. Sonra həmin şeirləri türkcə oxudum, sevdilər, bəyəndilər. Avropa oxucusuna açılmaq üçün mənim başqa yolum yoxdur. Berlində yaşayan görkəmli türk ziyalıları, yazıçıları Adnan Binyazar, Gültəkin Ömrə, Zəfər Şənocaq da mənə bunu məsləhət gördülər.

Mən buradan gedəndə dil bilməmək ən ağır problemim idi. Türkcəni anlayırdım, amma almanca heç nə bilmirdim. Çox çətinlik çəkdim. Düz bir il azərbaycanca bütün kitablarımı gizlədim. Türk kitablarının, vəsaitlərinin

köməyilə alman dilini öyrənməyə başladım. Qarşılıqlı olaraq həm türkcəni, həm almancanı öyrəndim. Bu bir ildə şeirlərimdə də böyük dəyişiklik yarandı.

– ***Bütün bunları nəzərə alsaq, siz – bir şair kimi, ana dilimizdə yazmaq, özünüzü bir azərbaycanlı kimi ifadə etmək səriştənizi itirməkdən qorxmursunuzmu*?**

– Yox, nə danışırsınız?! Mən dilimə, Vətənimə, millətimə qanımla, canımla bağlıyam. Bir şair kimi də, jurnalist kimi də, televiziya işçisi kimi də mən azərbaycanlıyam, Azərbaycanı təmsil edirəm. Sadəcə, gündəlik işim türklərlə, almanlarla ünsiyyətdə keçir. Bunu mənə qüsur görməyin, məzur tutun.

## *"Daha böyük işlər görmək olar"*

– ***Şairlikdən, jurnalistlikdən danışdıq. Bayaq dediniz ki, Almaniyada sizi bir Azərbaycan sənətçisi kimi qəbul etdilər. Bəs özünüzün duyumunuzda Nuridə Atəşi kim idi? Ədəbiyyat mühitinə yenicə ayaq açan, Nuri Nalan imzası ilə ilk şeirlərini mətbuata çıxaran gənc şairə, İnçəsənət İnstitutunun məzunu, səhnə həvəsi ilə yaşayan gənc aktrisa?..***

– Yaxşı ki, mənim keçmişimi siz bilirsiniz. Hələ tələbəykən Natəvan klubuna, Gənc Yazıçıların Respublika Ədəbi Birliyinin məşğələsinə ilk gəlişimin şahidi olmusunuz. Məmməd İsmayıl mənə demişdi, şairlik qadın işi de-

yil. Sabir Rüstəmxanlı şeilərimlə tanış olanda dedi, gəl, bunları kişi imzası ilə çap edək.

– ***Bəs sənətçiliyinizin başqa cəhəti?***

– Öncə Mədəni-Maarif Texnikumunu, sonra İncəsənət İnstitutunu bitirmişdim. Aktrisa olmaq istəyirdim, talantım da var idi, özümə də inanırdım... Bir müddət o zaman Əhmədlidə açılmış teatrda çalışdım. Nizaminin yubileyi vaxtı Gəncədə keçirilmiş müsabiqədə Leyli rolunun ən yaxşı ifaçısı mükafatını aldım.

Aktrisa ola bilərdim... Ailə qurdum, oğlum, qızım dünyaya gəldi. Ərim məni dörd il dörd divar arasında saxladı. Çox acılar çəkdim. Yeganə həmdəmim şeirlər oldu, qəlbimi şeirlərə boşaltdım.

Zaman keçdi... Faiq Sücəddinov mənim şeirlərimə mahnılar bəstələdi – “Neylərsən mənə, görən”, “Unuda bilməyəcəyəm”, başqaları... İlhamə xanım oxudu, mahnılar məşhur oldu, amma heç kim mənim adımı çəkmədi, məni tanımadı. Mənim başım isə balamın xəstəliyinə qarışmışdı... Sonra da çıxıb getdim Almaniyaya.

Mən gedəndə İlhamə xanım mənim şeirlərimə F.Sücəddinovun üç mahnısını oxuyurdu.

1996-cı ildə Berlinə gələn bir həmyerlimiz mənə İlhamə xanımın diskini hədiyyə etdi. Sadəcə, musiqi ərməğanı kimi... Baxdım, gözlərimə inanmadım. Birinci mahnı – “Neylərsən mənə, görən”, ikinci yenə mənim şeirim, üçüncü yenə...

Diskdəki beş mahnı mənim sözlərimə yazılıb. Sonra öyrəndim ki, kaset də buraxılıb. Oradakı on bir mahnıdan da beşi mənimdir. İnanın, dünyanın heç yerində müəllifə belə sayğısızlıq edilməz. Ən qəribəsi bu ki, diskin üzərinə "müəllif haqları qorunur" yazılmışdır.

Bura gələndə diski buraxmış "Bakı" Teleradio firmasının rəhbəri Etibar Babayevlə görüşüb haqqımı tələb etdim. Dedi, İlhamə xanımla kontraktımız belə olub ki, bəstəkarın, şairin haqqını o ödəsin. Ancaq sənədin surətini mənə göstərmədilər. Axtarıb taparıq, dedilər. İlhamə xanım isə – elə söhbət olmayıb – dedi.

Müəllif Hüquqları Agentliyinə müraciət etmişəm və haqqımı axıradək tələb edəcəyəm.

– ***Yaradıcılıq və məişət qayğıları sizi ictimai həyatdan təcrid etməyib ki?***

–İlk kitabım getməzdən bir ay öncə çıxmışdı. Almaniyada da bir şeir kitabı buraxdım. Üçüncü kitabım Qarabağ şəhidləri haqqında "Qarabağımız – qara bağrımız" adlı publisistik toplu oldu. Bu kitab mənim doğma yurdumun – Oğuz rayonunun şəhidlərinə həsr olunub. Materialları hələ burda olarkən toplamışdım kitabın giriş məqaləsində Qarabağ savaşı haqqında ətraflı məlumat vermişəm. Orada yaşayanların bu barədə o qədər də geniş təsəvvürü yoxdur. Giriş məqaləsi alman və ingilis dillərinə tərcümə olunub. Televiziyada, mətbuatda bu kitab haqqında verilişlər, yazılar getdi, oxu axşamları keçirildi.

Televiziyada öz proqramlarımda da Qarabağ mövzusuna müntəzəm yer verirəm. Əlimdən gəldiyi qədər haqqımızı çatdırmağa çalışıram. Daha böyük işlər görmək olar. Ürək ağrısı ilə deyirəm bunu, təəssüflər olsun ki, bizim orada təşkilatlanmamız çox zəifdir, səfirliyimiz gərəyincə kömək etmir.

– ***Konkret nə kimi işlər görmək istəyirsiniz?***

– Mən çox çalışdım, orada Azərbaycan Mədəniyyət Mərkəzi açam. Türkiyədən gəlmiş imkanlı soydaşlarımız var. Mənə söylədilər, sən Berlində belə bir mərkəz aç, biz bütün xərcləri öz öhdəmizə götürürük. Yazılı olaraq səfirliyimizə müraciət etdim, cavab vermədilər. Qışın soyuğunda xəstə uşağımı evdə qoyub altı yüz kilometr yolu getdim Bonna, səfirlə şəxsən görüşdüm, faydası olmadı...

Mən özüm bir fərd olaraq bunu edə bilərəm, maddi dəstək verməyə hazır olan soydaşlarımız da var. Ancaq bu yolla böyük işlər görmək olmur. Beş-üç adamdan ibarət elə cəmiyyətlər çoxdur, heç bir iş görmürlər. Ancaq işi rəsmi qursaq, arxamızda Azərbaycanın dövlət təsisatları dayansa, mədəniyyətimizi, incəsənətimizi nəinki Almaniyada, bütün Avropada tanıda bilərik.

Berlində dünya kültürlər evi var. Bütün ölkələrin mədəniyyət adamları gəlir. Tez-tez festivallar, sərgilər keçirilir. Hamı gəlir, iştirak edir, öz ölkəsini, xalqını təbliğ edir. Tək Azərbaycandan başqa. Ölkəmizin problemləri çoxdur, maddi sıxıntılarımız var. İşi qura bilsək, incəsənət

xadimlərimizin bu tədbirlərə dəvətini, gediş-gəlişini oradakı iş adamlarımızın sponsorluğu ilə təşkil edə bilərik.

Kömək olsa, ölkəmiz üçün Almaniyanın telekanallarında indiyədək etdiyimizdən dəfələrlə artıq xeyirli işlər görmək olar.

Bəlkə, qəzetiniz vasitəsilə bu sözləri eşidəndən sonra kiminsə canına isti keçə...

## *"Gördüm ki, həyat çox amansızdır"*

***– Nuridə xanım, siz Almaniyaya gedəndə bütün bu saydığınız şeylər barədə düşünmürdünüz – böyük işlər görmək, uğurlar qazanmaq... Balasının dərdinə çarə axtaran bir ana. Yalqız, kimsəsiz. Gedib düşdünüz yad, qürbət bir ölkəyə. Tanımadığınız, adət etmədiyiniz həyat tərzi, münasibətlər, tamam başqa bir dünya... Almaniya sizi neçə qarşıladı? Neçə uyuşdunuz o həyata?***

– O zaman mən romantik idim, buludlarda uçurdum. həyat məni, elə bil, birdən-birə yerə çırpdı. Mən gördüm ki, həyat çox amansızdır, sənə heç nə verməyəcək. Sən istədiyin şeyləri ondan cırmaqlaya-cırmaqlaya almalısan.Savaşmağı öyrəndim. Almaniyada bir dəfə büdrədinmi, yerini alacaqlar. Zəif olsan, gücsüz olsan, səni tapdalayıb keçəcəklər. Lakin Almaniya həm də çox azad bir məmləkətdir. Baxın, üç ildə mən bu qədər iş gördüm, uğurlar qazandım. Bunlara çatmaq üçün burada on illər lazım idi. Bir şeiri çap etdirmək problemə çevrilirdi. Orada isə özümdən

xəbərsiz kitabımı buraxdılar. Bəlkə də, şansım gətirdi. Dostoyevskinin bir sozü var, deyir, insanlar məndə olan gücün, bacarığın qədərini bilmirlər. Mən də ən çox buna güvənirəm.

Mən də öz gücümə, iradəmə inanırdım. Orada istedadın, bacarığın varsa, dürüstsənsə, səni çəkərlər qabağa. Yetər ki, insan istəsin, istədikdən sonra hər şeyə çatarsan.

***–-Nuridə xanım, Almaniya haqqında kifayət qədər danışdınız. Bəs Almaniyadan Azərbaycan, qürbətdən Vətən necə görünür?***

–İlk bir ildə mən Vətən həsrəti çəkməmişdim. Elə bilirdim, alışaram, yaşayaram. Sonra bir dəfə Azərbay-candan gəlmiş qonaqlarla maşında uzaq bir yerə gedirdik. Kaset qoydular: "Küçələrə su səpmişəm". Rübabə xanım oxuyurdu. Bütün yol boyu sakit-sakit ağladım. Hər şey kino lenti kimi gözümün önündən keçdi. İlk dəfə onda anladım ki, Vətən başqa şeymiş. Almaniyada hər şeyim, hər şəraitim var. Heç nəyə ehtiyacım yoxdur. Amma Vətən nisgili həmişə ürəyimdədir. Onu heç nəylə əvəz etmək olmaz.

Gecə təyyarə enəndə Bakının işıqlarını gördüm, neftin qoxusu burnuma dəydi, elə bil yenidən doğuldum.

**Mən xalqımın sevdiyi, bəyəndiyi "Neylərsən mənə, görən" nəğməmdən bir misranı xatırlatmaq istəyirəm: "Sənə sevirəm desəm..." Zamanında bu sözlər fərdi bir eşqin yaşantısı kimi yazılmışdı. İndi bu sözlərlə mən Vətənimə xitab edirəm, ona üz tuturam. İnanın**

**səmimiliyimə, heç bir təmənnam, umacağım yoxdur. Orada mənim hər imkanım var. Heç nəyə ehtiyac duymuram. İstədiyim bir odur ki, vaxtımı, enerjimi, bacarığımı öz millətim, öz Vətənim üçün sərf edim. Dövlətin dəstəyi ilə Berlində Mədəniyyət Mərkəzi yarada bilsək, Azərbaycanın adına layiq gözəl işlər görəcəyik.**

***"Xalq qəzeti", 22.04.1998***

# USTAD

## *Musiqiçilərin dili ilə desək, maestro*

**Redaksiyamızın qonağı öz əsərləri ilə Azərbaycan mədəniyyətini tək Vətənimizdə yox, dünyanın neçə-neçə ölkəsində ləyaqətlə təmsil edən görkəmli bəstəkar, Xalq artisti Xəyyam Mirzəzadədir.**

**X.Mirzəzadə nadir istedadı, zəngin yaradıcılığı ilə müasir musiqimizin ən qabaqcıl inkişaf meyillərini müəyyənləşdirən sənətkarlardan biridir.**

### *“Ədəbiyyatçı da ola bilərdim.”*

***– Xəyyam muəllim, sənətinizlə qazandığınız şan-şöhrətə, mükafatlara, fəxri adlara baxmayaraq, sizi həm də "Hadi müəllimin oğlu" kimi tanıyırlar. Atanız professor Hadi Mirzəzadə Azərbaycan dilçilik məktəbinin yaradıcılarından biri olub. Adətən, öz peşəsində uğur qazanan atalar istəyirlər ki, oğulları onların yolunu davam***

***etdirsin. İrsiyyət də, ailə tərbiyəsi də bu istəyə yardımçı olur. Necə oldu ki, siz filoloq yox, musiqiçi oldunuz?***

– Bizim ailəmizdə, nəslimizdə musiqiçi olmamışdı. Xüsusən də, Avropa musiqisi ilə heç kim məşğul deyildi. Görünür, atam istəyib, mənə Avropa tərbiyəsi də versin. Çünki Şərq tərbiyəsi, Azərbaycan tərbiyəsi, bizim evdə, onsuz da, var idi. Bu səbəbdən də atam məni aparıb qoymuşdu musiqi məktəbinin skripka sinfinə.

Mən skripkada çox pis çalırdım. Yadıma düşəndə indi də ləzzət eləyir. Hərçənd ki, sonralar müəllimimlə o rəhmətə gedənə qədər möhkəm dost olduq. Mənim uğurlarıma çox sevinirdi.

... Atam məni ədəbiyyat, dilçilik aləmindən də ayırmamışdı. Tez-tez əlimdən tutub məni öz iş yerinə – universitetin dilçilik kafedrasına apardı. Kafedranın, filologiya fakultəsinin müəllimləri hamısı məni tanıyırdı. Dilçiliyə aid kitabları, məqalələri indi də maraqla oxuyuram. Hərdən öz müşahidələrim də olur.

Mütaliəyə uşaqlıqdan bağlanmışam. Çoxlu kitab oxumuşam, oxuyuram, oxuyacağam da. Öyrənməyin iki yolu var: insan ya gərək gəzsin, ya da kitab oxusun. Bunun bahalısı gəzməkdi, ucuzu kitab oxumaqdı. Oxumasan olmaz. Həftədə bir dəfə, uzağı ayda iki dəfə teatra getmək lazımdır.

Ola bilsin ki, mən ədəbiyyatçı da ola bilərdim. Çünki çox oxumuşdum, çox maraqlanmışdım. Cavidin, Müşfiqin əsərləri ilə hələ uşaqlıqdan tanış idim. Hamı onların kitab-

larını yandıranda atam yükün arxasında – divar şkafında gizlətmişdi. Mən də ağlım kəsəndən o kitabları xəlvət-xəlvət oxumuşdum.

***– Sanki, tale özü sizi atanızın yolunu davam etdirməyə çəkirdi. Bəs necə oldu ki, müsiqini seçdiniz?***

– Elə oldu ki, məktəbin son illərində musiqi həvəsi üstün gəldi, musiqiyə aludə oldum. Başladım yavaş-yavaş musiqi yazmağa. Skripkadan, demək olar ki, heç vaxt ayrılmırdım, görünür, bunun da təsiri olmuşdu. Uşaqlıqdan həyatım belə keçib – kitablar və musiqi. Mən küçə görməmişəm, hərçənd ki, kənardan baxanda hamı əksini düşünür, məni küçədə böyümüş adama bənzədirlər.

...Bir gün gəlib atama deyəndə ki, Konservatoriyaya qəbul olunmuşam, inanmadı. Dedi, a bala, imtahanlar hələ avqustdadır... O vaxt Konservatoriyaya qəbul imtahanları iyulda keçirilirdi. Beləliklə, mən professional musiqiçi oldum.

## *“Bir də görürsən, göydən üç alma düşdü”*

***– Nədir musiqi? Ümumiyyətlə və sizin uçun...***

– Bilirsiniz, tək musiqi yox, bütün inçəsənət növləri – şeir, rəssamlıq... hamısı ilk növbədə hissiyyatdır. İnsanın gördüklərini öz daxilindən, duyğularının süzgəcindən keçirib saf, ülvi bir şəkildə yenidən insanlara qaytarmasıdır. İnsan incəsənətə nə qədər dərindən bağlansa, həm özünü xoşbəxt eləyər, həm də insanlara xeyir gətirər.

Bu mənim şəxsi fikrimdir. Qaldı ki, ‘ümumiyyətlə”, bu, artıq mənlik deyil. Mən bir şey barədə danışanda heç vaxt “ümumən” götürmürəm, həmişə yalnız öz şəxsi mövqeyimi ifadə edirəm.

***–Xəyyam müəllim, siz tək musiqi haqqında yox, bütövlükdə incəsənət haqqında danışdınız. Musiqini poeziyadan, rəssamlıqdan ayırmadınız. Məgər bu baxımdan musiqinin özəllikləri yoxdurmu? Məsələn, şeiri, rəsm əsərini tərifləmək istəyəndə musiqiyə bənzədirlər. Bəs musiqi nəyə bənzəyir?***

– Məsələ ondadır ki, şeirin, əlbəttə, gözəl şeirin öz musiqisi, ahəngi var. Yəni yüksək səviyyəli bədiiyyat özü bir musiqidir. Bir bəstəkar kimi deyə bilərəm ki, iki çür şeirə musiqi yazmaq çox çətindir. Bir o şeirlərə ki, özünün musiqisi çox yüksəkdir, bir də o “şeirlərə” ki, musiqisi heç yoxdur.

Bu dediklərim eynilə rəssamlığa da aiddir. Rənglərin harmoniyası, ahəngi də musiqi yaradır. Yaxud musiqi əsərinə demək olar ki, gözəl palitrası var. Fərq ondadır ki, ədəbiyyat, rəssamlıq daha əyani sənətdir. Musiqidə isə abstraksiya daha güclüdür. Hər bir əsəri, necə istəsən, başa düşə bilərsən. Adi bir misal deyim. Bethoven üçüncü simfoniyasını Napoleona həsr etmişdi. Napoleondan narazı qalanda əsərin adını dəyişib “Qəhrəmanlıq simfoniyası” qoydu. Şostakoviçin yeddinci simfoniyası haqqında həmişə deyirdilər ki, faşizmə qarşıdır, indi deyirlər, kommuniz-

mə qarşıdır. Əslində, heç nə dəyişməyib, əsər necə var, qalıb. Dəyişən yalnız baxış nöqtəsidir.

Bu mücərrədlik ciddi musiqinin qavranılması üçün dinləyicidən müəyyən hazırlıq tələb edir. Mən dinləyicimə nə deyirəm? Deyirəm, əzizim, darıxma, radionu bağlamağa da tələsmə. Otur, qulaq as, bir kələfin ucundan – ya bir ritmdən, ya bir melodiyadan, ya bir çalardan, ya bir alətin səsindən yapış, get... get, axır gəlib bir yerə çıxacaqsan, nəsə anlayacaqsan. Sadəcə, səbirli ol, qulaq as.

Nağıl adama necə təsir edir? Hə, biri vardı, biri yoxdu... dinləyirsən, uyursan... bir də görürsən ki, özün ağ qoçun, qara qoçun belindəsən, ya da düşmüsən quyunun dibinə, ya da divlərlə vuruşursan... Bir də onda ayılırsan ki, göydən üç alma düşdü.

Musiqi əsəri də belədi. Dinləməyi bacarsan, yavaş-yavaş... yavaş-yavaş o situasiyaya düşürsən, duyğuların musiqinin ahənginə köklənir. Ordan o yana isə əsəri anlamağa bir şey qalmır.

## *“Sənət sənət üçündür”*

***– Xəyyam müəllim, elə musiqi əsərləri varmı ki, onları dinləmək üçün həmişə daxili tələbat hiss edəsiniz?***

– Elə şey ola bilməz. Əgər mən sənətkaramsa, tək bir şeydən xoşum gələ bilməz. Kimdəsə, hansı əsərdəsə nədənsə xoşum gələ bilər. Deyə bilmərəm ki, mən filankəsi istəyirəm, ancaq bir başqasını yox.

Vaxtilə Azərbaycanda ən böyük musiqi valları kolleksiyası məndə idi. Neçə min dənə. Sonra maqnitofon çıxanda ən gözəl fonoqramları mən toplamışdım. Not kitabxanam da çox zəngindir. İndi də mindən çox kompakt diskim var. Bütün günü bir əsəri dinləyə bilmərəm axı. Elə əsər var ki, aylarla dinləmirəm, birdən də olur ki, bir gündə iki dəfə qulaq asıram. O daha məndən asılı deyil.

***– Bizə həmişə təlqin olunub ki, sənət əsəri həyatın qoyduğu suallara cavab verməlidir. Ancaq mənə elə gəlir ki, sənət cavabdan çox sual verir. Siz necə, əsərlərinizlə, musiqinizlə cəmiyyətə, dinləyiciyə, özünüzə hansı sualları verirsiniz?***

– Bilirsiniz, mənim əsərlərimin konkret bir proqramı yoxdur. Baxmayaraq ki, əsərlərimin bir qismi tətbiqi musiqiyə, yəni teatr, kino musiqisinə aiddir, bütövlükdə götürsək, mənim musiqimin daxili məzmunu var, konkret bir ədəbi məzmunu yoxdur. Axtarmaq da lazım deyil.

***– Məgər o musiqini sizə yazdıran hissiyyatın dinləyiciyə də çatmasının marağında deyilsiniz? İstəmirsinizmi, sizin o musiqini yazarkən keçirdiyiniz duyğuları mən də dinləyərkən keçirim?***

– Bu məsələni cürbəcür yozmaq olar. Hətta musiqiyə nisbətən daha konkret olan söz sənətini, məsələn, Füzulinin beytlərini hərə bir cür yozur. İndi Füzulidən necə soruşaq ki, filan sözü yazanda nəyi nəzərdə tutubsan? Lazım bilsəydi, Füzuli elə bunların mənasını da açıb yazardı də.

Sənətin böyüklüyü elə bundadır. Bəli, sənət sənət üçündür. Vaxtilə kommunist ideoloqları bu prinsipi bayağılaşdırmaqla incəsənətin atasını yandırdılar. Kommunist rejiminə sənət yox, şüar, mədhiyyə lazım idi. Sənətdə hər şeyi məzmuna, ideyaya tabe etmək olmaz. Söz sözü çəkir, rəng rəngə bağlanır, not notu çağırır... Bəli, yüksək sənət sənət üçündür.

***– Bu halda sizin üçün yaradıcılıq həyatın reallıqlarından qaçmaq yeri deyil ki?***

– Yox, qətiyyən yox. Düzünü bilmək istəsəniz, mənim həyatın reallıqlarından qaçmağa çox yerim var. Mən rəssamlıqla, çinilərlə, əntiq əşyalarla, markalarla maraqlanıram və bunları dərindən bilirəm. Zəngin kolleksiyalarım var. Başqaları pulunu kef-damağa xərçləyəndə mən belə şeylərə xərcləmişəm. Sonra kitablar, dostlarım... Nərd oynayıram, çox yüksək səviyyədə. Mənə bu dünyadan ayrılmaq üçün bunlar kifayət edir. Musiqi bunun üçün deyil.

## *“Özümü qoca hiss etmirəm.”*

***– Xəyyam müəllim, həyatda cavab tapmadığınız çoxmu suallarla üzləşirsiniz?***

– Məncə, məsələni bu cür qoymaq düzgün deyil. Məgər həyatda bütün sualların cavabı var, ya mən bütün suallara cavab tapmalıyam? Suallar var ki, heç cavabı yoxdur, elə sual kimi də qalır. Suallar var ki, həll olunur. Yalandan uzaq olmaq lazımdır...

***– Bəstəkarlıqla yanaşı həm də pedaqoqsunuz, Musiqi Akademiyasının professorusunuz. Sizcə, Azərbaycanda ali musiqi təhsilinin ciddi problemləri nədir?***

– Birinci problem odur ki, təhsil müddətini beş ildən dörd ilə endiriblər. Çox acınacaqlı vəziyyət yaranıb. Çünki bəstəkarlıq ixtisasını orta təhsil pilləsində öyrətmirlər. Hər şeyi ali təhsil səviyyəsindən başlayırıq. Bizə onsuz da beş il çatmırdı. Düzdür, magistratura da var, ancaq magistraturada hamı oxumur axı. Bu qərar veriləndə heç kim bizdən soruşmayıb, indi də heç kim bizim etirazımıza qulaq asmır. Musiqi Akademiyasının bu barədə qərar vermək səlahiyyəti yoxdur. Nazirlik səviyyəsində həll olunmalıdır.

İkinci problem odur ki, biz dünya musiqi prosesindən ayrı düşmüşük. Gəlin, açığını deyək, Bakı hər halda dünyanın musiqi mərkəzlərindən deyil. Burada musiqi az çalınır. Əlbəttə, obyektiv səbəblər var, ancaq çıxış yolları tapmaq lazımdır. Şükür Allaha, simfonik orkestr normal işləməyə başlayıb, Opera və Balet Teatrında bir tərpəniş hiss olunur. Bülbül adına müsabiqə çox dəyərli bir işdir. Neçə ölkədən ki, bura musiqiçi gəlir, bunların bizim mədəniyyətimiz üçün, musiqimizin təbliği üçün böyük əhəmiyyəti var. Yaxşı işləri görmək lazımdır.

***– Xəyyam müəllim, Üzeyir bəy 64 yaşında dünyadan köçüb. Ömrünün son illərində ona "qocaman bəstəkarımız " deyiblər. Sizin muəlliminiz Qara Qarayev də 64 yaşında dünyasını dəyişdi. Hamı dedi ki, "yazıq cavan getdi". Zaman dəyişdikcə baxışlar, ölçülər də dəyişir. Siz***

***65 yaşı yola saldınız. Əlbəttə, sizə uzun ömür arzulayıram və bilmək istəyirəm: Bu yaşda yaradıcılıq həvəsi, enerjisi baxımından özünüzü neçə hiss edirsiniz?***

– Mən özümü qoca hiss etmirəm, inanmıram ki, bu qədər yaşım var. Ancaq rəhmətlik Qara müəllimin sözlərini də unutmuram. O deyirdi ki, 50 yaşdan sonra adamın hər günü qazancdır.

Yaradıcılığa gəlincə... Yaradıcı adamın həyatı bir neçə mərhələyə bölünür. Birinci mərhələ – ustadlığa qədər. Bu mərhələdə hər şeyi istedad həll edir. İkinci mərhələ – istedadla bərabər ustadlıq. Üçüncü mərhələ – yalnız ustadlıq. Yaşa dolduqca quyunun suyu quruyan kimi adamın istedadı, fitri qabiliyyəti tükənir, ancaq ustadlıq hesabına yaradıcılığına davam eləyə bilir. İndi mən bəzi məsələlərdə ikincidən üçüncüyə keçid mərhələsindəyəm.

**Çətini yaradıcılıq impulsu verən ilk təkanı tapmaqdır. Qalanı asandır. İndi mənim üçün musiqi bəstələməyin heç bir problemi yoxdur. Heç oturub ilhamın gəlməsini də gözləmirəm. Ustadam. Musiqiçilər buna maestro deyirlər..**

***"Xalq qəzeti", 27.10. 2000***

# “SAZI ÇÖRƏK AĞACINA ÇEVİRMƏK OLMAZ”

**Mətbuatda xəbər verildiyi kimi, bu günlərdə Azərbaycan aşıqlarının növbəti qurultayı keçirilib. Bu qurultay illərdən bəri başsız və fəaliyyətsiz qalmış Azərbaycan Aşıqlar Birliyinin işinin canlanacağına, aşıq sənətinin çağdaş mədəni həyatımızda adına layiq-hörmət və nüfuzunu bərpa edəcəyinə aşıqların, aşıq sənəti mütəxəssislərinin və həvəskarlarının qəlbində ümid oyatmışdır. Bu ümidlərin cücərməsi, bəhrə verməsi isə ilk növbədə Aşıqlar Birliyinin yeni seçilmiş rəhbərliyinin təpərindən, can yanğısından, bir də cəmiyyətimizin, ilk növbədə ziyalıların diqqət və qayğısından asılı olacaq.**

***Müsahibimiz Azərbaycan Aşıqlar Birliyi idarə heyətinin üzvü, Şəki və Dərbənd bölgələrində ustad sənətkar kimi ad qazanmış aşıq Sakit Köçəridir.***

***– Aşıq Sakit, cəmiyyətimizin çağdaş durumunda aşığın halı neçə görünür?***

– Vəziyyət asan deyil. Dövrümüzün obyektiv çətinlikləri, təbii ki, aşıqdan da yan keçmir. Təkcə aşıq üçün yox, bütün sənətkarlar üçün çətin dövrdür. Dolanışıq problemləri yaradıcılıq həvəsinin üstünə kölgə salır. Əlbəttə, ciddi sənətkar üçün çətindir. Sənətə baş saxlamaq kimi yanaşanlar başlarını saxlaya bilirlər. Əsl sənətkar sənəti urvatdan salmamalı, alçaltmamalıdır.

Saz mənəviyyat ağacıdır, kökü ruhumuzdan şirə çəkir, onu çörək ağacı səviyyəsinə endirmək olmaz.

***– Tarix boyu aşıq sənətinin inkişaf mərhələləri zəncir həlqələri kimi birbirinə bağlana-bağlana gəlib. O zəncirin bizim zamana düşən həlqəsi qırılmasın deyə, nə etmək lazımdır? Aşıq necə təpər tapmalı, necə hərəkət etməlidir ki, bizə qədər gətirilmiş bu ulu sənəti yarı yolda qoymasın, gələcəyə ötürə bilsin?***

– Mən o həlqənin qırıla biləcəyinə, yəni aşıq sənətinin öləcəyinə inanmıram. Çünki xalq yaşayır. Bu sənət xalqın qanında-canındadır. Nə qədər ki, xalq yaşayır, bütün keşməkeşlərə baxmadan, aşıq sənəti də yaşayacaq. Bu sənəti yaşadan peşəkar aşıqları qoyaq bir yana, xalq içində mənən, ruhən saza bağlı olan, saz sənətini duyan, anlayan, evində saz saxlayan, qəlbinin sözünü sazla dilləndirən nə qədər adam var!

Sazın kökü təkcə Azərbaycan torpağına yox, türk dünyasının hər yerinə, hər qarışına bağlıdır. O kökləri heç nə qıra bilməz. Min illərlə yaşamış, enişlər-yoxuşlar görmüş bir sənət beş-on ilin çətinliyindən sarsılmaz. Bu gün olmasa da, nə zamansa böyük sənətkarlar yenə yetişəcək.

İnamım bir də ondadır ki, son illər milli kökə qayıdış, milli ruhun dirçəlişi daha da sürətlənir. Saz milli ruhun daşıyıcısı, ifadəçisidir. Ruhumuz yüksəldikcə o da yüksələcək.

***– Aşıq, bilənlər bilir ki, siz aşıqlıq dərsini bu sənətin son nəhənglərindən olan Dədə Şəmşirdən almısınız, sənətdə onun sonbeşiyisiniz. Aşıq Şəmşirin şəyirdi olmaq, sözsuz ki, sizin sənət ömrünüzdə önəmli bir hadisədir. Maraqlıdır, taleyin hansı qisməti sizi Şəkidən Kəlbəcərə, Şəmşir ocağının işığına aparıb çıxarmışdı?***

– Mənim rəhmətlik atam Mahmud kişi maldar idi, kolxozda qoyunçuluq fermasının müdiri işləyirdi. Ancaq qəlbən saza-sözə bağlı adam idi, aşıq ədəbiyyatını sinədəftər bilirdi. O, Kəpəz yaylağında Aşıq Şəmşirin qardaşı Bəkir əmi ilə tanış olub dostlaşmışdı. Bu dostluq atamın ürəyindəki arzuya – oğlunu aşıq görmək istəyinə qanad verdi. Məni Dədə Şəmşirin yanına gətirdi. Məktəbdə oxuyan vaxt yaydan-yaya ustadımın yanına gedirdim. Sonra üç il Ağdabanda, Şəmşir kişinin evində yaşadım. Mənə yad kimi yox, ailənin bir üzvü kimi baxırdılar. Şəmşir kişinin uşaqları məni evin sonbeşiyi kimi əzizləyir, “xidil"

deyə çağırırdılar. "Xidil" ləzgicə "bacıoğlu", "qardaşoğlu" mənasında işlənən bir sözdür.

Əlbəttə ki, Şəmşir ocağının qırağında keçirdiyim günlər mənim bütün sonrakı taleyimi müəyyən etdi.

***– Bir insan kimi Aşıq Şəmşir yadınızda necə qalıb? Bu gün həyatda sizə kömək edən, bəlkə də, mane olan nələri görüb-götürmüsünüz Aşıq Şəmşirdən?***

– "Mane olan" ifadəsi, bəlkə də, daha çox yerinə düşür. Şəmşir abır-həyası bu gün dolanmağa mane olur.

Şəmşir əmi hər gün gördüyümüz adi aşıqlardan deyildi. Bu sənətin əsrlərdən biri gələn mənəvi missiyasını ləyaqətlə daşıyan bir ustad idi. O yaşda kişi nəinki qız-gəlinlə, hətta tanımadığı bir adamla kəlmə kəsəndə utanırdı, uşaq kimi qızarırdı. Mən onun bir dəfə ailədə, məclisdə, böyük-kiçik yanında səsini qaldırdığını, ucadan danışdığını, ağzından çiy söz çıxardığını görmədim.

Bir qoşmasında deyir:

**Nəcibdir, sadədir xasiyyət məndə,**
**İnsanlıq, ismətdir baş edən məni.**
**Həyalılar lal əyləşir görəndə,**
**Həyasızlar olur çaş edən məni.**

Dədə Şəmşir böyük aşıq olmaqdan əlavə, gözəl şair idi. Amma məclislərdə ta ki, qonaqlar xahiş etməyincə, sifariş verməyincə öz sözlərini oxumazdı. Çox sadə, təvazökar, nəfsi tox, mehriban insan idi.

***– Aşıq Şəmşirin sizə müstəqil aşıqlıq ixtiyarı, icazəsi verməsi epizodunu necə xatırlayırsınız?***

– Mən Şəkiyə qayıdandan sonra neçə il keçmişdi. 1973-cü ildə Aşıq Şəmşirin 70 illiyi keçirilirdi. Kəlbəcərə getmişdim. Məni çaldırdı, oxutdu, şeirlərimə də baxdı. Razı qaldı. Uşaqlara tapşırdı ki, daha Sakitə “xidil” deməyin, Aşıq Sakit deyin. Dedi ki, daha sənə aşıqlığı etibar eləmək olar.

Mənə üstündə öz adı yazılmış saz bağışladı. “Al, sağlıqla işlət, daha səndən arxayınam" – dedi, xeyir-dua verdi. O sazı, əlbəttə, məclislərə götürmürəm, evdə yadigar kimi saxlayıram.

***– Aşıq Sakit, Dərbənd əsrlərdən bəri özünün aşıqlıq ənənələri olan yerdir. Buraların öz üslubu, havacatı var. Ancaq sizin ustadınız Kəlbəcər məktəbinin nümayəndəsi olub. İndi məclislərdə hansı üslubda çalıb-oxuyursunuz?***

– Mən aşıqlıq dərsimi Göyçə-Kəlbəcər üslubunda almışam. Təbii ki, aşıq sənəti bütövdür, tamdır. Ancaq o da doğrudur ki, hər bölgənin öz xüsusiyyətləri var. Mən Aşıq Şəmşirdən öyrəndiklərimi çalıb oxuya-oxuya Şəki, Şirvan, Dağıstan havalarını da öyrəndim. Şübhəsiz ki, məclisin ovqatını, dinləyicinin istəyini nəzərə almamaq olmaz. Açığı, Şirvan-Dağıstan üslubu asan yoldur, adamı o qədər də çətinə salmır. İndi məclislərdə bu üslubların hər ikisini qovuşdurmağa, sənətimizi bütün zənginliyi ilə göstərməyə çalışıram. Məncə, bölgəsindən asılı olmayaraq,

saz götürüb el arasına çıxan aşıq bütün klassik havaları və sözləri bilməlidir.

***– Bildiyimə görə, Azərbaycan dili ilə yanaşı öz ana dilinizdə – rutulca da yazıb-yaradır, çalıb-oxuyursunuz...***

– Ləzgidilli xalqlar arasında aşıqlıq ənənələri qədimdir. Dağıstanın Azərbaycanla sərhəd rayonlarında əsasən rutullar və axtılar yaşayır. Aşıqlıq da ən çox bunların arasında yayılıb. Miskincə, Quruş kəndləri aşıqları ilə məşhur olub. Xəstə Qasımla deyişmiş Ləzgi Əhməd Quruş kəndindəndir. Samur qəzasında – Rutulda  Xəstə Rəcəb kimi ustad aşıq olub.

Ləzgi aşıqları şeirlərini Azərbaycan aşıq poeziyası formalarında və əsasən Azərbaycan türkcəsində yazıblar. Ləzgicə yazılmış şeirlər də Azərbaycan aşıq havaları üstündə oxunur.

Apardığım məclislər, təbii ki, Azərbaycan dilində keçir. Ancaq atalar – “zatını danan haramzadadır" – deyiblər. Ana dilimdə də mütləq bir neçə hava çalıb oxuyuram. Şeirlərimin də əksəri azərbaycancadır. Xeyli də çap olunmuşam. Bu şeirlərin bir çoxunu Dağıstanda ləzgi dilinə tərcümə ediblər. Orada rutulca yazdığım şeirlərdən ibarət kitabım da nəşr olunub.

***– Aşıq Sakit, son illər aşıqlıq qadınlar arasında daha geniş yayılır. Sizin buna münasibətinizi bilmək istərdik.***

– Bəlkə də, mənim sözlərim çoxlarının xoşuna gəlməyəcək, mühafizəkarlıq kimi görünəcək, amma düşün-

düyümü demək istəyirəm. Mən qadınların aşıq sənəti ilə məşğul olmalarına çox yaxşı baxıram, ancaq aşıqlıq peşəsi ilə məşğul olmalarına münasibətim pisdir.

Aşıqlıq təkcə sənət deyil, həm də həyat tərzidir – gəzərilikdir, çölçülükdür. Mən qadınlarımızın hər cür adam yığılan məclislərdə saz götürüb ortaya çıxmasını qəbul edə bilmirəm.

***– Bizim günlərdə aşıq sənətinin taleyi ilə bağlı hansı problemlərin həllini vacib sayırsınız?***

**– Biz aşıq sənətini daha ciddi təbliğ etməyin, daha düzgün tanıtmağın yolları barədə düşünməliyik. Beş-üç hava, bir-iki qatar söz öyrənib ortaya düşən naşıların hesabına bu sənəti həqiqi əzəməti, həqiqi dərinliyi ilə tanıtmaq olmaz. Ustadları, ustad tərbiyəsi görmüş cavanları qabağa çəkmək lazımdır. Aşıq sənətinin çoxəsrlik ənənələri, məclis qaydaları təbliğ olunmalı, yaşadılmalıdır.**

**Klassik aşıqlarımızın irsini təhriflərdən, haram əllərdən qorumalıyıq. Əlinə saz götürənlər, heç olmasa, o müqəddəs sazın xatirinə özlərini ucuz tutmamalı, şəréflərini qorumalı, sözlərinin, hərəkətlərinin yerini bilməlidirlər. Aşıq el içində halallıq, ləyaqət, qürur, ədəb-ərkan, ağıl-kamal rəmzi kimi davranmalıdır.**

**Dövlət, cəmiyyət, ziyalılar, fikir adamları, mətbuat, radio-televiziya aşıq sənətinə adicə bir incəsənət növü kimi yox, milli mənliyimizin daşıyıcısı kimi ya-**

**naşmalı, onu qorumaq və inkişaf etdirmək üçün məq-sədli iş görülməlidir.**

**Azərbaycan Aşıqlar Birliyinin fəaliyyətinin bərpa olunması bu sarıdan mənim ümidlərimi artırıb.Yəqin ki, hər şey yaxşı olacaq.**

***"Xalq qəzeti", 4.10. 2000***

# "...ÖZ YURDUMA GEDƏM MƏN"

## *Vətən nisgilli şair heykəl olub Vətənə döndü*

**Şüvəlan çamaatı ŞAİRin görüşünə yığışmışdı. Əslində, şüvəlanlılar heç vaxt şair-yazıçı tamarzısı olmayıblar. Öz məclislərinin yaraşığı olan söz əhli bir yana, adıbəlli qələm adamlarının neçəsinin həmişə şair yığnağı olan bağı – yaylaq evi Şüvəlandadır. Hələ Yazıçılar Birliyinin Şüvəlanda yerləşən yaradıcılıq evi... Tək bizimkilər yox, keçmiş İttifaqın neçə-neçə tanınmış şair-yazıçısı il uzunu Şüvəlanın qonağı olardı.**

... Amma bu görüş bir ayrı görüşdü, bu şair bir ayrı şairdi.

Həmin gün yenidən abadlaşdırılmış Şüvəlan parkında ömrünü imperiya əsarətinə, kommunist despotizminə qarşı söz savaşına həsr etmiş, Vətən eşqini Məcnunluq səviyyəsində sənət hadisəsinə çevirmiş Almas İldırımın abidəsi açılırdı.

Almas İldırım 1907-ci ildə Qala kəndində doğulub. İndi qohum-əqrəbası o zaman qalalıların bağ yeri olmuş Şüvəlan qəsəbəsində yaşayır.

Mərasimi Əzizbəyov rayon icra hakimiyyətinin başçısı Haçı Gülağa İslamov açdı. Vətən və azadlıq ideallarının tərənnümçüsü olan Almas İldırımın şeirlərinin əsarətdən xilas olmuş Azərbaycanda daha böyük dəyər qazandığını, daha qürurla səsləndiyini dedi.

... Almas İldırım 1925-ci ildə universitetin Şərq fakültəsinə daxil olmuşdu, lakin bir neçə aydan sonra atası keçmişdə tacir olmuşdu deyə, universitetdən xaric edildi.

"Gənc qızıl qələmlər” cəmiyyətinin üzvü idi. Bu cəmiyyətə toplanmış gənc yazıçıları Şura hökuməti kommunist tərbiyəsi konveyerindən keçirib milli ruh, milli təfəkkür daşıyıcısı olan yaşlı sənətkarlara qarşı qoymaq, ədəbiyyat cəbhəsinə "öz adamlarını” yeritmək, “ümumproletar işinin vintciklərini” yetişdirmək niyyətində idi. Ancaq həqiqi istedadın, həqiqi ədəbiyyatın missiyası tamam başqadır. Və gənc “proletar yazıçılarının”, demək olar ki, heç biri rejimin “ümidlərini doğrultmadı”. Gec-tez hamısı qələmini haqqın yolunda işlətməyə başladı.

Bu yolda səsini birinci ucaldan Almas İldırım oldu. 1927-ci ildə İstanbulda çıxan “Həyat” dərgisində şairin “A dağlar” şeri çap olundu:

**Zirvəndə oynayan rüzgarlar acı,**
**İllərlə görünməz başının tacı,**

**Anlat ki, dərdinin nədir ilacı,**
**Nədir bu dumandan tüllər, a dağlar?**

Rejimlə pərdə – "dumandan tüllər" aradan götürülmüş, ikibaşlı oyun sona çatmışdı. Təqiblər başlandı. Şairin yenicə çapdan çıxmış "Dağlar səslənirkən" adlı ilk kitabı qadağan olundu, nüsxələri yığışdırıldı. Almas İldırımı Dağıstana sürgün etdilər. Sanki taleyin acığına yeni bir "A dağlar" şeiri yazdı:

**Of  Bakı!.. Bu ayrılıq mana ölümdən ağır,**
**Aləmə bahar gəldi, sənə yağmur, qar yağır,**
**Gündüzlərin dumanlı, gecələr dilsiz , sağır,**
**Bu boğulan səsimi varmı duyan, a dağlar?**

İki il Dağıstanda sürgün həyatı yaşadı, amma sınmadı, əyilmədi. Dilini də dinc qoymadı. Oradan da Türkmənistana sürdülər. Vətəni ilə şeirlə halallaşdı.

**Bax, nə deyir yenə bu çoşqun Xəzər,**
**Qoynunda Şimaldan gələn yad gəzər,**
**Bu bir dərd ki, məni ömrümcə əzər,**
**Salır məni haldan-hala, əlvida...**

Türkmənistan sürgünü bütün ağrı-acısı ilə bərabər şairin ömrünə bir xoşbəxtlik səhifəsi də yazdı. Burada ailəsi ilə birgə Şamaxıdan sürgün olunmuş Zivər xanıma könül verdi. Zivər xanım həyatını Almas İldırımın acı ta-

leyinə tərəddüdsüz bağladı, şairin son gününə qədər ona mənəvi dayaq oldu. Belə bir insanın ömür yoluna ortaq olmaq nə qədər fədakarlıq, nə qədər dəyanət istəyirdi! Türkiyədə yaşayarkən bir gündə iki oğlunu itirmiş şair ömür yoldaşına üz tutub görün, nə yazırdı:

**... Ağlama, duyulmasın qürbətin çətinliyi,**
**Ağlama, qırılmasın qəlbimin mətinliyi.**
**Başqa bir şey dinləməm, mana yurdumdan oxu,**
**Anlat onun eşqini, unudayım yasımı...**

**Sən aldırma qəlbimə saplanan bu cüt oxu,**
**Oxu mana ruhumu, cismini, Qafqasımı...**
**Ölən öldü, ölməyən həsrətim, çırpınan can,**
**Oxu, gözümdə tütsün doğduğum Azərbaycan...**

... Sovetin təqiblərindən qurtulmağın başqa yolunu tapmayan Almas İldırım Zivər xanımı və üç aylıq böyük oğlu Azəri də götürüb İrana keçir.Zindanlara düşür, amansız işgəncələrdən sağlamlığını itirir. Ancaq həyatı bir tükdən asılı olan anlarda belə yalnız Vətən eşqi ilə yaşayır:

**Tanrım! Mana çoxmu gördün od sovuran torpağımı?**
**Cənnət sənin, Kəbə sənin, bir məzarlıq yurdumu ver!**

Yalnız 1934-cü ildə Türkiyəyə gələndən sonra şair özünə gün-güzəran qura bilir. Amma rahatlıq tapan yalnız

cismi idi, ruhu isə Vətən həsrəti ilə yanırdı. Nədən yazırsa yazsın, elə bir şeiri yoxdu ki, ona nostalji duyğuları hakim kəsilməsin:

**Kim deyər ki, könüldə xatirən yox, yadın yox?**
**Lənət o şerimə ki, onda sənin adın yox!**

Bəzən hətta onu Vətən nisgilinə düçar etmiş şair taleyinə də qarğış edirdi:

**Lənət şairliyimə, şeirimə, həvəsimə,**
**Hardasan, ey nazlı yurd, səs ver mənim səsimə.**

... Türkiyədə bu yanğı ilə 1952-ci ilin yanvarına kimi yaşadı. 45 yaşında haqq dünyasına köçdü. Zivər xanım və oğlu Azər bu gün də İstanbulda yaşayırlar. Qürbətdə doğulmuş oğlu Araz 1993-cü ildə Vətənə gəlmişdi. Taleyin işinə bax, qəflətən dünyasını dəyişdi, Şüvəlanda Vətən torpağına qovuşdu.

Heykəlinin açılışına isə İstanbuldan nəvəsi Almas İldırım gəlmişdi. Şair haqqında ilk monoqrafiyanın müəllifi akademik Bəkir Nəbiyev çıxışından sonra kitabını babasının adını qürurla daşıyan nəvəyə hədiyyə etdi.

Sonra Vətəndə şairin ilk kitabını nəşr etdirmiş görkəmli jurnalist, Azərbaycan Jurnalistlər Birliyinin sədri Hacı Hacıyev, Almas İldırım haqqında araşdırmalar aparmış, dolğun külliyyatını nəşr etdirmiş Maarif Teymur, şairin tədqiqatçıları Nazif Ələkbərli, Yusif Günaydın, Şüvəlanın ağsaqqal ziyalısı Bəhruz Abdullayev çıxış etdilər.

Bu mərasimdə hamıdan çox təsirlənən, həm də hamıdan çox qürur duyan isə şairin qardaşı Məmmədəli kişi və qardaşı oğlu Hacağa Almaszadə idi. Bir də yüksək sənətkarlıqla yaradılmış abidənin müəllifi, tanınmış heykəltəraş Aslan Rüstəmov. Sənət biliciləri onu N.Nərimanovun Ulyanovskda, S.Ə.Şirvaninin Şamaxıda, S.Rəhmanın Şəkidə qoyulmuş heykəllərindən və başqa əsərlərindən tanıyırlar.

... Şair yurdun bu bayram gününü – Vətənə dönəcəyi günü, sanki, görürdü. Cismani ömrü çatmasa da. Oğluna vəsiyyət kimi yazmışdı:

**Qovuşarkən yurd bayrama, düyünə,**
**Çalxanacaq el öyünə-öyünə .**
**Sən erinçə gözlədiyim o günə,**
**Mənim ömrüm çatacaqmı, bilməm ki...**

Cismi qürbətlərdə qalsa da, ruhunun Vətənə dönəcəyinə inanırdı:

**Mən qürbətdə ölərsəm, qəlbinə salma çilə,**
**Söylə, dostlar gömməsin nəşimi torpaqlara,**
**Yaxaraq vücudumu kül edib verin yelə,**
**Bəlkə bir zərrə alsın rüzgar bizim dağlara.**

**Yox, mən ölmək istəməm, görmədən doğma yurdu,**
**Mən orda ağlamışam, mən orda güləcəyəm.**
**Söylə, qoy sevinməsin Kremlin vəhşi qurdu,**
**Mən tufanla doğuldum, tufanla öləcəyəm!..**

... Təəssüf doğuran bircə o idi ki, ədəbiyyat tariximizdə öz layiqli yerini və qiymətini hələ də almamış bu böyük şairin heykəlinin açılışından ədəbi ictimaiyyətin, konkret olaraq Yazıçılar Birliyinin, bir də hər şeydən yazmağa macal tapan mətbuatımızın, elə bil, heç xəbəri yox idi...

## *P.S., yaxud bir yanlışlıq barədə*

Almas İldırımın dillər əzbəri olan "Əsir Azərbaycanım" şerinin ən məşhur misraları ağızdan ağıza, kitabdan kitaba belə keçir:

**Azərbaycan, mənim baxtsız anam oy,**
**Neçə bir il həsrətinlə yanam oy!..**

Məntiqsizlik, məna və deyim uyğunsuzluğu göz qabağındadır. Keçmiş zaman məzmunu ("neçə bir il") daşıyan cümlənin xəbəri arzu formasında ola bilməzdi. Aldanış "yanam" sözünün "anam" kəlməsinə qafiyə kimi görünməsindədir. Əslində isə, şair "ana" sözünü bir çox şeirlərində olduğu kimi, Anadolu ləhcəsində – "annəm" kimi işlədib.

Misralar belə səslənməlidir:

**Azərbaycan, mənim baxtsız annəm oy,**
**Neçə bir il həsrətinlə yannam oy!..**

**"Xalq qəzeti", 9.06.2000**

# ŞƏKİ TEATRININ YENİ SƏHƏRİ

**Paytaxt teatrları mövsümü başa vurmağa hazırlaşdıqları bir vaxtda özülü 25 il əvvəl qoyulmuş Sabit Rəhman adına Şəki Dövlət Dram Teatrı əsaslı təmirdən sonra açılış mərasimi keçirdi.**

**Son günlər dönə-dönə eşitdiyimiz bu sözlərin mahiyyətinə vardıqca adamda qəribə hisslər baş qaldırır. Şəkidə teatrın cəmi 25 yaşı olduğuna inanmaq istəmirsən. Çünki Şəki teatr anlayışına çox doğma bir yerdir və adama elə gəlir ki, bu qədim şəhərin bünövrəsi qoyulan gündən bəxtinə bir teatrallıq taleyi yazılıb.**

Dahi ingilis dramaturqu Uilyam Şekspirin "Dünya teatrdır, insanlar isə aktyor" kəlamı dünyada, bəlkə də, hər yerdən çox Şəkiyə yaraşır. Üç-dörd şəkili bir araya gəlirsə, bu, artıq bir truppa, onların söhbətləşməsi isə bir tamaşadır.

Təsadüfi deyil ki, tək Azərbaycanda deyil, bütün Şərq dünyasında teatr sənətinin rüşeymi şəkili balası

M.F.Axundovun dramaturgiyası ilə qoyulmuş, onun ilk komediyası "Hekayəti Molla İbrahimxəlil-kimyagər" isə məhz "nuxulular"ın həyatından bəhs etmişdir.

125 illiyini qeyd etdiyimiz Azərbaycan teatrının da bünövrəsi Mirzə Fətəlinin əsərləri ilə qoyulmuş, H.B.Zərdabinin rəhbərliyi ilə Bakıda hazırlanmış ilk tamaşalardan cəmi beş il sonra 1878-ci ildə görkəmli maarifçi Rəşid bəy Əfəndiyevin təşəbbüsü ilə Şəkidə "Hacı Qara" tamaşası oynanılmışdır. Yəni, əslində, Şəki teatrının tarixi 120 ildən çoxdur.

İndiki Şəki teatrı isə 1975-ci ildə yaradılmış, ona Şəki torpağının yetirməsi, görkəmli dramaturq Sabit Rəhmanın adı verilmişdir.

Şəkinin teatr salnaməsini vərəqlədikcə xalq şairi Bəxtiyar Vahabzadənin dramaturgiyasını, böyük səhnə ustaları İsmayıl Osmanlının, Lütfəli Abdullayevin aktyor sənətkarlığını yada salmamaq olmur.

S.Rəhman adına teatrın yaradıcı truppasına müxtəlif vaxtlarda çağdaş teatr sənətimizin tanınmış nümayəndələri – mərhum Vaqif Abbasov, Hüseynağa Atakişiyev, Cahangir Novruzov rəhbərlik etmişlər. Teatr özünün orijinal yaradıcılıq üslubu ilə tanınmış, Bakıda, Moskvada uğurlu qastrol tamaşaları vermişdir.

Lakin sənət ocağı ruhən həmişə cavan qalsa da, daşı-divarı, avadanlığı zaman keçdikcə köhnəlir. Şəki teatrının binası da son bir neçə ildə tamaşa göstərmək üçün nəinki

yararsız, hətta təhlükəli bir hala düşmüşdü. Əsaslı təmir işləri zəruri idi.

***Ədalət Vəliyev, Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini:***

– Şəki Dövlət Teatrında təmir-bərpa işlərinin aparılması Azərbaycan Prezidentinin Azərbaycanda dünyəvi peşəkar teatrın yaradılmasının 125 illiyi haqqında" fərmanına və yubiley tədbirlərinin hazırlanması və keçirilməsi üzrə Təşkilat Komitəsinin tədbirlər planına uyğun olaraq nəzərdə tutulmuşdu.

Təmir-bərpa işləri zamanı binanın dam örtüyü dəyişdirilmiş, tamaşa zalının tavanı və divarları akustik dekorativ plitələrlə örtülmüş, səhnədə müasir texnoloji avadanlıq quraşdırılmış, işıq və səs qurğuları təzələnmiş, tamaşa salonu bütünlüklə yenidən qurulmuşdur.

Bunlardan əlavə, Şəki şəhər İçra Hakimiyyətinin yaxından iştirakı və vəsaiti hesabına binanın fasad hissəsi təmir olunmuş, teatrın qarşısındakı meydan yenidən qurulmuş, ətrafda böyük abadlıq işləri görülmüşdür.

**İyulun 14-də Şəkidə S.Rəhman adına Dövlət Teatrının və Teatr meydanının bərpadan sonra yenidən açılışına həsr olunmuş böyük mərasim keçirildi.**

Tədbiri giriş sözü ilə Şəki şəhər icra hakimiyyəti başçısının humanitar məsələlər üzrə müavini Gülüstan Maqsudi açaraq şəkililəri və qonaqları bu əlamətdar hadisə münasibətilə təbrik etdi.

Azərbaycan Respublikasının mədəniyyət naziri Polad Bülbüloğlu, Xalq şairi Bəxtiyar Vahabzadə, teatrın direktoru Nazim Abbasov, YAP-ın icraçı katibi Əli Əhmədov, Xalq artisti, S.Rəhmanın oğlu, bəstəkar Emin Sabitoğlu, millət vəkili Fəttah Heydərov, sənətşünaslıq doktoru, professor İnqilab Kərimov çıxış edərək öz ürək sözlərini dedilər.

Mərasimin sonunda çıxış edən Şəki şəhər icra hakimiyyətinin başçısı Əşrəf Məmmədov təbriklər üçün minnətdarlığını bildirdi, ölkəmizin qədim mədəniyyət mərkəzlərindən olan Şəkinin mədəni həyatını canlandırmaq üçün bundan sonra da lazım olan bütün işləri görəcəklərinə, Şəki camaatının mədəni həyatını zənginləşdirəcəklərinə söz verdi.

Mərasimin rəsmi hissəsindən sonra Teatr meydanında Şəki incəsənət ustalarının və Şəki teatrı aktyorlarının iştirakı ilə böyük bayram konserti verildi. Toplaşanların coşqun reaksiyası şəkililərin tamaşa üçün darıxdıqlarını və Şəki teatrının tamaşaçı problemi ilə üzləşməyəcəyini sübut edirdi.

***Nazim Abbasov***, S.Rəhman adına Şəki Dövlət Dram Teatrının direktoru:

–Şəki tamaşaçısı öz təbiəti etibarilə başqalarından fərqlənir. Hər sözün, hərəkətin məna incəliyinə fikir verən şəkililər tamaşaçı kimi çox tələbkardırlar. Biz də işimizdə bunu nəzərə almağa, tamaşaçılarımızı repertuarımızla və tamaşaların bədii səviyyəsi ilə razı salmağa çalışaçağıq.

Şəhər rəhbərliyinin qayğısı ilə maliyyə problemlərimizi, demək olar ki, həll etmişik. Yaradıcılıq uğurları üçün bu da bir stimuldur.

***Azər Paşa Nemətov, Azərbaycan Teatr Xadimləri İttifaqının vitse-prezidenti:***

– Şəki teatrı respublikamızın teatrları sırasında özünün yaradıcılıq üslubuna və ənənələrinə görə seçilən bir sənət oçağıdır. Bu teatr səviyyəcə "əyalət teatrı" anlayışından yüksəkdə durmağı bacarır. Ümid edirəm ki, Şəki teatrında aparılan təmir-bərpa işləri digər rayon teatrlarımız üçün də müsbət nümunə olacaq. Mən Şəki teatrının perspektivinə inanıram və biz də Teatr Xadimləri İttifaqı olaraq bu teatrın yaradıcılıq problemlərinin həllində əlimizdən gələn, bizdən asılı olan köməyi göstərməyə hazırıq.

**Teatr meydanındakı konsert zamanı şəkili musiqiçilərin ifasından vəcdə gələn mədəniyyət nazirimiz Polad Bülbüloğlu rəsmi persona olduğunu "unudaraq" tamaşaçılar qarşısında müğənni kimi çıxış etməkdən "özünü saxlaya bilmədi". Şəkililər isə Xalq artistinin ifasını cənab nazirin çıxışından daha hərarətlə alqışladılar. Məşhur klipdən sonra dillər əzbəri olmuş "Gəl, ey səhər" mahnısının həmin axşam yeni səhərlər ümidiylə yaşayan Şəki teatrının qarşısında səslənməsi rəmzi məna daşıyırdı.**

***"Xalq qəzeti", 18.07.2000***

# "CƏMİYYƏT NECƏDİRSƏ, TEATR DA O CÜRDÜR"

**Müsahibimiz görkəmli teatr rejissoru, əməkdar incəsənət xadimi, Azərbaycan Teatr Xadimləri İttifaqı İdarə Heyətinin sədri Azər Paşa Nemətovdur.**

**Qonağımıza ilk sualı verməzdən əvvəl bu sualı doğuran səbəbi açıqlamaq istəyirəm. A.P.Nemətov Akademik Milli Dram Teatrında böyük ingilis dramaturqu Uilyam Şekspirin "Hamlet" faciəsini tamaşaya hazırlayır.**

## *"Budur məsələ..."*

***– Azər Paşa müəllim, klassik dramaturgiyanın ölməzliyinin bir səbəbi də budur ki, həmin əsərlər hər dövrün, hər zamanın ruhuna uyğun yeni məna kəsb edir, insanlar hər dəfə onların məzmun və ideyalarında aktuallıq tapa bilirlər. Bu mənada hər dövrün, hər nəslin, hər sənətkarın öz "Hamlet"i var. Yaradıcılığınızın bu***

***mərhələsində sizi bu əsərə üz tutmağa sövq edən nədir? Niyə məhz "Hamlet"?***

– Əvvəla, hər bir rejissor, hər bir aktyor arzu edir ki, onun sənət bioqrafiyasında “Hamlet" əsəri olsun. Hərçənd ki, mənim “Hamlet”lə bağlı xüsusi planlarım yox idi. Yollarımız kəsişə də bilərdi, kəsişməyə də. Yəni mənim üçün “Hamlet” mütləq meyar deyil. Kimsə “Hamlet”lə təmasda olmayıbsa, bu, o demək deyil ki, heç nə etməyib. Nə isə... Görünür, bu “qəza” mənim başımda varmış. Hələ tələbə ikən “Hamlet” mövzusunda rejissorluq üzrə kurs işi yazmışdım və müəllimim Mehdi Məmmədov bu işi çox bəyənmişdi. Sonralar “Hamlet” ideyasına bir neçə dəfə qayıtsam da, fikirlərimi dostlarımla bölüşsəm də, məsələ konkret işə gəlib çıxmamışdı.

... Düzü, mən Şekspirin başqa əsərini – tarixi xronikalarından birini, dəqiq desəm, “IV Henrix”i hazırlamaq istəyirdim. Bu, mənim üçün daha maraqlı idi. Şekspirin tarixi xronikalarından heç biri Azərbaycan səhnəsində oynanılmayıb. “Hamlet”i isə müxtəlif vaxtlarda bir neçə dəfə tamaşaya qoyublar. Bir az da uzağı fikirləşərək Şekspirin bu silsilədən olan bütün əsərlərini, sonra isə Azərbaycan tarixi mövzusunda yazılacaq yeni əsərləri hazırlamaq istəyirdim.

Bu planların “pozulmasının” səbəbkarı Milli Dram Teatrımızın bədii rəhbəri, Xalq artisti Həsənağa Turabov oldu. Bir müddət əvvəl bu barədə ona danışanda çox böyük təkidlə əvvəlcə “Hamlet”i hazırlamağımı təklif etdi.

Həsən müəllimlə söhbətdən sonra "Hamlet"i bir də oxudum və ideya tədricən reallaşmağa doğru üz tutdu.

Bugünkü Azərbaycan səhnəsində "Hamlet"i mən Vətəni sevmək, Vətəni qorumaq, Vətən yolunda özünü qurban vermək amalının təcəssümü kimi görürəm. Bütün bunlar ailə içərisində özünə yer tapırsa, cəmiyyətə də keçir. Əsər boyu Hamletin keçdiyi yol ziyalı insanın cəmiyyətdəki missiyasını ifadə edir. Yəni o, cəmiyyətə nə verə bilər? Lazım olsa, canını da verə bilərmi? İkar kimi yanıb başqalarına yol açmaq. Hamlet demiş, "budur məsələ!"

Mənim nəzərimdə Hamlet, Şekspirin öz sözləri ilə desək, həyatın bir oyun olduğunu başa düşən, oyun qaydalarını qəbul edən və bu çərçivədə hər şeyi nizama salmaq istəyən bir obrazdır. Tamaşa əvvəldən faciə təsiri bağışlamamalıdır. Hər şeyə ironiya ilə yanaşan qəhrəman yalnız sonda, sanki gözlənilmədən faciə ilə üzləşir.

– ***"Hamlet"i tamaşaya qoymaq fikrinə düşən hər bir rejissor, ilk növbədə, Hamleti oynayacaq aktyor problemi ilə üzləşir...***

– "Hamlet"i hazırlamaq söhbəti ortaya çıxanda bu sualı mənə çoxları verdilər. Dedim, ideya varsa, Hamlet də tapılar. Həsənağa müəllim də soruşdu ki, fikrində tutduğun var? Cavab verdim ki, bəli. Dedi, kim? Dedim, Fuad Poladov! Dedi, nə yaxşı! Turabovun seçimimi bəyənməsi məni çox sevindirdi. Əvvəla, görkəmli aktyorun doğma teatrın səhnəsinə qayıtması özü bir hadisədir. İkin-

cisi, bu iki qüdrətli sənətkarın o qədər də hamar olmayan şəxsi münasibətləri fonunda bu, teatrın qələbəsi deməkdir.

Hamlet obrazında F.Poladovu görməyimin səbəbi odur ki, mən onu bir aktyor kimi yaxşı tanıyıram, sənətkar və insan kimi zəngin daxili potensialına bələdəm. İkincisi isə, onu sənətdə özümə həm fikir hesab edirəm. Bir-birimizi başa düşəcəyimizə, onun mənim fikirlərimi dəqiq və dolğun ifadə edəcəyinə inanıram.

Çox az aktyorlar var ki, boş səhnəyə çıxıb heç nə oynamadan təkcə öz varlığı ilə səhnəni doldura bilir. F.Poladov belə aktyorlardandır.

## *"Küçəsində siqaret kötüyü yerə atılan şəhərin dünya səviyyəli teatrı ola bilməz"*

***– Şekspirin xronikalarından başqa, dünya klassikasından, ya elə özümüzünkülərdən gözaltı elədiyiniz əsərlər varmı?***

– Əlbəttə, var. Ancaq, bilirsiz, teatr canlı bir sənətdir, yəni hər günün bir hökmü var. Ona görə də nəyisə əvvəlcədən dəqiq planlaşdırmaq mümkün deyil. Günün nəbzi tamam başqa şeylər diktə edə bilər. Məsələn, mənim beynimdə Füzuli əsərləri əsasında nə isə orijinal bir tamaşa hazırlamaq ideyası dolaşır. Amma kim bilir, necə olacaq...

***– Klassik əsərləri tamaşaya hazırlayarkən müəllif mətninə münasibətdə özünüzü nə dərəcədə sərbəst hiss***

***edirsiniz? Sizin üçün əsərin mətninə müdaxilənin hüdudları nə ilə müəyyənləşir?***

– Burada paradoksal bir vəziyyət var. Mən indiyə kimi hazırladığım əsərlərin mətninə, demək olar ki, heç zaman ciddi müdaxilə etməmişəm. Ancaq prinsip olaraq hesab edirəm ki, bu məsələdə rejissorun qarşısında heç bir məhdudiyyət olmamalıdır. Yazıçı pyesin müəllifi olduğu kimi, rejissor da tamaşanın müəllifidir və mətnə münasibətdə ona tam sərbəstlik verilməlidir.

– ***"Teatr nədir?" və "Bugünkü Azərbaycan teatrı nədir?" Bu iki sualı sizə eyni vaxtda versələr, cavablar arasında çoxmu fərq olar? Bugünkü Azərbaycan teatrı idealda təsəvvür olunan teatr anlamına nə dərəcədə yaxındır?***

– Dünya teatrının aparıcı tendensiyaları ilə ayaqlaşmaq və sənətkarlıq potensialı baxımından o qədər də böyük fərq yoxdur. Ancaq texnoloji imkanlar cəhətdən dünya səviyyəsindən çox geri qalırıq. Ən böyük fərq isə ümumi mədəni səviyyə baxımındandır. Qabaqlar biz qapalı cəmiyyət şəraitində yaşayanda bu fərqlər o qədər kəskin hiss olunmurdu. Amma indi, şükür Allaha, dünyanı görmək və müqayisə etmək imkanımız var. Və etiraf etməliyik ki, bu müqayisə hələ ki, bizim xeyrimizə deyil. Mən ictimai davranış qaydalarından tutmuş zahirən ən xırda görünən məsələləri belə nəzərdə tuturam. Ancaq onu da deməliyəm ki, Azərbaycan bu cəhətdən dünya səviyyəsinə yaxınlaşmaq istiqamətində sürətlə inkişaf edir.

Bu baxımdan dünənimizlə bu günümüz arasındakı məsafəni əyani görmək üçün Bakının dəmiryol vağzalı ilə hava limanının durumu arasındakı fərqi göz önünə gətirmək kifayətdir. Biri, sanki, dünəndə qalıb, o biri arzulanan gələcək səviyyəsindədir. Hər sahədə o gələcəyə can atmalıyıq. Bilirsiniz, küçəsində siqaret kötüyü yerə atılan şəhərin dünya səviyyəli teatrı ola bilməz.

– ***Azər Paşa müəllim, Azərbaycan teatrının siması deyəndə sizin gözünüzün qabağına hansı dövr, yaxud hansı tamaşa gəlir?***

– Bu təsəvvür mənim üçün ayrı-ayrı tamaşalarla yox, daha çox insanlarla, sənətkarlarla bağlıdır, Azərbaycan teatrının siması deyəndə mənim gözümün qabağına Ədil İsgəndərov gəlir, Ağadadaş Qurbanov, Mehdi Məmmədov, Tofiq Kazımov gəlir. Və, təbii olaraq, atam Zəfər Nemətov gəlir. Mənim teatra bağlılığım, hər şeydən əvvəl, atamın rejissorluq etdiyi tamaşalardan başlanıb.

## *“Hər tamaşada özünü yenidən təsdiq etmək daha maraqlıdır”*

– ***Hər bir rejissor ideyalarını tam sərbəstliklə həyata keçirmək üçün öz teatrını yaratmağa çalışır. Bu, yəqin ki, rejissor peşəsinin təbiətindən gələn bir xüsusiyyətdir. Siz yaradıcılığınızın bugünkü yetkin çağında nə üçün buna can atmırsınız? Öz teatrına sahib olmaq istəyi sizə yaddır, yoxsa başqa səbəb var?***

– Düzünü desəm, bu, mənim üçün keçilmiş mərhələdir. Dövlət teatrının rəhbəri də olmuşam, öz studiyam da olub. Əlbəttə, dediklərinizdə həqiqət var. Rejissor üçün ətrafına həmfikirlərindən ibarət truppa yığmaq, yaradıcılıq planlarını ardıcıl, sistemli şəkildə həyata keçirmək ümumən qəbul olunmuş praktikadır. Cavanlıqda bunu mən də arzulamışam. Sonrakı təcrübəmdən belə bir qənaətə gəldim ki, hər tamaşada yeni bir məkanı fəth etmək, yeni bir kollektivlə ünsiyyət tapmaq, yeni sınaqdan çıxmaq, özünü yenidən təsdiq etmək daha maraqlı bir iş üsuludur.

Bu qayda ilə mən dəvət olunan rejissor ampluasında Bakının müxtəlif teatrlarında, Moskva, Peterburq, Kazan kimi teatr mərkəzlərində tamaşalar hazırlamışam və həqiqət naminə demək lazımdır ki, teatr biliciləri tərəfindən etiraf olunan uğurlar qazanmışam.

– ***Elə isə, imkanlarınız olduğu halda, nə üçün keçmiş SSRİ məkanında, yaxud beynəlxalq miqyasda daha çox işləmək, daha çox tanınmaq, şan-şöhrət qazanmaq şansını əldən vermisiniz? Bu baxımdan karyeranızın "alınmaması" taleyin işidir, yoxsa?..***

– Günah özümdə olub. Yəni bu, mənim təbiətimdən irəli gəlir. Rusiya teatrlarında xeyli tamaşalar hazırlamışam. İmkanlar isə dəfələrlə çox olub. Almaniyadan, Amerikadan dəvətlər aldığım vaxtlar olub. Getməmişəm, ya da gedə bilməmişəm. Müxtəlif səbəblərdən. Onlar da, belədir ki, dəvətdən imtina edəni ikinci dəfə çağırmırlar, bir məktuba cavab verməyənə bir də məktub göndərmirlər. Gərək

özün çalışasan, səy göstərəsən, əlaqə yaradasan. Bunlar da mənlik deyil. Bir də, açığı, hər şeyin axırı maddi imkanlara bağlanır. Burada da ki, problemlər var.

***– Bir neçə ay qabaq qəzetlərin birində Anarın Vaqif İbrahimoğlu haqqında yazısında belə bir cümlə oxumuşdum: "Bakının bugünkü teatr mühitində böyük tamaşa salonunu yalnız böyük sənət güzəştləri hesabına doldurmaq olar."***

***Siz bu fikirlə razısınızmı? Bu prinsiplə işləməyi özünüz üçün məqbul sayırsınızmı? Deyək ki, "Hamlet" tamaşasında salonu doldurmaq xatirinə sənət güzəştləri ilə barışmağa hazırsınızmı?***

– Əvvəla, mənim seçdiyim əsərin özü belə bir prinsiplə işləməyi qeyri-mümkün edir. Ona görə də, ola bilsin ki, çox adam gəlməsin. İkincisi, mən məsələyə bu cür yanaşmağı, ümumiyyətlə, düzgün hesab etmirəm və sənət praktikamda heç zaman buna getməmişəm. Mən sənətim və vicdanım qarşısında səmimiyyətlə çalışmışam ki, güzəştlərə getmədən işimi yüksək zövqlü tamaşaçı üçün maraqlı qura bilim və mümkün qədər çox adam cəlb edim. Bir də ki, mən “tamaşaçı səviyyəsi” deyəndə elə öz səviyyəmi nəzərdə tuturam. Yəni tamaşaçıya yuxarıdan baxmıram, əksinə, hesab edirəm ki, onun səviyyəsi məndən də yüksəkdir və mən onun zövqünü təmin etmək üçün bir az da ucaya qalxmalıyam.

## *"...Ən əvvəl Qarabağı qaytarardım"*

***– Azərbaycan teatrının ixtiyarını hər cəhətdən və tam səlahiyyətlə sizə versəydilər, nə edərdiniz?***

*(Bundan sonra söhbətimizin sonuna qədər Azər Paşa müəllim qəhər içində danışır...)*

– Mən belə külli-ixtiyar sahibi olsaydım, ən əvvəl Qarabağı qaytarardım. Ciddi sözümdür. Hesab edirəm ki, Azərbaycan mənəviyyatının, o cümlədən də teatrının bir nömrəli və birinci növbədə həll edilməli problemi budur.

İkincisi, maddi problemləri həll olunmamış cəmiyyətdə mənəvi, mədəni problemlərin həll oluna biləcəyini düşünmək reallıqdan uzaqdır. Doğru deyirlər ki, teatr cəmiyyətin güzgüsüdür.Cəmiyyət necədirsə,teatr da o cürdür.

**Mən istərdim ki, Şuşa teatrı Şuşada, Ağdam teatrı Ağdamda, İrəvan teatrı İrəvanda olsun. Yalnız bundan sonra "Mən teatr üçün nə edərdim?" sualı üzərində düşünmək olardı. Mən inanıram ki, belə də olacaq. Bəlkə də, biz o günü görməyəcəyik, amma bir gün gələcək, hər şey yaxşı olacaq.**

**Mən həyatda bircə şeydən qorxuram ki, biz bütün bu problemlərin həllini gələcək nəsillərin öhdəsinə qoyub gedək, onlar da bizi söyələr,**

**Bu fikirlə dünyadan köçmək çox çətindir.**

**Bu fikirlə dünyada yaşamaq ondan da çətindir...**

***«Xalq qəzeti», 26.01.2001***

# "TEATRIN TALEYİ HAMIMIZDAN ASILIDIR"

**Həmsöhbətimiz görkəmli teatr və kino aktyoru, respublika Dövlət mükafatı laureatı, Xalq artisti Hacı Murad Yagizarovdur.**

## *"Mən kinodan getməmişəm, kino bizdən gedib"*

***– Murad müəllim, söhbətimizin əvvəlində sizi sənətə gətirən yollar haqqında məlumat verməniz istərdik.***

– Mən Bakıda doğulmuşam. Ailəmizdə heç kimin incəsənətlə birbaşa bağlılığı olmayıb. Ana tərəfdən ulu babam Mahmud ağa Şamaxı bəylərindən idi. Babam İsmayıl bəy Əliyev tanınmış vəkil olub. Dayım Mahmud Əliyev 40-cı illərdə respublikamızın xarici işlər naziri işləyib. Ata tərəfdən bütün nəslimiz zərgər və diş həkimi olub. Atam Hacı Əhməd hərbi mühəndis, anam Tamara xanım pedaqoq idi.... İş elə gətirdi ki, valideynlərim ayrıldılar. Anam tanınmış alim, Azərbaycanda paleontologiya elminin yara-

dıcılarından biri olan Qambay Əlizadə ilə ailə qurdu. Mənim uşaqlığım və gəncliyim bu ailədə keçib və tərbiyəmdə, dünyagörüşümün, həyata münasibətimin formalaşmasında Qambay müəllimin böyük təsiri olub.

Məktəbi bitirəndən sonra aktyor peşəsini seçmək istəyim hamını təəccübləndirdi. Atam dedi ki, incəsənət yaxşı şeydir, ancaq insanlara fayda verən bir işlə məşğul olmaq lazımdır. O, həkim olmağımı məsləhət görürdü. Dayım isə məni öz peşəsinin davamçısı – diplomat görmək istəyirdi. Lakin mən hamını inandıra bildim ki, aktyorluqla da xalqa, insanlara xidmət etmək olar. Böyük sənətkar Ələsgər Ələkbərov bizim qohumumuz idi və görünür, mənim bu sahəyə həvəs göstərməyimdə onun da təsiri olmuşdu. Dayımın xahişi ilə Ələsgər əmi sənət yolunda mənə himayədarlıq etməyə başladı. Və onun təklifi ilə məni "Uzaq sahillərdə" filmində Mehdi roluna sınadılar. Mixaylonu oynamaq mənə qismət olmadı – çox cavan idim, cəmi 18 yaşım vardı. Ancaq Tofiq Tağızadənin bununla paralel çəkdiyi qısametrajlı "Mateo Falkone" filmində çəkildim. "Uzaq sahillərdə"də isə epizodik rol oynadım. Sonra "Ögey ana"da çoban Ayaz roluna dəvət olundum. Kinostudiyadan məni Moskva Kinematoqrafiya İnstitutuna göndərdilər. Yaradıcılıq turundan keçsəm də, "moskovski intriqalardan" keçə bilmədim. Sonra, 1958-ci ildə Bakıda Teatr İnstitutuna, görkəmli teatr rejissoru Məhərrəm Haşımovun sinfinə daxil oldum. Həsən Məmmədovla, Rafiq Əzimovla bir kursda oxuyurduq. O zaman Səməd

Vurğun adına Rus Dram Teatrına rəhbərlik edən Məhərrəm müəllim hələ tələbəykən məni teatra işə dəvət etdi və beləliklə, taleyim həmişəlik bu teatra bağlandı.

***– Kinoda çox uğurlu və çoşqun başlanğıcdan sonra bu sənətdən uzaqlaşmağınız nə ilə bağlıdır?***

– Mənim kino fəaliyyətim kifayət qədər məhsuldar olub. Bayaq dediyim filmlərdən sonra bir-birinin ardınca “Mahnı qanadlarında”, “Böyük dayaq”, “Ulduz”, “Arşın mal alan”, “Bir cənub şəhərində”, “Ən vacib müsahibə”, “O qızı tapın”, “İnsan məskən salır”, “Səmt küləyi”, “Birisi gün gecə yarısı”, “Babək”, “Nizami”, “Qara gölün cəngavərləri”, “Bizi bağışlayın" filmlərinə çəkildim. Gürcü filmlərində də bir neçə rol oynamışam. Ümumilikdə otuzdan çox filmə çəkilmişəm.

Mən Azərbaycan kinosunun Həsən Seyidbəyli, Tofiq Tağızadə, Həbib İsmayılov, Kamil Rüstəmbəyov, Arif Babayev, Eldar Quliyev kimi ustad rejissorları ilə işləmişəm. Neçə-neçə görkəmli aktyorla tərəfdaş olmuşam. Hər birinin mənim sənətkar kimi yetişməyimdə rolu olub, özüm üçün, sənətim üçün hərəsindən bir şey götürmüşəm.

Təəssüf ki, son illər Azərbaycanın kino sənəti dərin böhran içindədir. Yəni mən kinodan getməmişəm, kino bizdən gedib. Vaxtilə qaynar həyatı ilə adamı heyran qoyan kinostudiyanı indi xaraba vəziyyətdə görəndə adamın ürəyi ağrıyır.

Vətənimizin taleyinin belə mühüm bir məqamında kinematoqrafiyanın öz funksiyalarını yerinə yetirə bilmə-

məsi çox acınacaqlı haldır. Yeni aktyor nəsli öz yaradıcılıq bioqrafiyasının çox mühüm cəhətindən məhrumdur. Gənclərimizin kino sənəti haqqında təsəvvürü aşağı keyfiyyətli, bizə yad dəyərləri təbliğ edən dava-dalaş filmləri əsasında formalaşır. Onların mənəvi tərbiyəsi üçün vacib faktor olan milli kino sənəti isə meydanı əldən verib. Neçə-neçə istedadlı kino sənətkarımız ömrünün ən enerjili, məhsuldar çağını işsiz, yaradıcılıqsız keçirməyə məhkumdur.

Kino mənə həm aktyor kimi yaradıcılıq imkanlarımı göstərmək, həm də ürəyimi isidən sənət sevincləri yaşamaq xoşbəxtliyi verib. Oynaya bilmədiyim, bəxtimə düşməyən rollar da az olmayıb. Aktyor taleyi belədir – arzuladığının çoxuna əlin yetmir.

***– Məncə, sizin kino yaradıcılığınızın ən uğurlu, bəlkə də, rəmzi məqamlarından biri "Arşın mal alan"dakı Süleyman bəy rolu, daha dəqiqi, Suleymanın rəqsidir. Sizin filmə qədər 50 ildən artıq teatr səhnəsindən səslənməyinə, birinci "Arşın mal alan" filminin dünya şöhrəti qazanmağına baxmayaraq, Üzeyir bəyin "Asyanın rəqsi" kimi bəstələdiyi bu melodiya yalnız sizin ifanızdan sonra "Suleymani", yaxud "Bəy havası" adıyla məşhurlaşdı və bu gün də ən populyar rəqs havalarımızdan biridir. Bu faktın sizin sənət bioqrafiyanız üçün xüsusi bir dəyəri varmı?***

– Bilirsiniz, həyatda elə hadisələr olur ki, təkcə insanın öz ömrünün yox, nəsil-kökünün, qan yaddaşının

təzahürü kimi meydana çıxır. Süleyman bəy rolu mənim həyatımda belə bir hadisədir.

Mənə qədər bu rola 19 aktyor sınanmışdı. Onların arasında Məlik Dadaşov, Müxlis Cənizadə, Nodar Şaşıq-oğlu, Səyavuş Aslan kimi tanınmış sənətçilər vardı. Rola görə mən yaşca xeyli cavan idim. Ancaq Tofiq Tağızadə dedi ki, Murad, səni çəkəcəyəm, bu rolu oynamaq üçün aktyorluq məharəti azdır, gərək kökündə, qanında kübarlıq keyfiyyətləri olsun.

Tofiq müəllimin məqsədi Süleyman obrazında Azərbaycan zadəgənlığının nümayəndəsini göstərmək idi. Əminə xanım Dilbazinin quruluş verdiyi o rəqs də rejissorun ideyasını tamamlayır. Süleyman rəqqas kimi yox, məhz bəy kimi oynayır. Buradan da rəqsin ikinci bir adı yadigar qaldı – "Bəy havası". Bu rol mənim ən çox ürəyimə yatan işlərimdən biridir.

## *"Rus dram teatrı, hər şeydən əvvəl, Azərbaycan teatrıdır"*

***– Tamaşaçılar sizi daha çox kino rollarınıza görə tanısa da, yaradıcılığınızın daha böyük hissəsi teatrla – S.Vurğun adına Rus Dram Teatrı ilə bağlıdır. Sizcə, Azərbaycanda rus teatrının spesifikası, xususi məktəbi varmı?***

– Bu illər ərzində teatrda mən 200-dən artıq rol oynamışam. Bunların içərisində hər bir aktyorun arzuladığı

klassik rollar da az olmayıb. Bu teatr mənə öz evim qədər doğmadır.

Moskva teatr mühitində milli respublikaların rus teatrlarına əyalət teatrı kimi baxırdılar. Bizim Moskva qastrollarımızdan sonra etiraf etdilər ki, bu öz yolu, öz ənənələri, yüksək peşəkarlıq məktəbi olan bir sənət ocağıdır.

Spesifikliyə gəlincə, əlbəttə, var. Bizim vəzifələrimizdən biri dünya və rus klassikasını şəhərimizin rusdilli tamaşaçıları arasında təbliğ etmək olsa da, bu teatr, hər şeydən əvvəl, Azərbaycan teatrıdır. Və həmişə ən mühüm funksiyalarımızdan biri Azərbaycan dramaturgiyasını, Azərbaycan mühitini, Azərbaycan milli xarakterini, Azərbaycan mənəviyyatını əks etdirmək olub. Biz keçmiş SSRİ-nin, demək olar ki, bütün regionlarında qastrollarda olmuşuq və hər yerdə də bu vəzifəni şərəflə yerinə yetirmişik.

Mənə C.Məmmədquluzadənin, H.Cavidin, C.Cabbarlının, S.Vurğunun, İ.Əfəndiyevin, M.İbrahimbəyovun, Anarın, R.İbrahimbəyovun, Elçinin əsərlərində zəngin milli xarakterli obrazlar yaratmaq qismət olub.

Azərbaycanın Ədil İskəndərov, Məhərrəm Haşımov, Mehdi Məmmədov, Tofiq Kazımov, Əjdər Sultanov kimi böyük teatr rejissorlarının yaratdıqları teatr sənəti məktəbi bu teatrın yaradıcılıq simasının formalaşmasına böyük təsir göstərib və burada Azərbaycan koloriti həmişə qabarıq hiss olunub. Digər tərəfdən, Rus Dram Teatrının səh-

nəsində çox görkəmli sənətkarlar oynayıb və bu fakt da teatrın yüksək peşəkarlıq səviyyəsinin göstəricisi olub.

***– Sizin teatr şəhərimizin teatrları içərisində son illərin "tamaşaçı böhranı" problemindən ən uğurla çıxanıdır. Buna necə nail olmusunuz?***

– İlk baxışdan tamaşaçı məsələsində bizim teatrın daha ciddi problemlərlə üzləşəcəyi gözlənilirdi. Çünki son onillikdə şəhərimizi xeyli rusdilli əhali tərk edib. Buna baxmayaraq, biz boş salonla üz-üzə qalmaq bədbəxtliyindən qoruna bilmişik. Hansı yolla? Hər şeydən əvvəl, teatrın kollektivi zamanın nəbzini tutmağı bacardı. Cəmiyyətin ən vacib, aktual problemlərinə vaxtında reaksiya verə bildik. Yəni hadisələrin passiv müşahidəçisi yox, bir növ, iştirakçısı olduq.

İkincisi, teatr bu çətin zamanda həqiqi sənət uğrunda savaşın ön cəbhəsində mövqeyini qoruya bildi. Tamaşaçı gördü ki, bu teatrda yüksək yaradıcılıq nümunələri ilə ünsiyyətdə olmaq mümkündür.

Üçünçüsü, insanlar gördülər ki, burada ruhən dincəlmək, zövq və düşüncə baxımından özlərinə məhrəm adamlarla görüşmək, həmsöhbət olmaq imkanı var. Bu da teatrın vəzifələrindən biridir. Yəni biz repertuarımızda ciddi psixoloji tamaşalarla insanların onsuz da çətin problemlərlə yüklənmiş psixikasını əlavə gərkinliyə məruz qoymayan, onlara dincəlmək, ruhən rahatlıq tapmaq, şənlənmək imkanı verən tamaşaları uğurla növbələşdirə bildik.

***– İfa etdiyiniz obrazlara özünüzdən, daha doğrusu, öz xarakterinizdən nəsə verirsinizmi, yoxsa "aktyor ayrı, rol ayrı" prinsipini üstün tutursunuz?***

– Mən, ilk növbədə, oynadığım surətlərin məğzini, gizli məqamlarını tapmağa, açmağa, göstərməyə çalışıram. Hətta mənfi rolları oynayanda da çalışıram ki, hansısa insani cizgiləri tapıb göstərə bilim. Bir də çalışıram ki, insanı yalnız bir fərd kimi yox, sosial tipaj kimi, mühitin, şəraitin məhsulu kimi nümayiş etdirim.

Əlbəttə, rola qəlbini, istedadını, biliyini xərcləməlisən, ancaq özünü oynamamalısan, rolda özünü yox, personaja münasibətini ifadə etməlisən. Əgər tamaşaçı – "Ah, bu nə gözəl aktyordur, nə gözəl oynayır" – deyə düşünürsə, deməli, sən onu inandıra bilməmisən, o, oynadığın surəti yox, səni görür.

***– Həm Azərbaycan, həm də rus teatrlarının səhnəsində oynayan aktyorlarımız olub, indi də var. Sizin belə imkanınız başqalarından çoxdur. Yəni sizin üçün dil problemi yoxdur, Milli Dram Teatrının aktyorları ilə kinodan birgə iş təcrübəniz var, oyun üslubunuz çox yaxındır və s. Ancaq, nədənsə, bu şansı əldən vermisiniz.***

– Sözün düzü, mən bunu həmişə arzulamışam, elə indi də istəyirəm. Bu barədə söhbətlər, danışıqlar da olub, ancaq məsələ konkret işə gəlib çatmayıb.

Bu mənim yaradıcılığımın çox maraqlı və mühüm səhifəsi ola bilərdi. Hesab eləyirəm ki, bu məsələdə bəxtim gətirməyib.

## *“Hələ teatra lazımam”*

***– Murad muəllim, siz teatra lap gənc yaşlarınızda gəlmisiniz, indi isə teatrın ən yaşlı aktyorlarındansınız. Özünüzü teatrın veteranı, ağsaqqalı rolunda necə hiss edirsiniz?***

– Çox darıxdırıcıdır. Mənim bu teatra gəldiyim vaxt burada çox görkəmli səhnə ulduzları işləyirdi. Onlarla yanaşı səhnəyə çıxmaq, hətta rol almaq, əlbəttə, çətin idi. Amma həm də kimdənsə öyrənmək, özünü kiməsə oxşatmaq, kimdənsə soruşmaq imkanı vardı.

Səhnənin qanunudur – tərəfdaşın nə qədər güclü olsa, sən də bir o qədər yaxşı oynayacaqsan. Ona görə də indi ətrafımda o cür aktyorları görməyəndə özümü tənha hiss edirəm, qüssələnirəm.

***– Elə isə deyin, özünüzü vaxtı keçmiş aktyor hesab eləmirsiniz ki?***

– Mən həyatımı teatrsız təsəvvür edə bilmirəm. Bircə faktı deyim – hələ 1990-cı ildə Mirzə Xəzər məni “Azadlıq” radiosuna işə dəvət etmişdi. Teatrsız və Vətənsiz yaşaya bilməyəcəyimi anladığım üçün imtina etməli oldum.

Belə bir söz var, deyirlər, aktyorluq peşə deyil, diaqnozdur. Hətta səhnəni tərk etmiş aktyorlar da çox vaxt

teatrdan gedə bilmirlər, burada nə isə başqa bir iş tapıb başlarını qatırlar ki, bu mühitdən ayrılmasınlar.

Mənim indi 62 yaşım var. Fiziki və yaradıcılıq baxımından əla formadayam. Düşünürəm ki, teatr mənə lazım olduğu kimi mən də hələ teatra lazımam. Mən ömrümü sevdiyim bir peşəyə həsr etmişəm, bütün həyatım boyu sevdiyim işlə məşğul olmuşam. Sənətdə öz yerimi bilirəm, buna görə də işimə, peşəmə hörmətlə yanaşıram. Bir sözlə, mən həyatda özümü yerini tapmış və yerində olan adam hesab edirəm.

***– Sizcə, Azərbaycan teatrını zamanın tələbləri səviyyəsinə qaldırmaq üçün nə etmək lazımdır?***

– Heç şübhəsiz ki, ilk növbədə maddi problemlər həll edilməlidir. Sənət adamı bütün enerjisini, intellektini, istedadını yaradıcılığa yönəltmək üçün maddi cəhətdən təmin olunmalıdır. Əks halda, biz çox istedadlı sənətçilərimizin sənətkar adına yaraşmayan, onu uçuzlaşdıran, nüfuzdan salan məşğuliyyətlərlə çörək qazanmaları kimi façiəvi bir halı aradan qaldıra bilməyəcəyik.

Maddi çətinliklər həm də ciddi sənət hadisəsinə çevrilə biləcək monumental tamaşalar hazırlamağa imkan vermir. Məsələn, mən Otellonu oynamaq istəyirəm, ancaq bu gün teatrın Şekspiri tamaşaya qoymağa, sadəcə, vəsaiti yoxdur. Çünki həmin vəsaitə üç-dörd adi tamaşa hazırlamaq olar.

Mən, əlbəttə, teatrın gələcəyinə nikbin baxıram. Ancaq gənclərin yetkinləşməsi üçün şərait yaratmaq lazımdır. Mühit, cəmiyyət, mətbuat teatra qayğı göstərməli, kömək etməlidir. Bilməliyik ki, teatrın taleyi hamımızdan asılıdır.

***"Xalq qəzeti", 28.02.2001***

# "MİLLİ MUSİQİ İKİNCİ ANA DİLİMİZDİR"

**Müasir musiqi ifaçılığı sənətimizin görkəmli nümayəndəsi, Xalq artisti Habil Əliyev həm də xalq musiqimizin, ifaçılıq sənətimizin taleyi və qayğıları ilə bağlı maraqlı və orijinal, həm də kəskin və tələbkar çıxışları ilə bu sənətin vacib problemləri barədə, sözün yaxşı mənasında, mübahisələr doğurmağı bacaran bir sənətkardır.**

**Redaksiyamıza müraciət edərək bir sıra fikirlərini qəzetimiz vasitəsilə musiqi ictimaiyyətinə və bütün musiqisevərlərə çatdırmaq istədiyini bildirəndə maraqlı və səmimi bir müsahibə alınacağına qabaqcadan inanırdıq. Ancaq mühakimələrin məzmunu və xarakteri, toxunulan məsələlərin vacibliyi, söylənilən tənqidi fikirlərin qətiliyi Habil müəllimlə söhbətimizi adi müsahibə çərçivəsindən çıxarıb ifaçılıq sənətimizin problemləri haqqında polemik səciyyəli dialoqa çevrildi.**

– Mən milli mənəviyyatımızın qorunması haqqında Prezidentimizin bəyanatını dinləyəndən bu məsələlər barədə mətbuata danışmaq qərarına gəlmişdim. Neftçilər gününə həsr olunmuş konsertdən sonra hörmətli Prezidentin musiqiçilərlə söhbəti zamanı söylədiyi tənqidi fikirlər, verdiyi məsləhətlər məni bir daha əmin etdi ki, bu barədə mütləq danışmaq lazımdır.

***– Habil müəllim, Prezidentin bəyanatında qaldırılan məsələlərin vacibliyi, aktuallığı bütün ziyalıların ürəyindən xəbər verir. Bu mənada sizin də fikirlərinizi dinləmək maraqlı olardı. Ancaq Prezidentin musiqiçilərlə söhbətində hansı məqamların sizi bu qədər həyacanlandırdığı bir az anlaşılmazdır.***

– Məgər eşitmədiniz, nələr dedi?

***– Dedi ki, "bu gün çox yaxşı konsert nümayiş etdirdiniz. Azərbaycan mədəniyyətinin nə qədər yüksək səviyyədə olduğunu yenə də göstərdiniz. Mən sizə təşəkkür edirəm... "***

–Daha nə deməliydi ki! Heydər Əliyev öz hörmətini gözləyən, arada pərdə saxlamağı bacaran adamdır. Daha durub, o cavanları danlayası deyildi ki! Amma

## *PREZİDENT O KONSERTDƏN RAZI QALSAYDI, BÜLBÜLÜN OXUMAĞINI XATIRLATMAZDI,*

keçmiş ifaçıları indikilərə nümunə göstərməzdi. Deməzdi ki, "Azərbaycanın özünəməxsus musiqisi, incəsənəti yaşamalıdır. O konsertdə Prezident öz milli ifaçılıq

sənətimizin yaxşı nümunələrini görsəydi, yabancı təsirlərə düşməyin zərərindən danışıb, – "O qədər qışqırırlar, başa düşmürsən, nə deyirlər, neyləyirlər. Oradan bura, buradan oraya atılıb-düşürlər. Amma nə oxuyur, başa düşülmür" – deməzdi.

***– Elə isə, sizcə, Prezidenti narazı salan cəhətlər nə idi?***

– Prezidentin göstərdiyi nöqsanlar pop musiqi adlandırılan ifaçılıq tərzinə aiddir. Bizim öz milli ifaçılıq üslubumuzda, xüsusən xalq musiqisi ifaçılığında belə şeylər yoxdur. Deməli, onun narazılığı, ilk növbədə, konsertdə hansı musiqinin təmsil olunmağı ilə bağlıdır.

Prezident xalq musiqimiz üçün hər şeyi edib. Ancaq biz bu qayğıya layiqli cavab verə bilməmişik və verə bilmirik. Çünki mədəniyyəmizə, incəsənətimizə rəhbərlik edən adamlar bu işdə cənab Heydər Əliyevin yolunu tutmurlar. Açığı budur ki, bizdə estrada ilə xalq musiqisinə münasibətdə ögey- doğmalıq var.

***– Habil müəllim, axı Prezidentin nümunə göstərdiyi Tofiq Quliyevin, Rauf Hacıyevin mahnıları da estrada janrının nümunələridir.***

– Mən estrada musiqisinin əleyhinə deyiləm. Rəşid Behbudov kimi dahi sənətkarı necə danmaq olar? Ancaq bir şeyi unutmaq olmaz –

***NƏ QƏDƏR MAHNILARIMIZ VARSA,***
***HAMISI MUĞAMATIN YARPAQLARIDIR.***

İstər xalq mahnısı olsun, istər bəstəkar mahnısı. Yarpaqlar açılır, əvvəl təravətli olur, sonra solur-saralır, sonra da tökülüb gedir. Yəni ömrünü başa vurur. Muğamat isə köklü-köməcli, qollu-budaqlı, nəhəng bir ağacın özüdür. Nə qədər ki, ağac var, hər payız yarpaqları tökülsə də, yaz gələndə yenə yarpaqlayacaq. Bəla burasındadır ki, bəziləri yarpaqları qoruyurlar, qayğı göstərirlər, ancaq ağacın kökünü, gövdəsini baltalayırlar. Başa düşmürlər ki, ağac olmasa, yarpaq da olmayacaq. Olsa da, bilinməyəcək, bu hansı ağacın yarpağıdır, hansı xalqın musiqisidir.

Muğam anamızın laylası ilə ruhumuza hopur, bir də dünyadan gedəndə Quranın avazı ilə bizi yola salır. Muğamatı yaşadan isə onun ifaçılarıdır. İfaçılara hörmət qoyulmursa, deməli, muğamata hörmət qoyulmur. Muğam oxuyan adına elələrini ortaya çıxarırlar ki, mən heç qulaq asa bilmirəm. Görün iş nə yerə çatıb ki, toy sahibləri əvvəlcədən müğənninin dilindən iltizam alırlar ki, muğamat oxumasın.

Necə olur ki, əsrlərdən bəri gəlib bizə çatmış bu sərvəti biz qoruya bilmirik, bizim əlimizdə məhv olub gedir?

***– Habil müəllim, mən sizin yanğınızı başa düşürəm, ancaq fikirlərinizdəki bədbinliklə, ümidsizliklə razılaşa bilmirəm. Kökü minillərin dərinliyinə gedən, tarixin hər cür keşməkeşlərindən keçib yaşayan bir sənət necə ölə bilər axt?! Əgər dövrün hansısa çətinlikləri varsa belə, bu hələ bədbinliyə əsas vermir. Qayğısızlıqdan gileylə-***

***nirsiniz. Bəs bu qədər musiqi məktəbləri, muğamat, xalq musiqisi ifa edən uşaqlar, gənclər arasında festivallar, müsabiqələr... bəs bunlar nədir? Əgər vaxtilə bizim konservatoriyada muğam kafedrası olub indi bağlansaydı, əvvəllər muğam teatrı olub indi ləğv edilsəydi, mən sizinlə razılaşardım. Ancaq əksinə olub. Məhz son dövrlərdə Azərbaycanda Muğam teatrı yaradılıb, Musiqi Akademiyasında muğam kafedrası açılıb, indi Milli Konservatoriya yaradılır. Muğam musiqisinin beynəlxalq miqyasda təbliği üçün nə qədər işlər görülür. Xaricə gedən incəsənət heyətlərində xalq musiqisi də təmsil olunur. O başqa söhbətdir ki, biz***

***BU İMKANLARDAN NİYƏ LAZIMINCA İSTİFADƏ EDƏ BİLMİRİK?..***

– Yenə hər şey rəhbərlikdən asılıdır. Xarici səfərləri götürək. Xaricə kim gedirsə, artıq özünü yox, bütün Azərbaycan mədəniyyətini təmsil edir. Qəribədir, məsələn, klassik musiqi janrları üzrə ən yaxşı ifaçıları seçməyə çalışırlar. Onların istənilən ölkədə, istənilən tamaşaçı qarşısında çıxışı başımızı aşağı eləmir. Ancaq bu qruplara xalq musiqisi ifaçısı adına bəzən elə təsadüfi adamlar salınır ki, bu sənətdən başı çıxan tamaşaçının istehzasına səbəb olur. Xarici tamaşaçının bu sənətin incəliklərindən bixəbər olmasına, ona ekzotika kimi baxıb, elə o cür də dəyərləndirməsinə bel bağlayırlar. Lakin xaricdə yetkin publika həqiqi sənəti xalturadan, həqiqi sənətkarı baş qatandan çox

gözəl ayıra bilir. Muğamlarımızın bütün dünyada böyük maraq və məftunluqla qarşılanması buna sübutdur. İndi görün, biz muğamatı onun yol və ənənələrini qoruyan, yaşadan ciddi ifaçılarla ortaya çıxarsaq, təbliğ etsək, necə böyük uğurlar qazana bilərik.

**– Elə isə, o təbliğatı öz ölkəmizdə, Bakıda, başqa şəhərlərdə, rayonlarda aparmağa nə mane olur? İndi əvvəlki vaxt deyil ki, hər şeyi mədəniyyət idarələri, Mədəniyyət Nazirliyi həll edə. Necə etmək lazımdır ki, xalq musiqisi ifaçıları da yeni dövrün iş prinsiplərini, təşkilatçılıq metodlarını öyrənib öz təbliği ilə məşğul olsun, reklamını, konsert fəaliyyətini, televiziya çəkişlərini qura bilsin?**

**Respublika Sarayının rəhbəri qəzetinizə verdiyi müsahibədə dönə-dönə vurğulamışdı ki, şəhərinizin baş səhnəsini hər an xalq musiqisi ifaçılarının sərəncamına verməyə hazırdır. Ancaq özləri istəmirlər, çünki salonu doldura bilmirlər. Bəlkə gileylənməkdənsə, yeni dövrün reallıqlarına uyğun iş üsullarını estrada musiqiçilərindən öyrənmək lazımdır?**

**Sponsorlar və reklamçılar daha çox estrada musiqisinin xidmətindədir. İstedada yox, başqa şeylərə qiymət verirlər. Tamaşaçıların, ilk növbədə gənclərin də zövqünü korlamışıq. Onlar da elə səhnədəkilər kimi, qışqırmağın, atılıb-düşməyin marağındadırlar. Fikir veribsinizmi, konsertə musiqi dinləmək üçün yox, yerlərindən durub oynamaq üçün gəlirlər. Xalq musiqisi**

**ifaçılarının əlində bu vəziyyətə təsir etmək, onu dəyişmək, düzəltmək üçün heç bir imkan, səlahiyyət yoxdur.**

***–Habil müəllim, məgər sənətin özü ən böyük səlahiyyət deyilmi? Mən sizin gənc tamaşaçılar haqqında ümidsizliyinizlə razı deyiləm. Bakıda iki milyondan artıq adam yaşayır.***

***HƏR MİN NƏFƏRDƏN BİRİ KONSERTƏ GƏLSƏ, RESPUBLİKA SARAYININ SALONU DOLAR.***

***Yəni hər min nəfərdən biri muğamata qulaq asmaq istəmir? İnanın ki, ən azı hər yüz nəfərdən onu istəyir. Sadəcə olaraq, gənc tamaşaçı ilə işləmək, lap yeri gəlsə, onu pop musiqinin əlindən almaq lazımdır. Axı böyük sənət həm də ona görə böyükdür ki, öz tamaşaçısını özü yetişdirir.***

***Təbü ki, gənclər daha çox yeniliyə meyillidirlər. Gəlin etiraf edək ki, sənətdə uğur qazanmaq üçün istedadla bərabər yenilik də şərtdir.***

– Razıyam. Ancaq yenilik yalnız yeni olduğu üçün yox, ənənəni yaşatdığı və köhnədən yaxşı olduğu üçün dəyərli olmalıdır. Bizdə isə buna baxan yoxdur. Çox zaman yeni, fəqət istedadsız olanlar qabağa çəkilir.

Tamaşaçının zövqünü nəzərə almaq onun səviyyəsinə enmək demək deyil. Görürsünüz, səhnə salondan yüksəkdədir. Bunun rəmzi mənası var. Səhnəyə çıxan sənətçi-

nin borcu salonda oturan tamaşaçını öz səviyyəsinə, daha doğrusu, musiqinin, sənətin səviyyəsinə qaldırmaqdır, onun yanına enmək deyil.

Mən yeniliyin tərəfdarı olmaya bilmərəm. Mən özüm sənətdə nəyə çatmışamsa, gətirdiyim yeniliklərin hesabına çatmışam. Ancaq indi məsələ yaxşı-pis məsələsidir. Yaxşılar azdır, pislər isə lap çoxdur. Yaxşıların onlara gücü çatmır. Buna görə də dövlətin işə qarışması lazımdır.

***– Siz bunu necə təsəvvür edirsiniz ? Hansı formada ?***

– Prezident dil haqqında fərman vermədi? Milli musiqi də bizim ikinci ana dilimizdir. Görürsünüz, vaxtilə dilimizə həqarətlə baxanlar indi məcbur olub necə danışırlar?! Musiqi sahəsində də məsələ o cür kəskin qoyulmalıdır.

Adicə bir fakt deyim. Dövlət televiziya və radiosundan, bir də bu təzə açılan "Lider"' kanalından başqa, heç bir televiziya, radio kanalında günlərlə xalq musiqisi eşitməzsiniz.

***– Habil müəllim, dövrün xüsusiyyətlərini nəzərə almaq lazımdır. Heç kəs özəl kanala göstəriş verə bilməz ki, bu musiqini göstər, onu göstərmə.***

– Hər şeyin həddi olmalıdır. Özəl kanalları dövlət əleyhinə danışmağa qoyarlar? Qoymazlar! Bəs axı mədəniyyət də dövlətin, millətin taleyi üçün çox vacib məsələ-

dir. Nə isə bir yol tapıb bu işlərə bir əncam çəkmək lazımdır.

Məsələ bundadır ki, musiqiyə alver vasitəsi kimi baxırlar. Ona görə də həqiqi sənət qalır kənarda. İstedadsızlar düşür qabağa.

***–Onda gəlin, razılaşaq ki,***

***AYIRICI XƏTT ESTRADA İLƏ XALQ MUSİQİSİ ARASINDAN YOX, İSTEDADSIZLARLA İSTEDADLILAR ARASINDAN KEÇİR.***

***Bu yaxınlarda sizin və Arif Babayevin "Speys" telekanalında Brilyant Dadaşovanın verilişində iştirakınız nə gözəl alındı. Necə mənalı söhbətlər, çıxışlar eşitdik. Brilyant Dadaşova estradamızın ulduzlarından biridir və sizin tənqid etdiyiniz, qəbul edə bilmədiyiniz bir çox keyfiyyətlər ona da aiddir. Ancaq istedadlı sənətçidir, elədirmi?***

– Şübhəsiz ki, elədir!

***– Belə isə həmin verilişi nümunə götürüb, janrından, üslubundan asılı olmayaraq, bütün istedadlıları barrikadanın bir tərəfinə yığmaq olmazmı?***

– Əlbəttə, olar. Əlbəttə, lazımdır. Ancaq axı nə, daha doğrusu, kimlər mane olur. Burada yenə gəlib çıxırıq mən deyənə...

***– Deməli, razılaşırsınız ki, həmin verilişdə olduğu kimi, bizim telekanallarımız da, səhnələrimiz də xalq***

***musiqisi ilə müasir estradanın bir konsert proqramı daxilində uğurlu sintezini tapa bilər.***

-Yox. Xalq musiqisini o konsertlərə öz təbii halında buraxmırlar. Aranjiman dedikləri bir ələkdən keçirirlər. Yəni onun mayasına yad səslər, ögey ladlar qatırlar.

Görünsünüzmü, Türkiyə telekanalları xalq musiqisini, aşıq musiqisini necə təbii formada, gözünə heç nə qatmadan nümayiş etdirirlər.

***– Axı elə həmin kanallarda sizin qəbul edə bilmədikləriniz də bizdəkindən çoxdur.***

– Doğrudur. Onların pisi də bizdən çoxdur. Uşaq söyüşü tez öyrənən kimi, bizimkilər də yaxşını qoyub, pisi tez götürürlər.

Mən belə danışıb hamını tənqid edəndə, elə bilirsiniz, özümdən razıyam? Mən həmişə arzu eləyirəm ki, kaş düşündüyüm adam ola biləydim.

Həyat karusel kimidir, hər şey fırlanıb yenidən qayıdır. Bilirəm ki,

## *BİR GÜN GƏLƏCƏK, İTİRDİKLƏRİMİZİ AXTARACAĞIQ*

**Mən qorxuram ki, o gün gələndə hər şeyi itirmiş olaq, sıfırdan başlamaq lazım gələ.**

**Nə qədər ki, gec deyil, gəlin, hamılıqla köməkləşib sənətçini də, tamaşaçını da doğru yola qaytaraq. Mən**

**demirəm ki, dediklərimin hamısı düzdür. Deyirəm, gəlin, bilənlər, qananlar bir yerə yığılsın, fikrini, sözünü desin, dövlət də onları eşidib bir tədbir görsün. Bu da hörmətli Prezidentimizin milli mənəviyyatımızı qorumaq üçün apardığı mübarizəyə bizim köməyimiz olar.**

***– Maraqlı söhbətə görə sağ olun, Habil müəllim. Ümid edirik ki, ürək yanğısı ilə dilə gətirdiyiniz problemlər eşidiləcək, həllini tapacaq.***

**– Siz sağ olun ki, məni dinlədiniz, ürəyimi boşaltdım. İstəsəniz, daha bunları heç qəzetə verməyə də bilərsiniz...**

***"Xalq qəzeti", 26- 27.10.2001***

# ÖMRÜN VƏ SƏNƏTİN MÜDRİKLİK ÇAĞI

**19 mart 1960-cı il. Cəfər Cabbarlının xatirəsinə həsr olunmuş ədəbi-musiqili gecə. Həmin məclisdə Azərbaycan vokal sənətinin banisi, böyük müğənni Bülbül özünün konsert repertuarına daxil olan musiqi incilərindən birini – A.Zeynallının C.Cabbarlının sözlərinə bəstələdiyi "Ölkəm" romansını oxudu. Dünyadan nakam köçmüş iki böyük sənətkarın – gənclik dostu Asəfin və ölməz ədib Cəfərinn sənət yadigarı olan bu nəğməni Bülbül həmişə həvəslə oxuyurdu:**

**Tarixlərin qızıl yarpaqlarında**
**Dadlı-dadlı sözləri var ölkəmin...**

**Ancaq həmin axşam bu romans onun ifasında həmişəkindən fərqli, xüsusi bir şövqlə, ayrıca bir ahənglə səsləndi. Sanki səsi "şiş ucları buludlarla döyüşən dağlar"ın zirvələrini dolanıb ənginliklərə havalanırdı. Bu qeyri-adi ifa səbəbsiz deyildi. Həmin məclisdə Bülbülü royalda ilk dəfə peşəkar səhnəyə çıxan 15**

**yaşlı bir yeniyetmə – sonralar Bülbülün adını daşıyacaq musiqi məktəbinin şagirdi Polad müşayiət edirdi. Bülbülün oğlu Polad. Polad Bülbüloğlu...**

Sanki, bu çıxış ömür və sənət estafetinin atadan oğula ötürülməsi məqamı idi. İfa olunan əsər də, elə bil, təsadüfi seçilməmişdi, sanki, bu da bir rəmz, bir nişan idi. Ömrünü və sənətini ölkəsinin, millətinin ucalmasına, şöhrətlənməsinə həsr etmiş ustad sənətkar, elə bil ki, bu yüksək missiyanı oğluna ərməğan edirdi, vətən tarixinin qızıl yarpaqlarına yeni-yeni dadlı sözlər yazmağın yolunu göstərirdi. Atalar yaxşı deyib ki, usta oğlundan şəyird olmaz...

Bir il sonra Qarabağa son səfərinə, Şuşa ilə vida görüşünə çıxanda da Bülbül Poladı özü ilə götürdü. O səfərdə Polad Üzeyir bəyin udduğu havadan uddu, Cabbarın, Xanın içdiyi sulardan içdi...

1963-cü ildə Polad Konservatoriyanın bəstəkarlıq fakültəsinə – zəmanənin həm xarakter, həm də üslubca ən ciddi bəstəkarı Qara Qarayevin sinfinə qəbul olundu. Tələbələrinə qarşı həddən artıq tələbkar, hətta sərt olan Qara müəllim Polada klassik musiqinin bütün janrlarının sirlərini, incəliklərini öyrədirdi. O da müəllimini razı salaraq bu janrlarda ilk əsərlərini yaratmağa başladı. Amma Poladın könlü mahnıda idi. Müəllimi də bunu duydu və onun estradaya gedən yoluna çəpər çəkmədi. Beləliklə, hələ tələbəykən – 1965-ci ildən Polad Bülbüloğlunun bəstəkar və müğənni kimi səhnə fəaliyyəti başlandı.

O zaman Sovetlər İttifaqında müəlliflərin öz mahnılarını ifa etməsi az qala bir dəbə çevrilmişdi. Ancaq bu ifaçılar, adətən, həvəskar musiqiçilər olurdular. Polad isə ciddi, peşəkar bəstəkarlıq təhsili və fəaliyyəti ilə yanaşı, həm də özünün estrada mahnılarını oxuyan yeganə ifaçı idi. Orijinal bəstəçi üslubu, bənzərsiz səsi və ifa tərzi onu hamıdan fərqləndirirdi. Şan-şöhrətin də yolunu çox gözləməli olmadı. Tezliklə Sovet İttifaqının ən populyar müğənnilərindən birinə çevrildi. SSRİ-nin, demək olar ki, bütün guşələrində, neçə-neçə xarici ölkələrdə konsertlər verib misilsiz uğurlar qazandı. Çox gənc yaşlarından sənəti rəsmi səviyyədə də dəyərləndirildi – 28 yaşında Azərbaycanın Əməkdar incəsənət xadimi, 37 yaşında Xalq artisti fəxri adlarına layiq görüldü.

Polad Bülbüloğlunun gənc yaşlarından düşdüyü mühit, “ümumsovet sənət məkanı” onun bir şəxsiyyət və sənətkar kimi kosmopolit ruhda formalaşması üçün hər cür “əlverişli şərait” yaratmışdı. Qastrol konsertlərində mahnıların çoxunu rusca oxumalı olurdu, ana dilində danışanda hətta bəzi sözlərə dili çətin yatırdı. Ancaq həlledici sözü Bülbülün qanı dedi, o, ruhən heç zaman Vətəni, xalqı ilə mənəvi bağlılığı itirmədi. Onun musiqisi məhz Azərbaycan musiqisi idi – melodiyalarında, nəfəslərində saz-muğam ladları dərhal duyulurdu. Dünyanın harasında çıxış etməsindən asılı olmayaraq, bütün konsertlərini “Azərbaycan” mahnısı ilə başlayıb, “Bakı” mahnısı ilə bitirirdi. Sonralar ansambl yaradanda da adını “Aşıqlar” qoydu.

Hətta rusca oxuduğu mahnıların da ilkin variantını mütləq Azərbaycan dilində yaradırdı. Onun mahnıları Azərbaycanın görkəmli şairləri S.Rüstəmin, R.Rzanın, N.Xəzrinin, İ.Səfərlinin, C.Novruzun, F.Qocanın şeirlərinə bəstələnirdi.

**Əslində, onun ifaçılıq fəaliyyətini yalnız şərti olaraq müğənnilik adlandırmaq olar. O, ilk növbədə bəstəkardır, müğənni kimi də yalnız öz mahnılarını oxuyub. Bir də son vaxtlar Bülbülün repertuarından bir neçə xalq mahnısını ifa edir.**

60-cı illərdə sənətə gələn bütün ciddi sənətkarlarımız kimi, Polad Bülbüloğlunun da yaradıcılığı üçün təbii novatorluq hissi, köhnəlmiş stereotiplərdən azad olmaq meyli xarakterik idi. Ancaq dövrün, zamanın ahəngi onun musiqisində nə qədər aydın səslənsə də, sənətə ilk növbədə Üzeyir Hacıbəyov, Səid Rüstəmov, Tofiq Quliyev, Fikrət Əmirov, Rauf Hacıyev lirik mahnı məktəbi ənənələrinin daşıyıcısı və davamçısı kimi gəlmişdi.

“Bənövşələr”, “Sən və mən”, “Bakının axşamı”, “Dişlərin incidəndir”, “Dolalay”, “Gəlmədin sən” kimi ilk mahnıları Azərbaycan mahnı sənətinə yeni bir istedadlı bəstəçinin gəldiyindən soraq verdi.

Polad Bülbüloğlunun mahnıları başqalarından, ilk növbədə, onun öz səsinə, öz ifa tərzinə uyğun yazılması ilə seçilir. Başqa bəstəkarlar əvvəl mahnını yaradıb sonra onu müğənniyə öyrədirlərsə, P.Bülbüloğlu mahnını eyni zamanda həm bəstəkar, həm də müğənni kimi yaradır. Bu-

na görə də başqa müğənnilər onun mahnılarını asan oxumurlar. Əslində, elə belə yaxşıdır, elə belə də olmalıdır. Sənətdə, o cümlədən də ifaçılıq sənətində asanlıq arxasında çox zaman bəsitlik, qeyri-professionallıq dayanır, daha doğrusu, gizlənir. Onun musiqisi zahirən nə qədər "yüngül" görünsə də, ifa baxımından çətin musiqidir. Müğənnidən həqiqi səs, yüksək peşəkarlıq tələb edir. Buna görə də onun Azərbaycan mahnı sənətinin qızıl fonduna daxil olmuş "Durnalar", "Şən Azərbaycan", "Bakı", "Gəl, ey səhər", "Gözlərinə de ki...", "Azərbaycan", "Toydan sonra düzələr" mahnılarını oxumağa hər müğənni girişə bilmir.

**Yeri gəlmişkən, bu cəhət, yəni Polad Bülbüloğlunun mahnılarının xüsusi ifa tərzi tələb etməsi onu kinoaktyorluğa da vadar etmişdir. Poladın aktyor kimi çəkildiyi "Qorxma, mən səninləyəm" fılminin rejissoru Yuli Qusman söyləyir ki, "bəstəkarın film üçün yazdığı mahnıların başqa heç bir aktyor və müğənninin dilində istədiyimiz kimi təbii səslənmədiyini görüb, onun özünü baş rolda çəkməyə məcbur olduq."**

Bu filmə qədər Polad Bülbüloğlu kinoda bəstəkar kimi ciddi yaradıcılıq yolu keçmişdi. Bu sahədə ilk böyük işi olan "İstintaq davam edir" filminə bəstələdiyi musiqi ürəklərə yol tapmış, həmin filmdə səslənən "Gəldi ayrılıq" mahnısı dillər əzbəri olmuşdu. Ümumilikdə isə o, 20-dən artıq filmə, o cümlədən "Uşaqlığın son gecəsi", "Var olun, qızlar", "Səmt küləyi", "Sevinc buxtası", "Babək" kimi məşhur kino əsərlərinə, onlarla teatr tamaşasına musiqi

yazmışdır. Kinoya musiqi yazmaq bəstəkar üçün ciddi sınaqdır. Hər bədii filmdə təxminən bir saatlıq proqramlı simfonik musiqi səslənir. Təsadüfi deyil ki, P.Bülbüloğlu Kinematoqrafçılar İttifaqına da Bəstəkarlar İttifaqı ilə bir ildə – 1969-cu ildə üzv qəbul edilmişdir.

İfaçılıq sənətinin bütün incəliklərini, necə deyərlər, içəridən bilən Polad Bülbüloğlunun bu sənətə ciddi, tələbkar münasibəti onun bir nazir kimi fəaliyyətində də özünü göstərir.

**Ölkənin baş səhnəsində – indi Heydər Əliyevin adını daşıyan, sarayda fonoqramla oxumağı qadağan etdi və özü möhtəşəm bir konsertlə başqalarına nümunə göstərdi.**

**Bundan sonra solo konsert vermək üstündə növbə yaratmış xalturaçıların ayağı sarayın səhnəsindən kəsildi.**

Mahnıların klip formasında təqdimatı dəb halını alaraq canlı ifanı arxa plana sıxışdıranda o, “Gəl, ey səhər” mahnısına yaratdığı kliplə bu sahədə də ən yaxşı örnəyi ortaya qoydu və sübut elədi ki, hamıdan keyfiyyət tələb etməkdə tam haqlıdır.

**Şahidi olduğum bu əhvalatı xatırlatmaq istəyirəm. Bir neçə il əvvəl Şəkidə teatrın təmirdən sonra yenidən açılması ilə bağlı tədbir keçirilirdi. Tədbirə nazir kimi dəvət olunmuş P.Bülbüloğlu bədii hissədə onun mahnısını oxuyan gənc həvəskar müğənniyə “dəstək üçün” səhnəyə çıxdı və tədbirin rəsmi gedişindən yo-**

**rulmuş tamaşaçıları dərhal ələ alaraq gözəl bir mini-konsert verdi. Sənətçinin qazandığı alqışlar, şübhəsiz ki, nazirin nitqinə verilən reaksiyadan daha səmimi oldu. Bununla da o, uzun müddətli məmurluq fəaliyyətinə baxmayaraq, daxilən, ruhən sözün böyük mənasında ARTİST – sənətkar olaraq qaldığını bir daha sübut etdi.**

Polad Bülbüloğlu 16 ildən çoxdur ki, Azərbaycanın mədəniyyət naziridir. Bu dövr ölkəmizin tarixində son dərəcə məsuliyyətli, eyni zamanda şərəfli bir mərhələni əhatə edir. Və bu illər ərzində bütün ölkə ilə birgə mədəniyyətimizin də ağır böhran məqamlarını dəf edərək yeni yüksəliş yoluna çıxmasında nazirin, heç şübhəsiz ki, böyük rolu olmuşdur.

Bu dövrdə aparılan idarəçilik islahatları nəticəsində Mədəniyyət Nazirliyinin fəaliyyət dairəsi daha da genişlənmiş, deməli, nazirin işi və məsuliyyəti daha da artmışdır. Bu isə yeni qayğılar, yeni problemlər deməkdir. Əvvəllər müstəqil qurumlar şəklində fəaliyyət göstərmiş tarixi abidələrin mühafizəsi və kino sahələri Mədəniyyət Nazirliyinin tabeliyinə verildikdən sonra burada da böhran aradan qaldırılmış, bir canlanma yaranmışdır. Təkcə mədəni irsin qorunması, kinoya dövlət qayğısının artırılması istiqamətində görülən işləri yada salmaq kifayətdir.

Polad Bülbüloğlunun nazir kimi fəaliyyət göstərdiyi dövrdə görülmüş mədəni quruculuq işləri böyük bir prosesin – ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi

ilə aparılmış müstəqil, demokratik dövlət quruculuğu prosesinin tərkib hissəsidir.

**Heç kimə sirr deyil ki, P.Bülbüloğlunun rəhbərlik etdiyi mədəniyyət sahəsi həmişə ictimaiyyətin diqqət mərkəzində duran, buna görə də əlavə spesifik çətinlikləri olan bir sahədir. İncəsənət mühitində mövcud olan "incə" münasibətlərin, sənət adamlarının hər cür şıltaqlıqlarının fonunda müvazinəti saxlayıb hamını, üstəlik həm də ictimai rəyi razı salmaq, əlbəttə ki, asan məsələ deyil.** Bütün söz-söhbətlərə, şayiələrə baxmayaraq, P.Bülbüloğlu öhdəsinə düşən işi görüb və duruş gətirib. Əsas səbəb odur ki, böyük rəhbər Heydər Əliyev ona inanıb, etimad göstərib. Yeri gəlmişkən, hələ gənc yaşlarından layiq görüldüyü fəxri ad və titulları da ona Heydər Əliyev vermişdi. Nazir vəzifəsində P.Bülbüloğlu milli mədəni quruculuq konsepsiyasının hazırlanmasına, bir çox problemlərin həllinə, yaradıcılıq atmosferinin qorunub saxlanmasına nail olmuşdur. Bu sahəyə aid təhsil müəssisələrinin fəaliyyətinin və yaradıcılıq təşkilatları ilə münasibətlərin nizama salınmasını, teatr, muzey, kitabxana, kino, konsert, mədəni irsin qorunması sahələrində işin normal getməsini də onun fəaliyyətinin uğurlu cəhətləri hesab etmək olar.

Mədəniyyət Nazirliyinin rəhbəri kimi Polad Bülbüloğlunun fəaliyyət dairəsi təkcə ölkəmizin sərhədləri ilə məhdudlaşmır, belə demək mümkünsə, həm də beynəlxalq səciyyə daşıyır. Əsasən, iki istiqamətdə – MDB və türk

dövlətləri birliyi çərçivəsində cərəyan edən bu fəaliyyət Azərbaycan mədəniyyətinin beynəlxalq miqyasda tanıdılması və təsdiq olunması üçün geniş perspektivlər açır.

**Əlamətdardır ki, bu istiqamətlərin hər ikisində Azərbaycanın mədəniyyət naziri bilavasitə səlahiyyətli mövqelərə malikdir. O, 1994-cü ildən bəri türk dövlətləri mədəni əməkdaşlıq təşkilatı TÜRKSOY-un baş direktoru, 2002-ci ildən isə MDB Ölkələri Mədəniyyət Nazirlərinin Əməkdaşlıq Şurasının sədridir.**

MDB məkanında mədəni əməkdaşlıq ölkəmizin tarixən formalaşmış mədəni əlaqələrinin qorunub saxlanmasına xidmət edirsə, TÜRKSOY ümumtürk mədəni arealının və mədəni təfəkkürünün formalaşdırılması, qloballaşan dünyada ümumtürk mədəni varlığının təsdiqi və qorunması üçün yollar açır.

“Kitabi-Dədə Qorqud”un 1300, M.Füzulinin 500 illik yubileyi mərasimlərində həmin təşkilatın səmərəli, Azərbaycana böyük fayda və nüfuz gətirən fəaliyyəti bu fikri təsdiq edir.

MDB çərçivəsində əməklaşlığın bir nüansı da Ermənistanla münasibətlərə aiddir. Mədəni sərvətlərimizin erməni təcavüzlərindən qorunması uğrunda aparılan gərgin mübarizədən əlavə, Polad Bülbüloğlunun onlarla öz şəxsi haqq-hesabı da var. Ermənilər onun atasına qəsd ediblər. Özünü olmasa da heykəlini, rəmzini, xatirəsini güllələyiblər. Bəlkə də, bu, birincidən də betər dərddir...

Polad Bülbüloğlunun ictimai və yaradıcılıq fəaliyyəti həmişə layiqincə qiymətləndirilib. Onun layiq görüldüyü fəxri ad və titulları, qazandığı mükafatları saymaqla qurtaran deyil. Bu günlərdə isə o, Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə ölkəmizin ali mükafatı – "İstiqlal" ordeni ilə təltif edilmişdir.

Fevralın 4-də Polad Bülbüloğlunun 60 yaşı tamam olur. Bu yaş, adətən, qocalığın başlanğıcı sayılsa da, onun cismində və ruhunda qoruyub saxladığı gənclik şövqü və enerjisi sübut edir ki, qocalıq barədə danışmaq hələ çox tezdir...

***"Xalq qəzeti", 4.02.2005***

# “REJİSSORLUQ MƏNİM TALEYİMDİR”

## Həmsöhbətimiz bu günlərdə 70 yaşı tamam olan görkəmli teatr rejissoru, Xalq artisti, professor Ağakişi Kazımovdur

### *“Başqa ömür yaşamaq istəmərəm”*

***– Ağakişi müəllim, 70 yaşın zirvəsindən keçmiş günlərə baxanda nələr görünür?***

– Uğurları, sevincləri ilə yanaşı çoxlu həyəcanlarla, iztirablarla, maneələrlə, inkarlarla, saymamazlıqlarla, aldanışlarla üzləşdiyim sevimli bir ömür yaşamışam. Hərdən soruşurlar ki, yenidən yaşasaydın, nələri dəyişərdin? Yox, mən heç nəyi dəyişmək istəməzdim, necə yaşamışam, elə də yaşayardım. Atalar deyib ki, “niyyətin hara, mənzilin də ora”. Yox, əgər insan hesab edirsə ki, öz mənzilinə çatmayıb, deməli, əvvəldən niyyətini düz tutmayıbmış. Mən ağlım kəsəndən həmişə rejissor olmaq istəmişəm. Sonralar da həmişə işimlə tamaşaçıları razı salmağa

çalışmışam. Məni başqa heç nə maraqlandırmayıb. Təsəvvür edin, 1988-90-cı illər – aləm qarışıb, ölkə dəyişib, sistem dəyişib, hamı bir-birinə dəyib, amma mən Milli Dram Teatrında, Gənc Tamaşaçılar Teatrında ildə üç yeni tamaşa hazırlamışam. Aktyorları tapıb məşq üçün bir yerə yığa bilmirdim, hamı qaçıb mitinqlərə gedirdi. Mənsə gücüm çatan qədər işləməyə çalışırdım. Bütün düşüncələrim, həyəcanlarım işimlə, sənətimlə – teatrla bağlı olub. Yox, biganə yaşamırdım, əksinə, hər şeyi ürəyimə salırdım. Buna görə də 1995-ci ildə infarkt aldım. Bu ömür nə qədər ağır olsa da, mənimdir, onu başqa heç nəyə dəyişmək istəmərəm.

***– Yaradıcılığınızın ilk dövründə gələcəyə pillə hesab etdiyiniz hansı böyük işlər, böyük uğurlar olub?***

– Mənim səhnəyə ilk çıxışım indi də yadımdadır. 16 yaşımda Ağcabədidəki dram dərnəyində “Məşədi İbad”da Rza bəyi oynamışam. 1952-ci ildə Teatr İnstitutunun aktyorluq fakültəsinə girdikdən sonra peşəkar səhnəyə ilk dəfə 1954-cü ildə Milli Dram Teatrında Mirzə İbrahimovun “Həyat” pyesinin tamaşasında kolxozçu rolunda çıxmışam. Düz 50 il əvvəl – 1955-ci ildə hələ tələbəykən məni həmin teatra aktyor kimi işə qəbul ediblər. Cəfər Cabbarlının “Almaz” pyesində Barat, “Solğun çiçəklər”ində Bəhram, Hüseyn Cavidin “Şeyx Sənan”ında Ramiz, Ənvər Məmmədxanlının “Şirvan gözəli” əsərində Fərəc, Mehdi Hüseynin “Cavanşir” dramında Fərid, Nazim Hikmətin “Qəribə adam”ında Tofiq və s. rollar oynamışam.

Aktyor kimi o zaman iki dəfə Moskvada qastrolda olmuşam, teatr festivalının diplomunu qazanmışam. Amma könlüm rejissorluqda olduğu üçün aktyorluq fəaliyyətindən çox tez ayrılmışam.

Mən hələ aktyor olarkən rejissorluq işinə başlamışdım. Pedaqoji İnstitutda dram dərnəyinə rəhbərlik edirdim, Azərbaycan Dövlət Universitetində gənclik teatrı açmışdım. Bu teatrla Tiflisdə və Daşkənddə tamaşa göstərmişdik. O zaman Quba Dövlət Teatrında da iki tamaşa hazırlamışdım. Ədil İsgəndərov, Mehdi Məmmədov, Tofiq Kazımov, Əşrəf Quliyev kimi rejissorların tamaşalarında rol oynamaqla yanaşı, həm də onların rejissorluq işinə, məşq prosesinə göz qoyur, öyrənməyə çalışırdım. Mənə elə gəlirdi ki, bu sahədə mən də nəsə bacara bilərəm. Nəhayət, 1964-cü ildə bu istək məni Leninqraddakı Teatr, Musiqi və Kinematoqrafiya İnstitutunun rejissorluq fakültəsinə aparıb çıxardı.

## *“Aktyor Ağakişi Kazımova rol verməzdim”*

**– Ağakişi müəllim, adətən, aktyorlar müəyyən bir həyat və sənət təcrübəsi toplayandan sonra rejissorluğa meyil edirdilər. Siz isə hələ çox gənc ikən aktyorluq peşəsindən uzaqlaşdınız. Özü də o zaman sizi çox imkanlı, böyük gələcəyi olan bir aktyor hesab edirdilər. Qəribədir ki, siz rejissor olandan sonra aktyorluqdan biryolluq ayrıldınız. Yada salmaq istəyirəm ki, məsə-**

**lən, Mehdi Məmmədov ömrü boyu öz tamaşalarında rol oynamışdı. Siz bunu da etmədiniz**...

– Bilirsiniz, mən hələ çox gənc ikən böyük aktyorların əhatəsinə düşmüşdüm. Təsəvvür edin, mən Mirzağa Əliyev, Mərziyə Davudova, Rza Əfqanlı, Barat Şəkinskaya, Mustafa Mərdanov, Əjdər Sultanov, Möhsüm Sənani, Ələsgər Ələkbərov, Hökumə Qurbanova kimi aktyorlarla birgə səhnəyə çıxmışam. Bu nəhənglərin yanında mən çox cılız görünürdüm.

***– Amma sizi səhnədə görənlər aktyorluq istedadınızı çox yüksək qiymətləndirirlər.***

– İnanın səmimiyyətimə, aktyor Ağakişi Kazımov indi qarşıma çıxsaydı, mən bir rejissor kimi ona rol verməzdim, versəydim də, o, məni təmin edə bilməzdi. Doğrudur, dostlar mənim aktyorluğumu bəyənirlər, məsələn, rəhmətlik Həsənağa Turabovun gözündə məndən böyük aktyor yox idi. Məncə, bu qənaət dostların mənə olan rəğbətindən irəli gəlir. Mən özümə kənardan baxanda elə görmürəm. Bir də, aktyorluq çox böyük fiziki gərginlik tələb edən bir işdir. Mən isə bu cəhətdən tənbəl adamam.

***– Axı, rejissorluq aktyorluqdan daha ağır, daha məsuliyyətli bir peşədir. Necə olurdu ki, aktyorluqdan "qorxurdunuz", amma rejissorluğu "gözünüz yeyirdi?"***

– Bunu mən gec başa düşdüm. Kazan Dövlət Akademik Dram Teatrında diplom tamaşamı hazırlayanda. 1969-cu il idi. C.Cabbarlının 70 illiyi şərəfinə "Aydın" pyesini tamaşaya qoyurdum. Yalnız onda mənə çatdı ki,

çiynimi necə ağır bir peşənin yükü altına vermişəm. Aktyorlardan əlavə, gərək rəssamın da, bəstəkarın da işinə rəhbərlik edəsən, cavabdeh olasan...

Rejissor Rövşən Almuradlı "Yük" filmində məni Hacı Zeynalabdin Tağıyevin roluna çəkib. O, işimdən razı qalıb. Amma indi baxanda oyunum məni qane etmir. Bütün bunlara görə də öz tamaşalarımda heç zaman rol oynamamışam. Ümumiyyətlə, rejissorluğun ən çətin cəhətlərindən biri rol bölgüsüdü – hər aktyorun öz rolunu, hər rolun öz aktyorunu tapmaqdır.

## *"Rejissor əsəri əvvəlcədən tamaşa kimi görməyi bacarmalıdır"*

***– Ağakişi müəllim, sizcə, rejissorluq peşəsinin ən ümdə şərtləri hansılardır?***

– Əsəri oxuyan andan onu tamaşa kimi görməyi bacarmalısan. Ən xırda detallarına qədər. Hər bir personajın paltarının düyməsinə qədər əvvəlcədən görməyi bacarmalısan. İlyas Əfəndiyevin "Büllur sarayda" pyesini hazırlayanda Bayandur rolunu Yaşar Nuriyə verməyimlə heç kim, hətta rəhmətlik İlyas müəllim də razılaşmadı. Dedilər ki, bu, onun rolu deyil. Dedim, yox, onundur, mən bu rolda onu görürəm. Premyeradan sonra hamı mənimlə razılaşdı ki, seçim düz olub.

Mən hələ uşaq yaşlarımdan oxuduğum hər bir əsəri, eşitdiyim hər bir əhvalatı, adi söhbəti tamaşa kimi görür,

gözümün qabağına gətirirdim. İndi də oxuduğum hər şeyi-hətta elmi əsərləri, qəzet məqalələrini belə xəyalımda tamaşa kimi canlandırmağa çalışıram.

Buna görə də daxilimdə belə bir qəti inam var ki, rejissorluq mənim taleyimdir.

Diplom işim olan "Aydın" tamaşası SSRİ üzrə teatr müsabiqəsində birinci dərəcəli diplom aldı. İnstitutu bitirdikdən sonra təyinatla Azdramaya göndərilsəm də, məni qəbul etmədilər. Üç il o zaman yeni yaradılmış Sumqayıt Dövlət Dram Teatrında baş rejissor işlədim. Orada ən uğurlu tamaşam Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin" faciəsi oldu. Oradan məni Akademik Dram Teatrına Nodar Dumbadzenin "Darıxma, ana" əsərini hazırlamağa dəvət etdilər. Bu əsər çox böyük uğur qazandı. 27 mart 1972-ci ildə keçirilən ilk tamaşaya o zamankı respublika rəhbəri, ümummilli liderimiz Heydər Əliyev də gəldi. Tamaşanı bəyənib mənə xeyir-dua verdi. Tamaşa haqqında müsbət resenziya verməyən qəzet qalmadı, neçə dəfə televiziya ilə göstərdilər. Bu tamaşadan sonra məni Opera və Balet Teatrına rejissor təyin etdilər. Orada ilk işim Şəfiqə Axundovanın "Gəlin qayası" operası oldu. O tamaşa on il səhnədən düşmədi. Mən opera tamaşalarına dram teatrının aktyor oyunu incəlikləri gətirməyə çalışırdım. Arada il yarım da Musiqili Komediya Teatrında bədii rəhbər işləyəndən sonra məni çox ürəyimdən olan Gənc Tamaşaçılar Teatrına baş rejissor dəvət elədilər. Burada da ilk işim olan "Rüstəm və Söhrab" tamaşası uğurlu alındı.

Sonralar burada "Komsomol poeması", "Hacı Qəmbər" kimi tamaşalarımız şöhrət qazandı. 1979-cu ildə Moskvada qastrolda olduq. Qayıdandan sonra teatr təmirə bağlandı. Yaradıcılığının ən coşqun dövründə boş dayanmamaq üçün Akademik Dram Teatrına keçirilməyimi xahiş etdim. Burada bir-birinin ardınca "Büllur sarayda", "Çahargah fantaziyası", "Od gəlini", "Vaqif" (bərpa), "Gülüstanda qətl" tamaşalarını hazırladım. 1985-ci ildə mənə Əməkdar incəsənət xadimi adı verildi.

1990-cı ildə yenidən Gənc Tamaşaçılar Teatrına qayıtdım və ilk olaraq dövrün ən aktual, ağrılı mövzusunda Bəxtiyar Vahabzadənin "Şəhidlər" əsərini tamaşaya qoydum. Modem bir quruluş idi. Kino lentlərindən, sənədli fotoşəkillərdən istifadə ilə publisistik ruhlu bir tamaşa yaratmışdım. Sovet hakimiyyəti hələ dururdu, ancaq biz Moskvanı, Qorbaçovu çox kəskinliklə ifşa edirdik.

## *"HEYDƏR ƏLİYEVİN XATİRƏSİ QARŞISINDA MƏNƏVİ BORCUM VAR"*

***– Ağakişi müəllim, necə oldu ki, yenidən Akademik Milli Dram Teatrına qayıtdınız?***

– On il Gənc Tamaşaçılar Teatrında baş rejissor işləyəndən sonra yeni yaradıcılıq atmosferi axtarışı ilə yenə Milli Dram Teatrına üz tutdum. B.Vahabzadənin "Özümüzü kəsən qılınc" əsərini hazırlamağı müəllifin öz istəyi ilə mənə həvalə etdilər. Ümummilli liderimiz Heydər Əli-

yev tamaşanı çox bəyəndi. Bu əsərlə Türkiyədə böyük qastrol səfərində olduq, neçə-neçə şəhərdə tamaşa verdik.

2000-ci ildə mərhum Prezidentimiz məni Xalq artisti fəxri adına, 2003-cü ildə Prezident təqaüdünə layiq gördü. Mən özümü onun xatirəsi qarşısında borclu bilirəm. İstəyirəm ki, onun haqqında bənzərsiz, möhtəşəm bir tamaşa hazırlayam. Bu fikir məndə bu ilin yanvarında "Gülüstan" sarayında "Böyük xilaskar" kitabının təqdimat mərasimində yarandı. Bu tamaşa Azərbaycan xalqının milli müstəqillik uğrunda mübarizə tarixinin fonunda Heydər Əliyevin titanik fəaliyyətini əks etdirməlidir. Onun həyatı və müstəqil dövlət quruculuğu uğrunda mübarizəsi Şekspir qələminə layiq dramatizmlə, qəhrəmanlıq motivləri ilə zəngindir. Təəssüf ki, bu fəaliyyəti əks etdirən dram əsəri hələ yazılmayıb. Hazırda dramaturq Aqşin Babayevlə birlikdə Heydər Əliyevin həyat və fəaliyyətini əhatə edən sənədlər əsasmda belə bir dramaturji kompozisiya üçün materiallar toplamaqla məşğuluq. Tamaşanı hazırlamaq üçün Almaniyanın paytaxtı Berlin şəhərində fəaliyyət göstərən türk teatrı ilə və bu ölkədəki səfirliyimizlə ilkin razılığa da gəlmişəm.

***– Nə üçün məhz Almaniyada?***

– Heydər Əliyevin şəxsiyyəti, fəaliyyəti cahanşümul xarakter daşıyan bir hadisədir və bu cür də göstərilməlidir. O tamaşanı burada, Milli Dram Teatrında da hazırlamaq olar. Ancaq mən istəyirəm ki, bu tamaşa qəhrə-

manımızın şəxsiyyətinin masştabına uyğun qlobal bir hadisəyə çevrilsin Buna görə də Avropanın mərkəzini seçmişəm. Yalnız bu yolla öz mənəvi borcumu ödəyə bilərəm.

Digər tərəfdən, mən Almaniya teatr mühitinə yaxşı bələdəm, onlarla iş təcrübəm var. Almaniyada iki tamaşa hazırlamışam: Düsseldorfda "Arşın mal alan"ı, Kölndə B.Vahabzadənin "İkinci səs" pyesini. Gələn ilin mart ayında məşqlərə başlamağı mayın 10-da böyük rəhbərin ad günündə isə Berlində ilk tamaşanı göstərməyi planlaşdırırıq. Bu tamaşada ən müasir teatr vasitələrindən, ən modem imkanlardan istifadə etmək niyyətindəyəm. O dahi insanın adına layiq bir iş görə bilsək, özümü xoşbəxt sanaram.

***– Ağakişi müəllim, gələcək planlarınız çox böyükdür, bəs indi nə üzərində işləyirsiniz?***

– Bir neçə gün əvvəl B.Vahabzadənin "İçimizdəki mən" adlı lirik dramınm məşqinə başlamışam. Payızda görkəmli şair-dramaturqumuzun 80 illiyi qeyd olunacaq. Bu tamaşanı Bəxtiyar müəllimin yubileyinə hədiyyə etmək istəyirik.

***– Deyirlər ki, hər aktyor ömrü boyu ürəyində hansısa bir rolun sevgisini yaşadır. Siz necə, bir rejissor kimi istəyində olduğunuz, tamaşaya qoymağı arzuladığımz əsər varmı?***

– Dünya dramaturgiyasında bir neçə əsər var ki, həmişə onları tamaşaya qoymağın arzusu ilə yaşamışam.

Qəribədir, dediyim əsərlərdən ikisi üzərində vaxtilə işə də başlamışam, ancaq məndən asılı olmayan səbəblərdən tamamlaya bilməmişəm. Bunlardan biri Norveç dramaturqu Henrik İbsenin "Kukla evi" pyesi, digəri isə ispan dramaturqu Lope de-Veqanm "Çoxbilmiş sevgilim" komediyasıdır. Bunlardan başqa, Molyerin "Tartüf", Şekspirin "Venetsiya taciri" əsərlərini tamaşaya qoymağı çox istəyərdim. Öz klassikamızdan Mirzə Fətəlinin "Hacı Qara" komediyasını çox orijinal bir şəkildə – məhz "Mərdixəsis" kimi görürəm. İmkan olsa, onun üzərində işləmək istərdim. Bir də C. Cabbarlının "Alınaz"ını müasir dövrün baxışları ilə yenidən oxumağı və hazırlamağı arzulayıram.

## *"Müəllim olmağı arzulamamışdım, ancaq oldum"*

***– Ağakişi müəllim, sizin yaradıcılıq tərcümeyi-halınızın bir qolunu da pedaqoji fəaliyyət təşkil edir. Bu sahəyə necə gəldiniz, sizi bu peşəyə bağlayan nə oldu?***

– Mən heç zaman müəllim olmaq arzusu ilə yaşamamışam. Hərçənd ki, rejissorluq təhsili almamışdan əvvəl Pedaqoji İnstitutun tarix fakliltəsində dördüncü kursa qədər oxumuşdum ...

Məni 1977-ci ildə İncəsənət İnstitutuna müəllim dəvət etdilər. Əvvəl rəhmətlik Mehdi Məmmədovun kafedrasında rejissorluq sənətindən dərs deyirdim. İllər ötdükcə addım-addım müəllimlik peşəsinin bütün pillələrini keç-

dim. İndi Mədəniyyət və İncəsənət Universitetinin Dram teatrı və kino aktyorluğu kafedrasının müdiriyəm.

Teatr təhsilinin əsas problemi odur ki, universiteti bitirən istedadlı gənc aktyorları təyinat bölgüsü ilə dövlət teatrlarında işlə təmin etmək mexanizmi yoxdur. Onlar, bir növ, taleyin ümidinə qalırlar və çox zaman sənət onları itirmiş olur. Tədris prosesinə gəlincə, burada obyektiv və subyektiv səbəblərdən törəyən problemlər, əlbəttə, var. Biz bu işi dövrün tələbləri səviyyəsində qurmaq üçün əlimizdən gələni etməyə çalışırıq.

***– Sizcə, konkret olaraq, nə iş görmək lazımdır?***

– Mən Rusiya, Fransa, Almaniya kimi qabaqcıl teatral ölkələrdə teatr təhsilinin sistemini, prinsiplərini məxsusi olaraq öyrənmişəm. Dünya təcrübəsi aktyor hazırlığında daha çox praktikaya üstünlük verir. Biz isə indiyə qədər ənənəvi olaraq daha çox nəzəri hazırlığa əsaslanırıq. İndi biz aktyor hazırlığında dünya standartlarına uyğun gələn yeni proqram hazırlamışıq. Aktyorluq təhsili alan tələbələr bundan sonra dörd ildə yalnız bir tamaşa – diplom tamaşası deyil, dörd tamaşa – hər kursda bir tamaşa hazırlayacaqlar.

Bu il tələbələrlə hazırladığım tamaşaları öz tədris teatrımızdan başqa, ölkəmizin digər universitetlərində də göstərmişik. Bu ünsiyyət gələcək aktyorlar üçün çox faydalı bir təcrübədir.

Proqram belə qurulub ki, tələbə-aktyor birinci kursda ilk ibtidai addımları, ikinci kursda təklif olunan şəraitdə

obraza girməyi, üçüncü kursda xarakteri açmağı, dördüncü kursda rolda başqalaşmağı mənimsəməlidir. Bunları bacarmasa, ona aktyor diplomu vermək olmaz.

Bunlardan başqa, yeni proqramda gənc aktyorların kino və televiziya çəkilişlərinə hazırlanması da nəzərdə tutulur.

Müəllimlik peşəsinə bağlanmağıma gəlincə, bircə detalı xatırlatmaq istəyirəm. Tələbə çox həssas olur. Sevgini də, biganəliyi də dərhal duyub, qarşılıqlı cavab verir. Bu il dərs dediyim qrupu başqa müəllimə vermək istədim. Uşaqlar razı olmadılar, hətta kövrəldilər. Dedilər ki, siz bizim mənəvi atamızsınız. Onda hiss elədim ki, hə, deyəsən, müəllim olmuşam. Müəllim olmağımı həm də ondan hiss edirəm ki, indi mən yalnız tələbələrimi öyrətmirəm, həm də onlardan öyrənirəm. Onlar mənə cavanlıq, yenilik, axtarış enerjisi verirlər.

***– 70 yaşın zirvəsini haqlamış “qocaman ” bir sənətçi kimi gənc həmkarlarınıza nə demək istərdiniz?***

– Əvvəl özümə nə arzuladığımı deyim: Arzulayıram ki, bu 70 ildə namusla qazandığım adı, hörməti qoruya bilim, itirməyim.

Gənclərə isə nəsihətim budur ki, sənətdən sevgi görmək istəyirlərsə, sədaqət görmək istəyirlərsə, sədaqətli olsunlar. Xəyanət etsələr, xəyanətlə üzləşəcəklər. Bir də onlara aktyor üçün zəruri sayılan üç şeyi arzulayıram: dözüm, istedad, tale. Nəhayət, onu demək istəyirəm ki, kol-

lektivdə qazandığınız dostluğu, hörməti alqışlara, şan-şöhrətə qurban verməyin.

***– Ağakişi müəllim, söhbətimizin sonunda sizi yubileyiniz münasibətilə qəzetimiz və oxucularımız adından bir daha təbrik edir, sizə cansağlığı, yeni-yeni sənət uğurları arzulayırıq*.**

– Çox sağ olun, minnətdaram. Bizim bütün işimiz, sənətimiz sizin üçün – tamaşaçılarımız üçündür. Siz sağ olun ki, bizi yaddan çıxarmırsınız.

***"Xalq qəzeti", 19.06.2005***

## "ÜZEYİR BƏY BİZƏ HƏMİŞƏ LAZIMDIR"

**Müsahibimiz Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin birinci katibi, Xalq artisti, professor Vasif Adıgözəlovdur.**

***– Vasif müəllim, Üzeyir Hacıbəyovun ümumən mədəniyyətimiz, o cümlədən də musiqi sənəti qarşısındakı misilsiz xidmətlərindən danışmaqla bitən deyil. Ən əsası odur ki, Üzeyir bəy Azərbaycan bəstəkarlıq məktəbini yaratmış, tarixən qısa bir zamanda dünya səviyyəli musiqi əsərlərinin meydana gəlməsini təmin edən ənənələrin təməlini qoymuşdur. Müasir Azərbaycan bəstəkarları Üzeyir bəyin bu ənənələrini necə davam etdirirlər?***

– Mən belə təsəvvür edirəm ki, Üzeyir Hacıbəyov Ulu Yaradanın xalqımıza, ölkəmizə bəxş etdiyi bir möcüzədir. Vətəninə, millətinə xidmət üçün lazım olan keyfiyyətlərin heç birini Allah ondan əsirgəməyib.

Bir musiqiçi, bəstəkar kimi sənət tariximizdə Üzeyir Hacıbəyovun elə bir möhtəşəm yeri var ki, heç kimi onunla müqayisə etmək olmaz. Azərbaycan bəstəkarlıq məktə-

bi bugünkü uğurlarına görə Üzeyir bəyə borcludur. Bütün bəstəkarlarımız onun davamçılarıdır. Əgər Üzeyir bəy olmasaydı, Azərbaycan musiqi sənətinin bu gün dünyaya səs salan uğurları da olmazdı. Bəstəkarlarımızın bir qismi bilavasitə Üzeyir bəyin öz tələbələri olmuşlar, sonra bu yolu onların tələbələri davam etdirmişdir. Ancaq onun bəstəkarlıq məktəbi təkcə bununla məhdudlaşmır. Konservatoriyamızı yaradarkən Üzeyir bəy keçmiş SSRİ-nin bütün nüfuzlu musiqi mərkəzlərindən ən görkəmli pedaqoqları Bakıya dəvət etmişdi. Onlar özləri müxtəlif millətlərin nümayəndələri olsalar da, yetirdikləri sənətkarlar mahiyyətcə məhz milli Azərbaycan məktəbinin, Üzeyir Hacıbəyov məktəbinin təmsilçiləridir. Fikrimi əsaslandırmaq üçün bircə misal çəkmək istəyirəm. Milliyyətcə yəhudi olan Boris İsaakoviç Zeydman Bakıya rus mədəniyyətinin əsas mərkəzlərindən olan Leninqraddan gəlmişdi. Onun yetirdiyi tələbələr sırasında Azərbaycan bəstəkarlıq məktəbinin Fikrət Əmirov, Soltan Hacıbəyov, Cahangir Cahangirov, Azər Rzayev, Ramiz Mustafayev, Süleyman Ələsgərov kimi görkəmli, milli koloriti ilə seçilən nümayəndələri vardır.

Üzeyir Hacıbəyovun tarixi sima kimi möhtəşəmliyinin əsas bir cəhəti də onun bir insan, şəxsiyyət kimi böyüklüyündədir. Sadəlik, alicənablıq, səmimilik, səxavət onun ən bariz insani keyfiyyətləri idi.

Üzeyir bəy elə möhkəm, qüdrətli bir təməl qoymuşdu ki, onun üzərində bugünkü əzəmətli Azərbaycan peşəkar musiqi sənəti ucaldı.

Üzeyir Hacıbəyovun 120 illik yubileyinin bu cür təntənə ilə keçirilməsi böyük sənət bayramıdır. Biz, əlbəttə, ümummilli liderimiz Heydər Əliyevin xatirəsini minnətdarlıqla yad edirik ki, o, Üzeyir bəyin doğum gününü – 18 sentyabrı rəsmi olaraq Musiqi Günü elan etmişdir. İndi möhtərəm Prezidentimiz İlham Əliyev də bu yolu davam etdirərək Üzeyir Hacıbəyovun yubileyinin qeyd olunması barədə xüsusi sərəncam vermişdir. Deməк lazımdır ki, bu istiqamətdə böyük işlər görülür.

***– Vasif müəllim, necə bilirsiniz, sizin də görkəmli təmsilçilərindən biri olduğunuz musiqiçilərimizin indiki nəsli, eləcə də gənclər Üzeyir bəyin sənət yoluna sədaqəti qoruyub saxlaya bilirlərmi?***

– Mən xoşbəxtəm ki, özümü sənətdə onun nəvəsi hesab edə bilərəm. Tarix, zaman bir şeyi dönmədən sübut edir ki, xalq ruhu ilə bağlı olmayan sənət yaşarı ola bilmir. Bu mənada Üzeyir bəyin sənət yolu haqq yoludur. Buna görə də həqiqi sənətə xidmət etmək üçün Üzeyir bəyin davamçısı olmaq lazımdır. Onu təqlid etmək lazım deyil, bu, heç mümkün də deyil, ancaq onun sənət prinsiplərini davam etdirən bəstəkar həmişə xalqın qəlbində özünə yer tapa biləcəkdir.

***– "Üzeyir bəyin sənət prinsipləri" dedikdə, siz nəyi nəzərdə tutursunuz? Nədir bu prinsiplər?***

– İlk növbədə millilik və xəlqilik. Xalq musiqisi ilə, muğamlarımızla bağlılıq. Mən Üzeyir sənətinin sirri barədə çox düşünmüşəm, bu sirri açmağa çalışmışam. Gəldiyim qənaət budur ki, onun digər bir mühüm prinsipi sadəlikdir. Primitivlik yox, mükəmməllik mənasında sadəlik. Sənət əsərini, xüsusən də musiqini süni surətdə mürəkkəbləşdirmək, daha doğrusu, qəlizləşdirmək düzgün yol deyil, qəbahətdir.

Üzeyir bəyin musiqisi insana müsbət enerji, müsbət emosiya verən, onu yaşayıb yaratmağa, saflığa, ülviliyə, qəhrəmanlığa səsləyən, ona həyat eşqi aşılayan bir musiqidir. Bugünkü gündə bu musiqi bizə, xalqımıza çox lazımdır.

Gənclik axtarış həvəsi deməkdir. Gənc yaşlarında hər bir sənətkarın, o cümlədən də bəstəkarın axtarışlara üz tutması, yaradıcılıq istedadını müxtəlif yollarda sınaması təbiidir, ancaq insan və sənətkar kimi kamilləşdikcə hər kəs ilkin başlanğıca, təbii yola, kökə, ənənəyə qayıdır. Bu mənada Azərbaycan bəstəkarlıq məktəbində Üzeyir ənənələrinin gələcəyi narahatlıq doğurmamalıdır.

***– Bugünkü gündə Ü.Hacıbəyov sənətinin təbliği sizi tam qane edirmi?***

**– Üzeyir bəyi yalnız yubileydən-yubileyə yox, hər gün yad etmək, ona hər an müraciət etmək gərəkdir.**

**Bu, millətimizin, xüsusən də gənclərimizin mənəvi tərbiyəsi, ruhi sağlamlığı üçün zəruridir. Əslində, Uzeyir musiqisini təbliğ etmək heç lazım da deyil. Sadəcə olaraq, bu musiqini səsləndirmək lazımdır. O özü ürəklərə yol tapacaqdır.**

**Televiziya və radio kanalları özləri üçün şərəf bilməlidirlər ki, onların dalğalarında hər gün Üzeyir bəyin musiqisi səslənsin. Onun bütün əsərlərinin ən müasir texnologiyalarla hazırlanmış disklərini buraxmaq, "Koroğlu"nu film-opera şəklində ekranlaşdırmaq bir vəzifə kimi qarşıda durur. Üzeyir sənətinin musiqi, teatr və kino festivallarını keçirmək, elmi, bədii və publisistik irsinin öyrənilməsinə həsr olunmuş elmi konfrans və simpoziumlar, onun həyat və yaradıcılığını əks etdirən rəssamlıq sərgiləri, ayrı-ayrı janrlar üzrə əsərlərinin ifasına həsr olunmuş konsertlər təşkil etmək lazımdır. Həm də bu tədbirləri il boyu, Vətənimizin müxtəlif guşələrində keçirmək, kütləvi informasiya vasitələrində geniş işıqlandırmaq lazımdır ki, Üzeyir bəy həmişə bizimlə olsun. Üzeyir bəy bizə həmişə lazımdır. Çünki o, həmişə bizim müasirimizdir.**

***"Xalq qəzeti", 18.09.2005***

# DÜNYAYA VƏ ZAMANA SIĞMAYAN SƏS

**Sənət tarixində elə parlaq şəxsiyyətlər var ki, hər şeyə qadir olan zamanın hökmünə baş əyməyərək öz ölməz dühaları ilə qərinələrin, əsrlərin başı üstündən adlayır, bütün dövrlərdə insanların çağdaşı, müasiri olurlar. Azərbaycanın sənət salnaməsinə adı qızıl hərf-lərlə yazılmış ölməz sənətkarımız Rəşid Behbudov da belə insanlardandır. Onun yaradıcı şəxsiyyətinin miq-yası təkcə bu dünyadakı cismani ömrünün hüdudları ilə məhdudlaşmır, vəfatından illər keçsə də, onun əbə-diyaşar yaradıcılığı xalqımızın sənət idealı kimi bizim-lə birgə gələcək zamanlara doğru addımlayır.**

Rəşid Behbudovun adı sağlığında xalqının və dövrü-nün simvoluna çevrilmişdi, onsuz keçən illər də bu ucalı-ğı, bu ülviliyi azaltmır, əksinə, "dahilər uzaqdan daha yax-şı görünür" qənaətini bir daha təsdiq edir. Onun unikal sə-si və nadir istedadı xalqımızın gen yaddaşına daxil olmuş,

Füzulinin şeiri, Üzeyirin musiqisi kimi mənəvi dünyamızın silinməz atributuna çevrilmişdir.

O, yüksək istedad və qeyri-adi ustalıqla ifa etdiyi hər bir mahnının, sadəcə olaraq, sözlərini və melodiyasını ifadə etməyi deyil, dərin mənəvi və fəlsəfı məzmununu açmağı, mənasının ən incə məqamlarını tamaşaçıya, dinləyiciyə çatdırmağı bacarırdı. Onun ifasında hər bir musiqi nömrəsi bir tamaşaya, səslə vizual obrazın üzvi vəhdətinə çevrilirdi. Təsadüfi deyildir ki, Rəşid Behbudov bütün dünyada analoqu olmayan yeni ifaçılıq formasının – Mahnı Teatrının yaradıcısı olmuşdu. **Yalnız indi – illər keçəndən sonra Qərb ifaçılıq sənətində yaranan yeni bir forma - mahnıların klip (mini-film) formasında təqdimi meydana çıxandan sonra bizə aydın olur ki, Rəşid Behbudov hər bir mahnını mini-tamaşa formasında təqdim etmək ideyası ilə zəmanəsini və dünya ifaçılıq sənətinin inkişaf tendensiyalarını 30-40 il qabaqlayırmış.**

Təbiət Rəşid Behbudova təkrarsız, bənzərsiz bir səs bəxş etmişdi. Ancaq o, təbiətin və taleyin bu qisməti ilə kifayətlənmir, ən çətin melodiyanı belə bircə dəfə dinləməklə yadda saxlamaq kimi fenomenal bir qabiliyyətə malik olsa da, yaradıcılıq axtarışlarından, hər mahnının üzərində aylarla işləmək vərdişindən yorulmur, usanmırdı. Bu böyük istedadın, böyük tələbkarlığın və zəhmətsevərliyin nəticəsi idi ki, Rəşid Behbudov hər hansı bir mahnını ifa edirdisə, deməli, janrından, üslubundan, xalq, yaxud bəstəkar mahnısı olmasından, hansı xalqa məxsus olma-

sından və hətta hansı dildə səslənməsindən asılı olmayaraq, həmin mahnının ən yaxşı ifaçısı olurdu. Çox nadir mahnılar var ki, onun başqa bir müğənninin ifasında səslənməsini Rəşidin ifası ilə müqayisə etmək mümkün olsun. Bu halda da söhbət yalnız Bülbül, Şövkət Ələkbərova, Müslüm Maqomayev kimi böyük sənətkarlardan gedə bilər. Başqa müğənnilər Rəşid Behbudovun ifasında səslənmiş mahnılara hələm-hələm yaxın düşə bilmirlər. Onlar yaxşı başa düşürlər ki, Rəşidin ifaçılıqda fəth etdiyi zirvəni nəinki ötmək, nəinki təkrarlamaq, hətta ona yaxınlaşmaq belə əlçatmaz bir arzudur, çünki o cür istedad yüz ildə bir dəfə belə təkrar olunmur. Rəşidin oxuduğu mahnıları ifa etməyə cəhd edənlər belə onun ifa tərzinin təsir qüvvəsindən çıxa bilmirlər, nəticədə böyük sənətkarın ifaçılıq tapıntılarının solğun təqlidindən uzağa gedə bilməyən təkrarlar meydana çıxır.

Rəşid Behbudov müxtəlif janr və üslublarda yazılmış bəstəkar mahnı və romanslarından, klassik vokal nümunələri və opera ariyalarından başqa, Azərbaycan xalq mahnılarının da misilsiz ifaçısı idi. Xalq musiqisi xəzinəsinə qəlbən bağlılıq ona dövrünün görkəmli xanəndəsi olmuş atası Məcid Behbudovdan irsən keçmişdi. Öz ifaçılığında klassik xanəndəlik sənətinin kanonlarına formal olaraq riayət etməsə də, Rəşid Behbudov qədim xalq mahnılarını müasir ifaçılıq üslubunda təfsir edərək, onların musiqi dilinin ən dərin qatlarında gizlənmiş incəlikləri, məna çalarlarını üzə çıxararaq bu mahnılara yeni ruh, yeni nəfəs,

yeni həyat verirdi. Onun ifasında " Aman ovçu", " Ağacda leylək", "Gözəlim sənsən", "Küçələrə su səpmişəm", "Ay nənə", "Ləbi-ləb", "Qalalı", "Evləri var xana-xana", "Ay laçın" kimi xalq mahnılarının həp biri insan qəlbinin ən həzin duyğularını əks etdirən sehrli bir avaz kimi səslənirdi. Xalqımızın əsrlərdən bəri mənəvi sərvət kimi qoruyub yaşatdığı, nəsildən nəslə ötürdüyü bu nəğmələri Rəşid Behbudov dünyanın neçə-neçə ölkəsinin ən möhtəşəm səhnələrindən səsləndirərək dünya xalqlarına da sevdirə bilmişdi. Rəşidin ifasında xalq musiqisinin bu cür məhrəm və doğma səslənməsinin bir sirri də müğənninin öz ifasında ana dilimizin bütün səslənmə və ifadə imkanlarını maksimal bir gözəlliklə əks etdirə bilməsində idi. Rəşid Behbudovun təkcə səsi yox, həm də danışıq ləhcəsi ana dilimizin ən gözəl, ən şirin nümunələrindən biri idi. Onun ifasında səslənən xalq mahnıları xalqa məxsus olduğu qədər də Rəşidin öz halalca malı idi. Rəşid oxuduğu bəstəkar mahnıları kimi, xalq mahnılarının da ikinci müəllifinə çevrilməyi bacarırdı.

Rəşid Behbudovun xalq musiqisi ifaçılığı barədə düşünərkən bircə şeyə təəssüf etməli olursan ki, o, oxuduqlarından əlavə, daha bir neçə xalq mahnısını –"Qaragilə", "Sarı gəlin", "Sona bülbüllər", "Qara tellər", "Ay bəri bax", "Bağçada güllər", "Yar bizə qonaq gələcək" kimi xalq mahnılarını da ifa edərək onlara öz etalon möhürünü vurmayıb. Yaxud bir neçə xalq mahnısında kiçicik muğam gəzişmələri səsləndirməklə kifayətlənərək muğam ifaçılı-

ğının dərinliklərinə baş vurmayıb. Halbuki, onunla işləmiş sənətkarların söylədiklərinə görə, muğamata çox yaxşı bələd imiş.

**Rəşid Behbudovun ifaçılıq mədəniyyətindən bir cəhəti də vurğulamağı vacib bilirəm: Gənclik illərindən başlayaraq Rəşidin ömür sürdüyü ailə, sənət və ictimai mühit əsasən rusdilli olub. Ancaq buna baxmayaraq, bütün sahələrdə milli ruhunu, varlığını qoruduğu kimi, ümumən Azərbaycan cəmiyyətində ana dilimizdə ən təmiz, ən şirin danışanlardan, ən başlıcası isə oxuyanlardan (!) biri idi. Onun ifasına qulaq asarkən nəinki hər sözü, hətta hər səsi açıq-aydın eşitmək mümkündür.**

Rəşid Behbudovun müğənnilik istedadı yalnız mahnı ifaçılığı ilə məhdudlaşmırdı. Hələ 30-cu illərin ortalarında gənc yaşlarında o, Tbilisidə tanınmış gürcü vokalçısı D.Anquladzedən dərs almış, Tbilisi Opera və Balet Teatrının xoruna qəbul edilmişdi. Sonralar peşəkar ifaçılığını əvvəl caz, sonra isə estrada sənəti ilə bağlasa da, repertuarında klassik vokal nümunələrinə – romans və ariyalara da həmişə yer ayırmışdı.

Bu yerdə maraqlı bir məqamı xatırlatmaq yerinə düşər: 1945-ci ildə ekranlara çıxmış “Arşın mal alan” filmində Rəşidin ifasında Əsgər obrazının fantastik müvəffəqiyyətindən sonra 1947-ci ildə Üzeyir bəy ona Azərbaycan Dövlət Opera və Balet Teatrında tamaşaya hazırlanması planlaşdırılan “Koroğlu” operasının rusca versiyasın-

da baş volun ifasını təklif edir. Məşqlər başlanır, amma Üzeyir bəyin vəfatından sonra bu layihə yarımçıq qalır. Beləliklə, Rəşid Behbudovun sənət bioqrafıyasında mümkün ola biləcək son dərəcə maraqlı bir hadisə baş tutmur. Rəşid Behbudovun ifasında Koroğlu partiyası iki dahi sənətkarın – Bülbüllə Rəşidin sənət karyerasında qeyri-adi bir kəsişmə nöqtəsinin meydana çıxmasına səbəb olardı. Bu cür "rəqabət", sözsüz ki, Azərbaycan vokal sənətinin sonrakı inkişafı üçün güclü bir stimul ola bilərdi. Rəşidin Koroğlunu oynamaq planı baş tutmasa da, bu partiya üzərində işindən unikal bir lent yazısı Koroğlu ariyasınm rus dilində lent yazısı yadigar qaldı.

Bülbüllə sənət "yarışmasına" gəlincə, onların hər ikisinin oxumuş olduğu bir neçə bəstəkar və xalq mahnısı vardır. Hətta "Bəxtiyar" fılmində Rəşid Bülbülün şah nömrələrindən birini – "Sevgili canan" romansını da oxuyur. Ancaq maraqlıdır ki, bu ifaların heç birində Rəşid Bülbülü təkrar etmir, ondan tamam fərqlənən, amma səviyyə və dəyərcə ondan geri qalmayan öz ifa tərzini yaradır. Ümumiyyətlə, bu iki dahi sənətəkarın yaradıcılıq münasibətlərində çox maraqlı bir cəhət var: Rəşid Behbudov peşəkar səhnəyə gələndə Bülbül ifaçılıq sənətinin və xalq sevgisinin zirvəsində qərar tutmuşdu. Onların səs tembri və repertuarı da müəyyən mənada üst-üstə düşürdü. İncəsənətin belə bir yazılmamış qanunu var: sənətə təzə gələn gənc sənətçilər adətən həmin dövrün aparıcı ustad sənətkarının yolunu tutur, heç olmasa bir müddət hətta onu

yamsılayırlar da. Qəribədir ki, Rəşid Behbudov sənətdə ilk addımlarını atan gündən nəinki Bülbülü yamsılamadı, hətta tamam yeni bir ifa tərzi yaradaraq yeni bir yol aça bildi.

"Koroğlu"nu rus dilində oynamaq ideyasına Üzeyir bəyin vəfatından sonra bir daha qayıdan olmasa da, tale Rəşidə opera səhnəsində öz rolunu oynamaq, öz sözünü demək imkanı verdi. 50-ci illərin ortalarında Fikrət Əmirovun "Sevil" operasında Balaş partiyasının misilsiz ifası Rəşid Behbudovun kinoaktyor və estrada ifaçısı şöhrətinin üstünə opera müğənnisi şöhrətini də gətirdi. 1960-cı ildə Moskvada Bolşoy Teatrın səhnəsində bu rolun ifasından sonra Rəşid Behbudova SSRİ xalq artisti adı verildi.

Həmin il Rəşid Behbudov həm də operetta səhnəsində Rauf Hacıyevin "Romeo mənim qonşumdur" əsərində baş rolda çıxış edir. Bu tamaşadan da estrada sənətimizə dillər əzbəri olan "Sevgilim" mahnısı yadigar qalır. Ümumiyyətlə, **Rəşid Behbudov ifaçılığından yadigar qalan mahnılardan bəzilərinin qəribə taleyi var. Məsələn, Tofiq Quliyevin "Bəxtiyar" filminə bəstələdiyi "Zibeydə" mahnısı. Filmin məzmununa görə, Bəxtiyar fırıldaqçı və möhtəkir Ağabalanın təsiri altına düşür və bir müddət həqiqi sənət yolundan yayınaraq xalturaçılıqla məşğul olur. Onun xalturaçı kimi ifa etdiyi mahnılardan biri də "Zibeydə"dir. Lakin iki böyük sənətkarın – Tofiq Quliyevlə Rəşid Behbudovun yaradıcılıq qübrəti**

**bu "pis mahnı"nı estrada musiqimizin şedevrlərindən birinə çevirmişdir.**

Rəşid Behbudovun sənəti Azərbaycanın və o zamankı Sovetlər İttifaqının sərhədləri çərçivəsində qapanıb qalmır. Dünyanın neçə-neçə ölkəsində nümayiş etdiriləRək baş rolun ifaçısına görünməmiş şöhrət gətirən "Arşın mal alan" filminin ardınca sənətkar özü də canlı konsertlərlə dünyanı dolaşır, xalqının sənətinə və Vətəninin adına dünya şöhrəti qazandırır. "Dəmir pərdə" arxasında yaşayan Sovet İttifaqının heç bir sənətçisi Rəşid Behbudov qədər çoxsaylı ölkələrdə konsertlər verməmişdi. O, dünyanın ən böyük şəhərlərinin ən möhtəşəm konsert salonlarında təkcə öz yurdunun nəğmələrini səsləndirmir, həm də qonağı olduğu xalqların mahnılarını ifa etməklə dinləyicilərin qəlbinə yol tapırdı. İranda qostrolda olarkən **Cənubi Azərbaycanın görkəmli bəstəkarı Əli Səlimi yenicə bəstələdiyi "Ayrılıq" mahnısını böyük müğənniyə təqdim etmiş və Azərbaycan xalqının həsrətli taleyinin rəmzinə cevrilmiş bu mahnı ilk dəfə Rəşid Behbudovun ifasında səslənərək Arazın hər iki sahilində insanların qəlbinə yol tapmışdı. Ümumilikdə, Rəşid Behbudov dünyanın yüzə yaxın ölkəsində çıxış etmiş, yetmişə yaxın dildə mahnılar oxumuşdur.**

Onun şöhrətinin zirvəsi isə 1980-ci ilin 15 mayında böyük müasiri və dostu Heydər Əliyevin əlindən Sosialist Əməyi Qəhrəmanının qızıl ulduz medalını alması olmuşdu. SSRİ-də musiqi ifaçıları sırasında ondan əvvəl bu

mükafata yalnız Bolşoy Teatrın qocaman solisti İvan Kozlovski layiq görülmüşdü.

**SSRİ-nin Rusiyadan sonra ikinci böyük respublikası olan Ukraynadan cəmi dörd nəfər incəsənət xadimi bu ada layiq görüldüyü halda, Heydər Əliyevin nüfüzu və əzmkarlığı sayəsində Azərbaycandan on sənətkar – yazıçılar Süleyman Rəhimov, Süleyman Rüstəm, Rəsul Rza, Mirzə İbrahimov, musiqiçilər Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Rəşid Behbudov, memar Mikayıl Hüseynov və rəssam Tahir Salahov bu yüksək fəxri ada layiq görülmüşdülər.**

Bu qüdrətli sənətkarların hər biri kimi Rəşid Behbudovun sənəti də ümumbəşəri ideyaları əks etdirməklə yanaşı, ilk növbədə öz xalqının, öz Vətəninin şan-şöhrətini ucaldır, Azərbaycan varlığının təsdiqinə xidmət edirdi. Dünyanın bir çox ölkələrində Azərbaycanı məhz Rəşid Behbudovun adı və sənəti ilə tanıyırdılar. Taleyin ömür payı Rəşidə müstəqil, azad Azərbaycanın nəğməkarı, tərənnümçüsü olmağa imkan vermədi. Ancaq onun misilsiz səsi, əvəzsiz sənəti bu gün də sərhədləri aşaraq Vətənimizin simvollarından biri kimi dünyanı dolaşır, zamanın başı üstündən gələcəyə pərvazlanır.

***"Xalq qəzeti", 14.12.2005***

# “SƏHNƏMİZƏ ŞƏXSİYYƏTLƏR GƏRƏKDİR”

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə görkəmii müğənni Mübariz Tağıyev Xalq artisti fəxri adına layiq görülmüşdür. Azərbaycan estrada ifaçılığı məktəbinin ən parlaq nümayəndələrindən biri olan Mübariz Tağıyevin 40 ilə yaxın davam edən səhnə fəaliyyətinə layiqli qiymət verən bu sərəncam dövlətimizin mədəniyyətə, incəsənət xadimlərinə diqqət və qayğısının daha bir təzahürüdür. Sevimli sənətkarımızı bu yüksək fəxri ad münasibətilə təbrik edir, ona daha böyük sənət sevincləri, yaradıcılıq uğurları arzulayırıq.**

## *“Erməni qəzetləri qələbəm barədə bir kəlmə də yazmadi”*

***– Mübariz müəllim, söhbətimizin əvvəlində sizi sənətə gətirən ömür yolu barədə məlumat vermənizi xahiş edirik. Necə oldu ki, məhz estrada ifaçılığı sənətini seç-***

***diniz, səhnədə ilk addımlarınızı, ilk uğurlarınızı necə xatırlayırsınız?***

– Mən indi əlimizdən getmiş qədim şəhərimiz İrəvanda, musiqiçi ailəsində doğulub böyümüşəm. Sənətdə ilk addımlarımı da orada atmışam. Atam Hüseyn kişi kamança ifaçısı idi. Gözümü açandan xalq musiqisi mühitinə düşmüşəm. Oxumağa həvəsim də çox erkən yaranıb. Ancaq səsimin tembri elə idi ki, muğamata, xalq havalarına o qədər də yatmırdı.

Mənim yeniyetməlik çağlarımda – 60-cı illərin əvvəllərində Avropadan gələn rok musiqisi təzə-təzə dəbə düşürdü. "Bitlz", "Rolinq-stounz" kimi ingilis rok qruplarının, Amerika müğənnisi Elvis Preslinin mahnıları gənclərin dilində əzbər idi. İrəvanda da ilk rok qrupları yaranmağa başlamışdı. Mən də əlimə düşən vallardan dünya estradası ulduzlarının mahnılarını öyrənib oxuyurdum. İrəvanda ilk rok musiqi müsabiqəsi keçirilirdi. Qonşumuzda bir saksafonçalan yaşayırdı. Mənim oxumağımı eşidib dedi ki, gəl səni hazırlaşdırım, müsabiqədə iştirak elə. Bu müsabiqə mənim səhnə həyatımın başlanğıcı oldu. Ciddi bir uğur qazanmasam da, bu sənətə ömürlük bağlandım.

***– Bəs peşəkar səhnəyə gəlişiniz necə oldu?***

– Müsabiqədən sonra rok həvəskarı olan gənclər arasında tanındım, qrupların birində oxumağa başladım. 1966-cı ildə orta məktəbi bitirib Ermənistanda Azərbaycan dilində təhsil verən yeganə ali məktəbə – Pedaqoji İnstituta daxil olmuşdum. Məşğul olduğum musiqi qrupu da pe-

şəkar bir səviyyəyə gəlib çatmışdı. 1971-ci ildə həmin qrupun tərkibində vokalçı solist kimi ilk peşəkar müsabiqədə iştirak etdim. Bu müsabiqənin məqsədi o zaman keçirilən Ümumittifaq müsabiqələrində iştirak etmək üçün istedadlı gəncləri aşkara çıxarmaq idi. Müsabiqədə çox uğurlu çıxış edərək qalib adını qazandım. "Sovet Ermənistanı" qəzetində haqqımda iri bir məqalə dərc olundu. Ancaq erməni dilində çıxan qəzetlər qələbəm haqqında bir kəlmə də yazmadılar.

Müsabiqədən sonra Ermənistanm bütün SSRİ-də tanınan Dövlət estrada orkestrinin rəhbəri Konstantin Orbelyan məni yanına çağırdı. O özü də çox məşhur bir musiqiçi idi. Mənə bir neçə mahnı oxutdu. İçərisində dünya estradasından nümunələr də vardı, erməni mahnıları da. Sonra dedi, ürəyin istəyən bir Azərbaycan mahnısı oxu. "Kərkük bayatıları" nı oxudum. Orbelyan əslən Bakıdan idi, Azərbaycan musiqisini yaxşı bilirdi. Dedi ki, səndə milli boğazlardan başqa nəsə ayrı bir şey də var. Səndən yaxşı estrada müğənnisi çıxar, sabahdan səni orekstrə işə götürürəm. Dedim, mən hələ institutda oxuyuram. Dedi, narahat olma, bütün problemlərini həll edəcəyəm. Beləliklə, 1971-ci ildən Ermənistan Dövlət estrada orkestrinin solisti oldum. Ancaq Orbelyan məni səhnəyə buraxmağa tələsmirdi. Düz bir il konsert proqramı üzərində işlədik.

**İlk dəfə məni Moskvanın məşhur "Rossiya" zalındakı konsert zamanı səhnəyə buraxdı. Əsl peşəkar səhnənin nə demək olduğunu ilk dəfə onda gördüm.**

**Sonra bu orkestrlə dünyanın çox ölkələrində oldum. İki ildə altı dəfə Amerikada olmuşduq. O zaman SSRİ-dən xaricə qastrolların təşkili çətin olsa da, bunlara erməni diasporu kömək edirdi. Diasporun güclü olduğu ölkələrdə, məsələn, Fransada lap tez-tez olurduq. Livanı, Suriyanı su yoluna döndərmişdik. Diaspor təşkilatlatının əksəriyyəti qatı millətçi partiyaların nəzarətində idi. Bir dəfə Orbelyan dedi ki, türk olmağın sənin üçün problem yarada bilər, gəl ad-familiyanı dəyişək. Razılıq vermədim.**

***– Bəs problem necə, yaranmadı?***

**– Erməninin içində türk olmaq elə ən böyük problem idi.** Bir dəfə Beyrutda konsert zamanı zaldan bir tamaşaçı söz atıb məni təhqir elədi. Cavab verməli oldum. Aləm qarışdı. Orbelyan işə qarışıb qanımın arasına girdi. Bir də ki, mən tək deyildim. Orkestrdə beş nəfər bakılı çalğıçı vardı. İkisinin anası erməni idi, dördü isə təmiz azərbaycanlı.

## *"Rəşid Behbudovla görüş mənim taleyimi dəyişdi"*

***– Sizin sənət ömrünüzün ən parlaq dövrü isə böyük sənətkarımız Rəşid Behbudovun rəhbərlik etdiyi kollektivlə bağlı olub.***

– Elədir. Rəşid Behbudovla görüş mənim təkcə sənət yolumu deyil, bütün taleyimi dəyişdi. 1973-cü ildə

Moskvada Rafiq Babayev məni Rəşid Behbudova təqdim etdi. Rəşid müəllim dedi ki, bu yolu mən də keçmişəm. Gec, ya tez vətənə gəlməlisən.

Sonra məni hərbi xidmətə çağırdılar, musiqiçi olduğuma görə Tiflisdə dairə xor kollektivinin tərkibinə saldılar. Bir az keçmiş daha çox estradaya həvəsli olduğumu görüb, başqa kollektivə keçirdilər. Gedib düşdüm Həştərxan vilayətinin Aktubinsk şəhərindəki hərbi təyyarəçilik məktəbinin vokal-instrumental ansamblına. Əsgərlik həyatım konsertlərdə keçdi. **Xidmətin axırına yaxın Rəşid Behbudovdan teleqram aldım. Məni Mahnı Teatrına işə dəvət edirdi. Hamını heyrətə salan teleqram qarnizonu əl-əl gəzdi. Adi bir əsgərə Rəşid Behbudov kimi bir adamdan teleqram gəlmişdi! Əsgərlikdən sonra birbaşa Bakıya gəldim.**

**Ona qədər elə hesab edirdim ki, dünyada tanınan peşəkar orkestrdə işləmişəm, neçə-neçə ölkələrdə çıxışlar etmişəm, sənətdə nəsə bilirəm, bacarıram. Rəşid Behbudovun Mahnı Teatrında işə başlayanda məlum oldu ki, sən demə, bunlar hamısı adicə bir başlanğıc imiş. Rəşid müəllim kollektivinə götürdüyü müğənniləri öz adına layiq yetişdirmək istəyir, hər şeyi nöqtə-vergüldən başlayaraq təzədən öyrədirdi.**

***– Rəşid kimi böyük bir sənətkarla yanaşı işləmək gənc müğənnilərin fərdiliyini sıxmırdı, əzmirdi ki?***

– Rəhmətlik Rafiq Babayev deyirdi ki, Rəşid Behbudovun yanında işləmək sənətçi və insan kimi sizin xoşbəxtliyinizdir. Çalışın, bu şansı əldən buraxmayın. Ondan müğənniliyin sirrini öyrənin.

Rəşid Behbudov xasiyyətcə asan adam deyildi, öz şıltaqlıqları, kaprizləri vardı, bəzən hövsələdən çıxırdı. Ancaq çox xeyirxah adam idi. Bizə təkcə oxumağın yox, ümumən artistliyin, səhnə həyatının sirlərini öyrədirdi.

**Rəşid üçün sənətkarlığın ən vacib meyarlarından biri xalqın sevgisini qazanmaq idi. Bizə də öyrədirdi ki, xalq sevgisi qazanmağın ən dürüst yolu xalqı, Vətəni sevməkdir. O, xalqa, onun ruhuna canı, qanı ilə bağlı idi. Azərbaycanı dəfələrlə kənd-kənd gəzmiş, konsertlər vermişdi. Heç bir şəraiti olmayan adi kənd klubunda da dünyanm ən möhtəşəm konsert salonunda oxuduğu şövqlə oxuyurdu.** İnsanlarm könlünə girməyi, ruhunu oxşamağı bacarır, bundan zövq alırdı. Xaricdə də hər yerdə Azərbaycanın adını ucaltmağı əsas vəzifə sayır, soydaşlarımız arasında birlik görməyəndə məyus olurdu.

Rəşid müəllimlə işləmək peşəkarlıq baxımından çox çətin, son dərəcə məsuliyyətli olsa da, bizi sıxmırdı. Çünki o, böyük sənətkar olmaqdan əlavə, böyük də şəxsiyyət idi. Öz dəyərini, qiymətini hamıdan yaxşı bilsə də, başqalarını əzmir, gənclərə sənətdə özlərini tapmaqda kömək edirdi. Oxumağın, səsi idarə etməyin, səhnə mədəniyyətinin ən yüksək etalonunu öz ifaçılığında göstərir, bizdən də çox ciddi şəkildə tələb edirdi. Ancaq bizi öz qəlibinə salmağa

çalışmırdı. Düzgün yolu öyrədir, qalan şeydə sərbəstlik verirdi.

**Rəşidin səsi və ifası əsl sənət möcüzəsi idi. Bir də görürdün, canlı konsertdə elə şeylər edirdi ki, tək bizi yox, Rafiq Babayev kimi böyük musiqiçini də heyrətə gətirirdi. Rəşid müəllim dünyanın neçə-neçə dilində mahnılar oxuyurdu. Təbii ki, bu dillərin heç birini bilmirdi, amma mətnin, diksiyan üstündə elə məsuliyyətlə, elə peşəkarlıqla işləyirdi ki, yerli tamaşaçılar onun bu dili bilmədiyinə inanmırdı.** Rəşid Behbudov zamanı qabaqlamağı bacaran bir sənətkar idi. Elə təkcə dünya estradasında analoqu olmayan mahnı teatrı, mahnını mini-tamaşa formasında təqdim etmək ideyasına gəlməsi bunun təsdiqi üçün kifayətdir.

## *“Rafiq Babayev Rəşid məktəbinin baş müəllimi idi”*

***– Mübariz müəllim, Mahnı Teatrında çalışmağın özünəməxsusluğu bir də onda idi ki, siz birdən-birə iki böyük sənətkarın – Rəşid Behbudovla yanaşı, həm də Rafiq Babayevin məktəbini keçirdiniz,.***

**– Rəşidin sənəti o qədər böyük idi ki, onun yanında başqa sənətkar öz məktəbini yarada bilməzdi. Rafiq Babayevin də böyüklüyü onda idi ki, ambisiyalara uymadan öz nadir istedadını bu böyük sənətin xidmətinə verməyi bacarırdı. Mahnı Teatrına gələndə ilk söhbə-**

**timizdə mənə demişdi ki, siz Rəşid Behbudovdan çox mənə lazımsınız. Doğrudan da, kollektivin işində əsas xətti, ideyanı Rəşid müəllim versə də, musiqiçilərlə praktik olaraq daha çox Rafiq Babayev işləyirdi. Belə demək mümkünsə, Rafiq Babayev Rəşid Behbudov məktəbinin baş müəllimi idi.**

Rafiq Babayev qeyri-adi, peyğəmbər xislətli bir insan idi. Yaxşılıq eləməkdən həzz alırdı. Ona pislik edənləri də öz yaxşılığı ilə bu yoldan döndərməyə çalışırdı. Mənim tanıdığım insanlar içərisində “ziyalı” sözü ən çox ona yaraşır. Çox geniş bilik dairəsinə və dünyagörüşünə malik idi. Həddindən artıq mədəni, həssas və mülayim bir insan idi Rafiq.

**Rəşid Behbudovla Rafiq Babayev xaraktercə fərqli adamlar idi. Sənətə baxışları da bəzən üst-üstə düşmürdü, ancaq işin xatirinə həmişə ümumi nəticəyə gəlməyi bacarırdılar. Rəşidin böyüklüyünü də, qədir-qiymətini də Rafiq hamıdan yaxşı bilirdi.**

***– Sizcə, bu iki böyük sənətkarın münasibətlərində əks təsirdən, yəni Rafiq Babayevin Rəşid Behbudova təsirindən danışmaq olarmı?***

**– Bilirsiniz, böyük sənətkar istedadsız, səviyyəsiz adamların əhatəsində yetişə, mövcud ola bilməz. Rəşid Behbudovun uzunmüddətli sənət bioqrafiyasının müəyyən bir mərhələsi də Rafiq Babayevlə bağlıdır və bu mənada, şübhəsiz ki, əks təsirdən danışmaq olar.**

**Fikrimi əsaslandırmaq üçün bircə misal deyim: Rəşid Behbudov "Arşın mal alan"dan Əsgərin ariyasını bütün ömrü boyu oxuyub. Ancaq fikir verin, Rafiq Babayevin müşayiəti ilə lentə yazılmış ifa digərlərindən nə qədər fərqlənir!**

**Musiqi nömrələri üzərində işləyərkən Rəşid müəllim Rafiq Babayevin fikrini dinləyər, rəyi ilə hesablaşardı. Onların sənət ünsiyyəti misilsiz bir harmoniya yaradırdı. Rafiq deyirdi ki, canlı konsretlər zamanı Rəşidin oxuması bəzən məni elə xallar, elə akkordlar vurmağa vadar edir ki, ayrı vaxt onları təkrar edə bilmirəm. Buna görə də son dövrlər Rafiq özünün konsertlərdəki çalğısını xüsusi olaraq lentə yazırdı.**

Orkestrin musiqiçilərilə işləyəndə də Rafıq həmişə deyirdi ki, alətləri "qışqırtmağa", "özünüzü göstərməyə" can atmayın. Rəşidin səsi qışqırtı sevmir. Ona kömək lazım deyil, bizim işimiz onun oxumağına mane olmamaqdır. Burada da Rafiqin xarakterinin böyüklüyü, fədakarlığı görünürdü.

Bu yaxınlarda onun 70 illiyini qeyd etdik. Mən Rafiqin həlak olduğu o müdhiş günü xatırladım. Onun cəsədini götürmək üçün morqa girmişdim, Diqqətimi cəlb edən bir detal bu günəcən yadımdan çıxmır. Metro qatarındakı partlayışdan həlak olanların hamısının ayaqları və bədənləri yanmışdı. Təkcə Rafiqin həm də əlləri yanmışdı. Görünür o dəhşətli anlarda da insanlara kömək etməyə çalışırmış... Bu barədə danışmaq mənimçün ağırdır. Bir dost

kimi də, bir insan kimi də mən Rafiqin xətrini lap çox istəyirdim.

## *“Estradamızdakı gənclərin ən böyük problemi məktəbsizlikdir”*

***– Mübariz müəllim, siz sənət fəaliyyətinizin son bir neçə ilini gənc istedadların aşkara çıxarılmasına, “Yeni ulduz” televiziya layihəsinə həsr etmisiniz. Bu müsabiqənin münsiflər heyətinin üzvü kimi öz vəzifənizi nədə görürsünüz?***

– Bu proyekt televiziya müsabiqəsidir, yəni qaliblərin seçilməsində son sözü münsiflər yox, tamaşaçılar deyir. Müsabiqənin vəzifəsi də, ilk növbədə, tamaşaçı zövqünü formalaşdırmaqdır. Zövq və səviyyə məsələsi isə bu gün bizim sənətimizin bir nömrəli problemidir. Bu problem eyni dərəcədə tamaşaçılara da, ifaçılara da, telekanallardakı musiqi verilişlərinin müəlliflərinə və aparıcılarına da aiddir. Şou hər yerdə ciddi sənəti üstələyir. Mən, əlbəttə, şounun əleyhinə deyiləm. Şou elementləri estrada sənətinin üzvi tərkib hissəsidir və ondan ötrüdür ki, nümayiş etdirilənlər tamaşaçı üçün darıxdırıcı olmasın. Ancaq, inanın mənə, səviyyəsizliyi şou effektləri ilə xilas etmək mümkün deyil, səviyyəli sənət isə heç zaman darıxdıncı olmur.

***– Şou tərəfdarları hesab edirlər ki, bu, zamanın nəbzini tutmaq üçün lazımdır.***

– Razıyam. Sənət həmişə dövrün, zamanın tələblərinə cavab verməlidir. Gəlin görək, bu gün müharibə vəziyyətində olan, torpaqları işğal edilmiş Azərbaycanın reallıqlan bizdən nə tələb edir? İlk növbədə vətənpərvərlik ideyası. Estrada gənclərin diqqətini ən çox cəlb edən sənət növüdür. Bəs hanı estradamızda Vətən mövzusu, vətənpərvərlik proqramları? Var, amma çox azdır. Biz gənclərin vətənpərvərlik tərbiyəsi üçün estrada sənətinin böyük imkanlarından maksimum istifadə etməliyik. Edə bilmirik. Səbəb də odur ki, **tələbkarlıq meyarı çox aşağı düşüb, özfəaliyyətlə peşəkar sənət arasındakı sədlər aradan götürülüb. Estrada adına diskoteka, xalq musiqisi adına toyxana çal-çağırı peşəkar səhnəni zəbt edib. "Yeni ulduz"da da biz ən çox ona çalışırıq ki, istedadlı gəncləri bu meyillərdən qoruyub həqiqi sənət yoluna istiqamətləndirə bilək. "Yeni ulduz – 4"-ün qalibi İlhamə Qasımova kimi gözəl səs və ifaçılıq imkanları olan gənclərin aşkara çıxarılması sübut edir ki, bu müsabiqəyə çəkilən xərc və zəhmət özünü doğruldur.**

Azərbaycan səhnəsində istedadlı adamlar həmişə olub, indi də var. Şəxsiyyətlər isə azdır. İstedad bir şeydir, şəxsiyyət başqa. Səhnəmizə şəxsiyyətlər gərəkdir.

***– "Yeni ulduz"da və ondan kənarda estradaya meyilli gəncləri ciddi vokal təhsili almağa yönəltmək doğru olmazdımı?***

– Bilirsiniz, kamera vokal sənəti ilə estrada vokal sənəti bir-birindən çox fərqlənir. Xalq oxuma sənəti də

tamam ayrı bir məktəbdir. Yalnız Rəşid Behbudov kimi dahilər bunları bir ifada birləşdirə bilər.

**Azərbaycanda kamera-opera vokal sənətinin zəngin ənənələri, mükəmməl məktəbi var. Son onilliklərdə xalq musiqisi muğam vokal ifaçılığı məktəbi də peşəkar səviyyədə formalaşmışdır. Estrada sahəsində isə belə bir məktəb, təəssüf ki, hələ də yoxdur. Və estradamızdakı gənclərin ən böyük problemi məktəbsizlikdir.**

"Yeni ulduz"dakı uşaqları çıxışlara hazırlaya-hazırlaya görürəm ki, belə bir məktəbin rüşeymləri yaranmaqdadır. Bu gənclərə sənətdə öz yerlərini tapmaqda kömək eləmək lazımdır. Bəlkə də, başqa hər şeyi buraxıb qalan yaradıcılıq fəaliyyətimi təkcə bu işə həsr etdim. Zamanın və sənətin tələblərinə uyğun gənc estrada müğənniləri yetişdirmək mənim ən böyük arzumdur.

***"Xalq qəzeti", 11.06. 2006***

## “...YANASAN GƏRƏK”
## *yaxud Habil Əliyevin sənət hünəri*

**Nadir istedadı, bənzərsiz yaradıcılıq yolu, milli musiqimiz qarşısındakı misilsiz xidmətləri ilə adını Azərbaycan musiqi ifaçılığı sənətinin tarixinə qızıl hərflərlə yazmış böyük kamança ustadı, Xalq artisti Habil Əliyevin 80 yaşı tamam oldu.**

**Azərbaycanın sənət dünyası çox zəngindir. İncəsənətimizin bütün sahələri üzrə ən görkəmli sənətkarları yada salmaq istəyəndə adamın xəyalına neçə-neçə böyük sənət korifeyinin adı gəlir. Bu adları hansı ardıcıllıqla düzmək işində çox zaman çətinlik çəkirsən. Ancaq Habil Əliyev yeganə sənətkardır ki, onun öz sahəsində – kamança ifaçılığında birinci olduğunu, hər kəsdən yüksək mövqedə dayandığını istisnasız olaraq hamı qəbul edir. Ömrün və sənətin müdriklik zirvəsinə ucalmış bu insanın bugünkü məqamını dəyərləndirmək üçün ilk növbədə, onun keçdiyi ömür və sənət yoluna nəzər salmağa ehtiyac duyulur.**

Habil Əliyevin sənət yolunda atdığı ilk addımlar musiqi və teatr tariximizin şərəfli simalarından biri olan Əh-

məd Ağdamskinin qayğısı və xeyirxahlığı ilə bağlı olub. Özünün də etiraf etdiyi kimi, onun qəlbində musiqi sənətinə məhəbbət oyadan anası, əsl musiqinin nə olduğunu ilk dəfə anladan isə Əhməd Ağdamski olub. Bu, adi tərcümeyi-hal faktı deyil. Bu xətlə Habil sənətinin kökü müasir musiqi sənətimizin banisi, dahi Üzeyir Hacıbəyovun sənət dünyasına bağlanır. Habilin uşaqlıq illərində Ağdaşda işləyən və onların evində kirayədə yaşayan Əhməd Ağdamski Üzeyir bəyin təkcə yaxın qohumu və dostu yox, həm də onun ən sadiq sənət məsləkdaşlarından, ardıcıllarından biri idi. O, Hüseynqulu Sarabski, Qurban Pirimov kimi böyük sənətkarlarla bir sırada milli opera ifaçılığımızın beşiyi başında duran şəxslərdən olmuşdu...

Habil Əliyevin ifaçı kimi tamaşaçı qarşısına ilk dəfə çıxdığı gündən yetmiş ilə yaxın vaxt keçir. Onun yeniyetməlik çağları müharibənin ağır illərinə düşmüşdü. 14-15 yaşlarından o zaman Ağdaşda fəaliyyət göstərən N.B.Vəzirov adına Dövlət Dram Teatrında işləyir, ailələrini dolandırırdı. Özü o illəri belə xatırlayır: **"Mən axşamlar eyvanda əyləşib kamanımı işə salırdım. Bir də görürdüm ki, ərləri, oğulları, nişanlıları müharibədə həlak olmuş qonşu arvadların ah-naləsi kamanın fəryadına qoşulub. Kimisi ağı deyir, kimisi bayatı çağırırdı. Onda anam da ağlayıb şivən qoparırdı, çünki qardaşım Məmmədiyyənin də ölüm xəbəri gəlmişdi. Qəribədir, onda mən ağlaya bilmirdim, ancaq çalırdım. Dərdimi kamana deyirdim.**

**Onda elə bil bütün anaların, bacıların dərdi, kədəri mənim kamançamın simlərinə hopmuşdu. ...Mənə elə gəlir ki, indi də kamanımda o sədalar, o fəryadlar qalmaqdadır...”**

Sənətdə yetkinlik çağına çatdıqdan sonra Habil Əliyev “qışqıran alət” adlandırdığı kamançanın quruluşunda müəyyən dəyişiklik etməklə onun “qışqırıqlı” səsini yanıqlı səslə əvəz etməyə nail oldu.

İfaçılıqda ilk addımlarını atdığı illərdə Habil Əliyevin bir qazancı, bir tapıntısı da o olmuşdu ki, sonralar uzun illər sənət yoldaşlığı etdiyi görkəmli xanəndə, Xalq artisti Yaqub Məmmədovla tanış olub dostlaşmışdı. Neçə illərdən sonra onların sənət yoldaşlığının ən mükəmməl nümunəsi kimi “Mənsuriyyə”nin radionun “qızıl fond”unda saxlanan nadir lent yazısı meydana gəldi. Yaqub Məmmədovun misilsiz bir ustalıqla ifa etdiyi bu “Mənsuriyyə”də onu Habil Əliyev müşayiət edir. Təkcə. Ansamblsız, hətta tarsız. Ancaq dinləyiciyə elə gəlir ki, xanəndə bütöv bir orkestrin müşayiəti ilə oxuyur. Bu ifaçılıq möcüzəsi Habil Əliyevin uzun illər davam edən yaradıcılıq axtarışlarının məhsulu idi.

**Habilə qədər muğam üçlüyündə də, ansambl tərkibində də kamança həmişə ikinci dərəcəli rol oynamış, tarın ardınca “gedərək” onun xallarını təkrar etmişdi. Əksər ifaçılar üçün bu hal indi də belədir. Ancaq Habil Əliyevin böyük istedadı ikinci dərəcəli rolla barışa, onun çərçivəsində qapanıb qala bilnıəzdi. Habil**

**kamançanı tarın kölgəsindən çıxararaq ikinci dərəcəli müşayiət alətindən solo alətinə çevirdi. Bundan sonra Habil sənətinin dünyanın ən möhtəşəm səhnələrindən keçən zəfər yürüşü başlandı. Kamança ifaçılığında Habil Əliyevin ən böyük hünərlərindən biri də bu doğma musiqi alətimizi ocağımızın başında oturtduğumuz və hər fürsət düşəndə haqqımızı danan erməni çalğıçıların "əsarətindən" xilas etməsi oldu.**

50-ci illərin əvvəllərində Habil Əliyev Bakıya gələrək Asəf Zeynallı adına Orta İxtisas Musiqi Məktəbində təhsil alır, böyük muğam ustadları tarzən Qurban Pirimov və xanəndə Xan Şuşinski ilə birgə çalışaraq onlardan muğam sənətinin sirlərini öyrənir. Musiqi sənətimizin görkəmli nümayəndələri Niyazi, Soltan Hacıbəyov, Səid Rüstəmov onun ifaçılıq məharətini çox yüksək qiymətləndirirlər. 1953-cü ildən Dövlət Filarmoniyasında işə qəbul edilən Habil konsertlərdə və qastrol səfərlərində Seyid Şuşinski, Həqiqət Rzayeva, Xan Şuşinski, Zülfu Adıgözəlov, Mütəllim Mütəllimov, Şövkət Ələkbərova, Sara Qədimova, Fatma Mehrəliyeva kimi ustad sənətkarlarla bir yerdə səhnəyə çıxır.

İfaçılıq fəaliyyəti ilə böyük xalq məhəbbəti qazanan Habil Əliyevin kamançasında muğam sənətimizin "Segah", "Bayatı-Qacar", "Bəstənigar", "Bayatı-Şiraz", "Rahab", "Bayatı-kürd", "Çahargah", "Rast", "Zabul" kimi inciləri bənzərsiz bir üslubda, misilsiz bir ustalıqla səslənir. İfaçılıqla yanaşı, həm də bəstəkarlıq istedadına malik

olan Habil Əliyevin bəstələdiyi bir çox mahnılar həmin illərdə ən populyar müğənnilərin ifasında səslənərək geniş dinləyici rəğbəti qazanır.

**Habil Əliyevin yaradıcılıq axtarışlarının zirvəsi isə onun yaratdığı və muğam sənətimizə ərməğan etdiyi "Habil segahı" olur. Yaşı min illərlə ölçülən muğam sənətinin yaşamasında xidməti olmuş minlərlə ifaçı sırasında yalnız tək-tək sənətkarların adı onun yaradıcılarından biri kimi tarixə düşmüşdür. XX əsrin muğam ifaçıları arasında bu şərəfə nail olanlardan biri də Habil Əliyev oldu. 60-cı illərin ortalarında onun ifasında səslənən yeni "Segah" – "Habil segahı" muğam pərəstişkarları və biliciləri tərəfindən böyük maraqla qarşılandı və çox yüksək qiymətləndirildi. "Segah"ın "Zabul segah", "Xaric segah", "Yetim segah", "Mirzə Hüseyn segahı", "Orta segah" kimi variantları sırasında "Habil segahı" özünə layiqli yer tuta bildi. Habil kamançasının bütün ifaçılıq imkanlarını və sənətçinin özünün yaradıcılıq potensialını əyani şəkildə təsdiq edən bu əsər onun şöhrətini daha da artırdı.**

Habil sənətinin vurğunu olan sənət dostu, Xalq şairi Bəxtiyar Vahabzadə "Habil segahı" şeirində yazırdı:

**Bu ağac parçası yanmayır özü,**
**Ancaq od-alovsuz yandırır bizi.**
**...Habil! Ay insafsız, ürəyimizi**
**Yandırıb yaxmaqda qəsdin nədir, nə?**

**Niyə yandırırsan atəşsiz bizi?**
**Bu haqqı kim verib, kim verib sənə ?**

Maraqlıdır ki, bu poetik sualın cavabını da "yaşamaq yanmaqdır, yanasan gərək" deyən şairin öz poeziyasından tapmaq olardı. Habil özü yanaraq yaşadığı kimi, dinləyicilərini də yandıraraq yaşatmaq istəyir. Yenə də Bəxtiyar Vahabzadənin sözləri ilə desək,

**Mən çıxmağa təpə yox, uca dağ istəyirəm,**
**Həyatı həyat kimi yaşamaq istəyirəm.**

Həyatda da, sənətdə də dağ ucalığını həmişə özü üçün mövcudluq meyarı seçmiş Habil Əliyev ömrü boyu təpələrin dağlara meydan oxuması ilə barışmamış, cılızların nəhənglik iddialarına qarşı mübarizə aparmağı özünə borc bilmişdir. Habilin bu mübarizlik keyfiyyəti, ilk növbədə, muğamatımızın məzmun saflığının və ifa təmizliyinin qorunması işində özünü göstərir. Mərdanə bir cəsarətlə həmişə sözün düzünü bütün kəskinliyi ilə üzə deyən Habil Əliyevin bu xasiyyəti bəzən birmənalı qarşılanmır, ona "acıdil" imici qazandırır. Ancaq el dili ilə desək, "Habilin dili varsa, dilçəyi də var!" Ona başqalarına qarşı maksimal tələbkarlıq nümayiş etdirmək haqqını və səlahiyyətini öz böyük sənəti, böyük istedadı verir.

Müasiri olmuş görkəmli musiqiçilər, elm və sənət xadimləri Habilin sənətini, musiqimiz qarşısında xidmətlərini həmişə yüksək qiymətləndirmişlər. Onun sənətinə və şəxsiyyətinə bu sayğılı münasibətin bir göstəricisi də

neçə-neçə sənətkarın onu öz əsəri üçün qəhrəman seçməsində, onlarla poeziya, rəssamlıq və heykəltəraşlıq əsərlərində onun bədii obrazının yaradılmasındadır. Bu cəhətdən Habil Əliyevi yalnız böyük fırça ustası Səttar Bəhlulzadə ilə müqayisə etmək olar. Habilin ifaçılıq ustalığı peşəkar musiqi sənətimizin inkişafına da müəyyən impulslar vermişdir. Təkcə elə Xalq artisti Firəngiz Əlizadənin dünyanın ən məşhur simfonik orkestrlərinin ifasında ən möhtəşəm konsert salonlarında səslənmiş "Habilsayağı" əsərini xatırlatmaq kifayətdir.

Hələ bu da azdır. Xalq sevgisi Habili neçə-neçə lətifənin qəhrəmanı etmişdir. Əlbəttə, burada sənətkarın özünün orijinal və təkrarsız şəxsiyyətinin, bənzərsiz xarakterinin də rolu var.

**Azərbaycan insanının taleyində muğam sənətinin müstəsna dəyərini ifadə etmək üçün Habil Əliyev həmişə belə bir misal çəkir: "Biz gözümüzü dünyaya açanda anamızın bizə çaldığı layla da, biz dünyadan köçəndə bizim üçün oxunan dua da muğam üstündədir. Deməli, insan bu layla ilə dua arasındakı ömrünü elə yaşamalıdır ki, bu musiqinin aliliyinə və ülviliyinə layiq ola bilsin."**

Vətənimiz siyasi müstəqillik qazandıqdan sonra bütün milli-mənəvi dəyərlərimiz kimi ulu muğam sənətimiz də dövlətimizin daha böyük diqqət və qayğısı ilə əhatə olunmuşdur. Azərbaycan muğamı beynəlxalq aləmdə,

dünya miqyasında getdikcə daha böyük şöhrət qazanır, qəbul və təsdiq olunur.

Danılmaz həqiqətdir ki, muğam sənətimizin bu nüfuzunun təmin edilməsində onun böyük ustadlarından biri olan xalq artisti Habil Əliyevin sənət hünərinin də əvəzsiz rolu vardır.

***"Xalq qəzeti", 3.06.2007***

# DÜNYA ŞÖHRƏTLİ BƏSTƏKARIN YARADICILIQ GECƏSİ

**Üns" teatrının səhnəsində Azərbaycanın müasir bəstəkarlıq məktəbinin görkəmli nümayəndəsi, dünya şöhrətli sənətkarımız, Xalq artisti Firəngiz Əlizadənin yaradıcılıq gecəsi və müəllif konserti keçirildi.**

**Tədbirdə çıxış edən mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Firəngiz Əlizadənin Azərbaycan musiqisi qarşısındakı xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif edilməsi barədə ölkə Prezidenti İlham Əliyevin sərəncamını oxudu və Vətənin yüksək mükafatını Firəngiz xanıma təqdim etdi.**

Firəngiz Əlizadənin musiqi mədəniyyəti qarşısındakı xidmətlərinin miqyasını dolğun təsəvvür etmək və dəyərləndirmək üçün onun keçdiyi şanlı ömür və yaradıcılıq yoluna qısa da olsa nəzər salmaq zəruridir.

F.Əlizadə Konservatoriyanı iki ixtisas üzrə – fortepiano (Urfan Xəlilovun sinfi) və bəstəkarlıq (Qara Qarayevin sinfi) ixtisasları üzrə bitirmiş, hər iki ixtisas üzrə fərqlənmə diplomu almışdır.

Onun musiqisinin dünyanın ən möhtəşəm konsert salonlarında zəfər yürüşü 1976-cı ildən başlayır. Həmin il F.Əlizadə İtaliyanın Pezaro şəhərində keçirilən beynəlxalq festivalda özünün fortepiano sonatasını ifa edərək beynəlxalq arenada müəllif və ifaçı kimi ilk uğurunu qazanır.

1979-cu ildə F.Əlizadənin "Habilsayağı" əsəri ilk dəfə Leninqradda M.Rastropoviçin yetirməsi,məşhur violençel ustası İvan Mozettinin ifasında səslənir və bəstəkarın yaradıcılıq üslubunun xarakterini dolğun nümayiş etdirir.

Sonrakı illərdə F.Əlizadənin musiqisi Stokholmda (1982), Varşavada (1983), Berlində (1986), Londonda (1987), Amsterdamda (1989), Mexikoda (1989), Dausburqda (1991) keçirilən beynəlxalq musiqi festivallarında ifa olunur və müəllifinə müasir dünya musiqisinin ən parlaq simalarından biri şöhrətini qazandırır.

1992-ci ildə F.Əlizadə Türkiyə Mədəniyyət Nazirliyinin sifarişi ilə Mərsin şəhərində opera və balet teatrının açılışı üçün "Boş beşik" baletini yazır, 1993-cü ilin yanvarında teatrın açılışı və əsərin ilk tamaşası olur.

1993-cü ildə Nyu-Yorkun məşhur Linkoln mərkəzində San-Fransiskonun dünya şöhrətli Kronos qrupunun ifasında F.Əlizadənin "Muğamsayağı" əsərinin premyerası keçirilir.

1999-cu ildə F.Əlizadə rəsmi qonaq statusu ilə İsveçrənin Lütsern şəhərində keçirilən beynəlxalq musiqi festivalına dəvət olunur və qadın bəstəkarlar içərisində ilk olaraq "baş bəstəkar" fəxri tituluna layiq görülür. Həmin

festivalın proqramına F.Əlizadənin səkkiz əsəri daxil edilmişdi. Burada bəstəkarın iki yeni əsərinin – “İpək yolu” instrumental əsərinin və Nazim Hikmətin sözlərinə bəstələnmiş “Ölməzliyə səyahət” vokal kompozisiyasının premyerası keçirilir.

Həmin il Almaniyada nəşr olunan “Musik Texte” musiqi jurnalı özünün 100-cu, yubiley nömrəsini bütövlükdə F.Əlizadəyə həsr edir. Alman rejissoru Valdemar Ştayn azərbaycanlı həmkarı Cahangir Zeynallı ilə birgə F.Əlizadəyə həsr olunmuş “Azərbaycanlı maestro” sənədli filmini çəkir.

2000-ci ildə F.Əlizadə dünya şöhrətli yapon violençelçalanı Yo-Yo Manın “İpək yolu” transkontinental layihəsində özünün dörd kompozisiyası ilə iştirak edir. Bu sıraya daxil olan Nəsiminin sözlərinə yazılmış “Dərviş” əsəri muğam ustası Alim Qasımovun iştirakı ilə səslənərək layihənin ən uğurlu əsəri hesab olunur.

İtaliyanın “Cakonda” teatrında F.Əlizadənin A.S.Puşkinin sözlərinə bəstələnmiş “Gözəllik hakimiyyəti” vokal kompozisiyası məşhur ingilis muğənnisi C.Ceymsin ifasında ilk dəfə səslənir.

Az sonra İsrailin Təl-Əviv şəhərində keçirilən beynəlxalq festivalın yekunu olaraq F.Əlizadənin müəllif konserti təşkil olunur.

2002-2006-cı illər ərzində Nyu-York, Milan, Turin, London, Berlin, Hamburq, Lütsern, Şürix, Bern, Tokio, Seul, Şanxay, Sinqapur, Vyana, Zalsburq, Antverpen, Am-

sterdam, Oslo şəhərlərində F.Əlizadənin müəllif konsertləri keçirilir.

2003-cü ildə Bakıda – H.Əliyev adına Sarayın səhnəsində Azərbaycan musiqisinin şöhrətini dünyaya yayan bəstəkarın Vətəndə ilk müəllif konserti təşkil olunur.

Bu illərdə bəstəkarın dünya səhnələrində səslənən məşhur əsərlərindən biri də Azərbaycan xalqınm müstəqillik yolunda verdiyi qurbanların xatirəsinə həsr olunmuş “Mərsiyə” kompozisiyasıdır.

2004-cü ildə Azərbaycan Dövlət Filarmoniyasının təmirdən sonra təntənəli açılış mərasimində M.Rastropoviçin rəhbərlik etdiyi orkestr F.Əlizadənin ümummilli liderimiz Heydər Əliyevin xatirəsinə həsr olunmuş “İthaf” əsərini ilk dəfə ifa edir.

2005-ci ildə Parisdə keçirilən M.Rastropoviç adma Beynəlxalq müsabiqədə F.Əlizadənin “Oyan!” əsəri ilk dəfə ifa olunur.

Firəngiz xanımm sənətini çox yüksək qiymətləndirən M.Rastropoviç onun haqqında deyir: “Bütün dünya tərəfindən tanınan istedadlı bəstəkar Firəngiz xanım həm də öz dövlətinin layiqdi vətəndaşıdır, əsl azərbaycanlıdır”.

Həmin il YUNESKO-nun 60 illik yubileyi münasibətilə Parisdə keçirilən konsertdə F.Əlizadənin Şərq yə Qərb musiqi ənənələrinin sintezini əks etdirən “Çarpazlaşma” əsəri ilk dəfə ifa olunur. Bu əsərin ifasında müəllif həm də pianoçu və dirijor kimi çıxış edir.

2006-cı ildə Vyanada Volfqanq Amadey Motsartın 250 illik yubileyinə həsr olunmuş konsertdə F.Əlizadənin unudulmaz bəstəkarımız Tofiq Quliyevin xatirəsinə həsr etdiyi "Abşeron kvinteti" əsəri səslənir.

2006 və 2007-ci illərdə Norveçdə, İsveçrədə və Almaniyada F.Əlizadənin müəllif konsertləri keçirilir.

Bu ilin payızında Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı F.Əlizadənin Nərgiz Paşayevanın librettosu əsasında yazılmış "İntizar" operasını tamaşaçılara təqdim edəcəkdir.

"Üns" teatrında keçirilən yaradıcılıq gecəsində isə Firəngiz Əlizadənin üç əsəri – "Atəş", "Dərviş" və "Çarpazlaşma" kompozisiyaları ifa olundu. Hər üç əsər Azərbaycan tamaşaçılarına ilk dəfə təqdim olunurdu. Əsərlərin canlı ifasını dünyanın müxtəlif salonlarında çəkilmiş lent yazılarından fraqmentlər də müşayiət edirdi.

"Çarpazlaşma"nın ifasında Firəngiz xanım ənənəyə sadiq qalaraq, həm də pianoçu və dirijor kimi çıxış etdi. Bu əsərin səslənməsində milli koloritə nail olmaq üçün bəstəkar kamera orkestrinin tərkibinə tap, kamança, kanon, tütək, zurna, qaval, qoşa nağara kimi milli musiqi alətlərimizi də daxil etmişdir. Tamaşaçıların sürəkli alqışları ilə sona yetən müəllif konserti başa çatdıqdan sonra yaradıcılıq gecəsinə yekun vuran "Üns" teatrının bədii rəhbəri, professor Nərgiz Paşayeva bu tədbirin "Üns"ün tarixinə qızıl hərflərlə yazıldığını bildirdi.

**"Xalq qəzeti", 7.06.2007**

# "ÖZÜMÜ BÜTÜN TÜRK DÜNYASININ TƏMSİLÇİSİ SAYIRAM"

**Müsahibimiz Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndəsi, müasir dünya musiqisinin ən parlaq simalarından biri kimi bütün dünyada böyük şöhrət qazanmış, məhz bu sənət nailiyyətlərinə görə də Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə bu yaxınlarda ölkəmizin yüksək mükafatına –"Şöhrət" ordeninə layiq görülmüş görkəmli bəstəkar, respublikanın Xalq artisti, professor Firəngiz xanım Əlizadədir.**

## *"Müasir musiqi" "gözəl olmayan" musiqidir"*

***– Firəngiz xanım, sizi dünyada "müasir musiqi"-nin ən görkəmli nümayəndələrindən biri kimi tanıyırlar. Maraqlıdır, siz özünüz "müasir musiqi" anlayışını necə xarakterizə edərdiniz? Sizcə, onu digər musiqilərdən hansı amillər fərqləndirir?***

– Təbii ki, müasir, yaxud avanqard musiqi anlayışını yalnız zamanla bağlamaq olmaz, yəni "müasir musiqi", sadəcə olaraq, müasir dövrdə yaranan musiqi demək deyil. İncəsənətin digər sahələrində olduğu kimi, musiqidə də "müasir" anlayışı bu mənada İkinci Dünya müharibəsindən sonra işlədilməyə başlanmışdır. Bu müharibə bəşəriyyətə, humanizm ideyalarına o qədər böyük zərbə vurmuşdu ki, mədəniyyət-mənəviyyat məsələlərində bu ideyaları bərpa etmək üçün, sanki, hər şeyi yenidən başlamağa ehtiyac duyulurdu.

Bu zaman o vaxta qədər mövcud olmuş romantik musiqi ilə müəyyən mənada ziddiyyət təşkil edən yeni musiqi cərəyanları meydana çıxdı. Xalqlar və insanlar incəsənətdə o vaxta qədər hökmran olmuş romantik ideyaların bəşəriyyəti fəlakətdən xilas edə bilmədiyinin, daha doğmsu, xilas etməyə qadir olmadığının sahidi oldular. İncəsənətin humanist qüdrətinə inamı bərpa etmək üçün bütün sənət sahələrində, o cümlədən də musiqidə yeni başlanğıca ehtiyac duyulurdu.

**Romantik musiqidən fərqli olaraq, müasir musiqi zahirən "gözəl olmayan" musiqidir. Dünya miqyasında götürsək, müasir musiqi yekcins bir hadisə deyil, burada çoxlu sayda bir-birindən fərqlənən, hətta bəzən bir-biri ilə ziddiyyət təşkil edən üslubi cərəyanlar vardır. Müasir musiqi yalnız həmin dövrdə sənətə gələn gənc bəstəkarların yox, həm də o vaxta qədərki əsərləri ilə dünya şöhrəti qazanmış İ.Stravinski kimi böyük sə-**

**nətkarların yaradıcılığında təzahür edirdi. Müasir musiqi ənənəvi musiqidən yaradıcılıq və ifaçılıq texnikası baxımından da kəskin fərqlənir.** Bir prinsipial fərq də odur ki, daha çox yaradıcının təbii duyğularına əsaslanan romantik musiqidən fərqli olaraq, müasir musiqi əsasən ideyaların ifadəsinə xidmət edir. Həm də digər postmodernist sənət cərəyanları kimi, burada da həmin ideyalar çox zaman əvvəlcədən deklorativ manifest şəklində bəyan edilir. Bütün bu amilləri nəzərə alaraq deyə bilərəm ki, müasir musiqiyə onu birmənalı şəkildə xarakterizə edən təklif vermək çətin, bəlkə də, qeyri-mümkündür.

***– Elə isə, bu musiqidə intellektuallıqla emosionallığın, ideya ilə hissiyyatın nisbəti, harmoniyası necə müəyyən olunur? Axı necə olsa da, sənət yaradıcılığı, ilk növbədə, insanın mənəvi duyğularının ifadəsi deməkdir?***

– Müasir musiqinin elə tanınmış nümayəndələri var ki, hissiyyat haqqında heç düşünmək belə istəmirlər. Onlar hələ Platondan gələn belə bir fikrə istinad edirlər ki, musiqi riyazi düsturlara əsaslanmalıdır. Belə bəstəkarların fikrinə görə, bəstəkar musiqinin fiziki-akustik qanunlarına uyğun olaraq yeni səs konstruksiyaları "kəşf etməlidir". Onların anlamında bəstəkarlıq ("kompozitor" hərfi mənada – "kompozisiya quran") təxminən mühəndisliyə, konstruktorluğa bənzər bir məşğuliyyətdir.

Amma müasir musiqinin elə təmsilçiləri də var ki, dəqiq elmlərdən fərqli olaraq, musiqinin bir sənət növü kimi həmişə insanların hisslərinə, duyğularına təsir etməli

olduğu fikrini birmənalı şəkildə qəbul edirlər. Onların fikrincə, musiqi sədaları insan qəlbinin ən incə tellərinə toxunmalıdır. Buna görə də müasir musiqidə Şərq motivlərinə bu qədər önəm verilir.

**Mənim ideyam odur ki, insan həyatda nə qədər qəddarlıqla, faciələrlə üzləşsə də, musiqi insana gözəllik duyğusu aşılamalı, ona gözəl anlar yaşatmalıdır. İncəsənətlə təmasda olmaq insana əlavə stress yox, ilk növbədə mənəvi, ruhi zövq və rahatlıq verməlidir, o, həyatdan küsməməli, ona daha da bağlanmalıdır.**

## *“Muğam musiqidə bizim ana dilimizdir”*

***– Firəngiz xanım, siz Azərbaycan musiqisində “müasir musiqi ” anlayışına doğru ilk addımları atmış böyük bəstəkarımız Qara Qarayevin yetirməsisiniz. Sizin bir bəstəkar kimi formalaşmağınızda Azərbaycan bəstəkarlarından daha kimlərin təsiri olmuşdur?***

– Bu suala cavab verərkən, təbii ki, ilk olaraq Üzeyir bəyin adını çəkmək lazımdır. Musiqisinin xarakterinə görə onu ancaq Motsartla müqayisə etmək olar. Bu musiqiyə yüzlərlə, minlərlə dəfə qulaq assanız da yenə sizə maraqlı gəlir, yenə orada nə isə yeni bir şey tapa bilirsiniz. Onun musiqisinin nikbin ovqatı, intonasiyası yeni doğan Günəşin parlaqlığını xatırladır. Bu musiqi bizim ürəyimizin döyüntüsü ilə həmahəng olan musiqidir. **Üzeyir bəyin dahiliyi ondadır ki, janrından asılı olmayaraq, onun**

**zəif əsəri yoxdur. Baxmayaraq ki, o janrların, demək olar ki, hamısını ilk dəfə olaraq yaradırdı. Heyrətli cəhət odur ki, Üzeyir bəy mükəmməl musiqi təhsili almasa da, Allahdan gələn vergi ilə bütün bu işləri görə bilirdi. Bizim mədəniyyət tariximizdə Üzeyir bəy kimi bir insanın olması Azərbaycan xalqının xoşbəxtliyidir.**

**Qara Qarayev mənim üçün təkcə sənət müəllimi yox, həm də mənəvi ata olub. Başqa nə deyə bilərəm?! Xaricə təzə gedən vaxtlarda məndən tez-tez soruşurdular ki, yəqin, siz Moskva, ya da Peterburq konservatoriyasında oxumusunuz? Deyirdim, yox, mən Bakı Konservatoriyasında Qara Qarayevin sinfini bitirmişəm. Mənim Moskvam da, Peterburqum da Qara Qarayevdir.**

Ondan başqa, mənim çox sevdiyim və çox yüksək qiymətləndirdiyim bəstəkar Fikrət Əmirovdur. Fikrət Əmirovun istedadı o qədər yüksək bir istedad idi ki, o, daha böyük sənət zirvələrinə ucala bilərdi. Bəzən mənə elə gəlir ki, onun bütün yaratdıqları, sanki, nə isə daha böyük bir sənət hadisəsinin yalnız başlanğıcı idi. Təəssüf ki, vaxtsız və qəfil ölümü bu yüksəlişi yarımçıq qoydu.

***– Sizin yaradıcılığınızda muğam musiqisinin təsiri çox güclüdür. Sizcə, sizin musiqinizi – "Habilsayağı", "Muğamsayağı", "Şüştər", "Dərviş", "Çarpazlaşma" kimi əsərlərinizi Üzeyir bəyin muğam operalarından, "Arazbarı"sından, F.Əmirovun, Niyazinin simfonik muğamlarından, Q.Qarayevin "Yeddi gözəl"indən, A.Məli-***

***kovun “Məhəbbət əfsanəsi”ndən, F.Əmirovun “Min bir gecə”sindən, V.Mustafazadənin caz-muğam kompozisiyalarından sonra peşəkar musiqimizdə muğamatdan bəhrələnmənin növbəti mərhələsi kimi dəyərləndirmək olarmı?***

– Qərbdə də məndən tez-tez soruşurlar ki, sizin üçün və ümumən Şərq üçün muğam nədir? Məncə, Qərb musiqisindəki sonata janrı kimi muğam da insan həyatının hekayətidir. Həyatın doğuluşu, inkişafı, ölümlə üzləşməsi və mübarizəsi, sonda yenidən həyatın başlanğıcına qayıtması muğam dəsgahlarının aparıcı mövzusudur. **Fəlsəfi mənada bu, insan həyatının modelidir. Muğam sənətinin ölməzliyini təmin edən də bu dərin məzmun və fəlsəfi mənadır. Onun haqqında əsrlərdən bəri nə qədər danışılsa, nə qədər yazılsa da, muğam hələ sona qədər kəşf olunmayıb.**

Öz musiqimdə muğamdan bəhrələnməyin xarakterinə gəlincə, qiymətləndirmə mənasında mən bu barədə bir söz deyə bilmərəm, bunu dinləyici deməlidir.

Muğam bizim musiqidə ana dilimizdir. Musiqidə biz onun dili ilə danışırıq. Onu sevmək, ona bağlanmaq övladın anasına bağlılığı kimi təbii, doğma bir hissdir.

## *"Şərq-Qərb münasibətlərinə qarşıdurma yox, əməkdaşlıq mövqeyindən yanaşmaq lazımdır"*

***– Öz əsərlərinizi "ifası çətin olan əsərlər" adlandırarkən nəyi nəzərdə tutursunuz? Sizin əsərlərinizi yaxşı ifa etmək üçün musiqiçidən hansı keyfiyyətlər tələb olunur?***

– Bu fikir, ilk növbədə, əsərlərin öz xarakterindən törəyir. Mənim musiqim nə sırf Şərq, nə də Qərb musiqisidir. Belə demək mümkünsə, həm məzmunca, həm də formaca onların hər ikisinin müəyyən elementlərini özündə əks etdirən sintez nümunəsidir. Buna görə də bu musiqinin ifaçısı həm Qərb musiqisi üçün səciyyəvi olan yüksək texniki peşəkarlıq vərdişlərinə, həm də Şərq musiqisinə xas olan incəlik və xırdalıqları ifadə etmək bacarığına malik olmalıdır.

Bu günlərdə keçirilən müəllif konsertimdə bizim musiqiçilərlə iş prosesindəki ünsiyyətim məni inandırdı ki, onlar yüksək istedada və peşəkar ustalığına malikdirlər. Ümid edirəm ki, onlarla yaradıcılıq əməkdaşlığımı bundan sonra da davam etdirmək mümkün olacaqdır.

***– Müasir dünyanın müasir musiqisinə Azərbaycan motivləri nə verir? Niyə məhz Azərbaycan musiqisi bu nüfuzu və mövqeyi qazana bilib? Qərb adamının (dinlə-***

***yicisinin) rasional təfəkkürü sizin – Şərq xanımının irrasional mənəvi dünyasını necə qavrayır, necə qəbul edir?***

– Qərbin özünün çox zəngin mədəniyyəti, o cümlədən mükəmməl musiqi sənəti var. Onları məftun etmək çox çətin, aldatmaq isə qeyri-mümkündür. Yüksək peşəkarlıq səviyyəsi olmasa, onlar sadəcə ekzotika xatirinə heç nəyi qəbul etməzlər. Onların repertuarına, konsert fəaliyyətinə daxil ola bilmək üçün, bu şərtlərin hər biri ödənməlidir: həm səviyyə, həm qeyri-adilik, həm özlərində olmayan gözəllik, həm də, təbii ki, Qərb dünyagörüşünə uyğun olaraq, maddi cəhətdən sərfəlilik. Başqa cür böyük konsert salonlarını doldurmaq mümkün deyil.

***– Qərb-Şərq qarşıdurması barədə söz-söhbətlər müxtəlif sahələrə aid diskussiyaların mövzusuna çevrilmişdir. Sizcə, mədəni-mənəvi sahədə də belə bir qütbləşmə varmı, varsa, Siz bu maneəni necə dəf edirsiniz?***

**– Mənə elə gəlir ki, bu məsələyə, eləcə də ümumən qloballaşma probleminə qarşıdurma mövqeyindən yox, sivilizasiyaların dialoqu və inteqrasiya mövqeyindən yanaşmaq və bu cür qiymətləndirmək daha doğru olardı. Ölkəmizin geosiyası mövqeyi bizi buna bir daha sövq edir.**

**Müasir dünyada xalqımızın və Vətənimizin durumu elədir ki, biz düşmənlərimizin sayını artırmaqdan qaçmalı, dost qazanmağa çalışmalıyıq.**

## *“Atamın ən əziz müraciət forması "əfəndim" sözü idi"*

***– Firəngiz xanım, siz neçə illərdir xaricdə – doğma dil mühitindən uzaqda yaşayırsınız. Əslində, elə sizin mənsub olduğunuz Bakının elitar musiqi mühiti üçün də ana dilimiz o qədər doğma deyildi. Ancaq siz onlardan və bir-iki dəfə xaricə gedib-gələndən sonra ana dilini yanılanlardan fərqli olaraq, nitqinizin təmizliyini və səlisliyini qoruya bilmisiniz...***

– Verdiyiniz qiymətə görə çox sağ olun. Düzü, mən həmişə əksinə düşünmüşəm ki, ana dilimi kifayət qədər yaxşı bilmirəm. Təmsil etdiyim mühitin qaydalarına baxmayaraq, ana dilimizə qəlbən bağlı olmağım ailəmizdən gələn bir xüsusiyyətdir. Mükəmməl musiqi təhsili almaq xatirinə məktəbdə rusca oxusam da, ailəmizdə həmişə ana dilimizdə danışırdıq. Mənim rəhmətlik atam çox vətənpərvər və millətpərvər bir adam idi. Belə adamlara o zaman nəinki millətçi, hətta pantürkist deyirdilər. Atamın ən əziz müraciət forması “əfəndim” sözü idi. Bütün ömrü boyu Türkiyəni görmək arzusu ilə yaşadı və bu istəklə də dünyadan köçdü.

**Atam bütün klassik poeziyamızı əzbər bilirdi. Övladlarında da ədəbiyyata və kitablara sevgi oyatmağa çalışırdı. Dünya ədəbiyyatı ilə yanaşı, mən öz ədəbiyyatımızı da kifayət qədər mütaliə eləmişəm. Vokal janrlarında bəstələdiyim əsərlərdə Xaqaninin, Nizaminin,**

**Nəsiminin, Xətainin, Füzulinin, Vazehin, Nigar Rəfibəylinin, Nəbi Xəzrinin poeziyasından dönə-dönə istifadə etmişəm.**

***– Eşitdiyimizə görə, hərdən özünüz də şeir yazırsınız...***

– Ancaq özüm üçün... Dil məsələsində mən oğlumu nümunə bilirəm. Xaricdə təhsil alıb, ixtisasca politoloqdur. Ana dilimizlə yanaşı, daha dörd dili – ingilis, alman, rus, türk dillərini mükəmməl bilir, bu dillərdə yazıb-oxuyur. Ancaq stolunun üstündən azərbaycanca kitablar heç zaman əskik olmur. Harda otursa, əvvəlcə masasının üstünə Azərbaycanın bayrağını sancır.

***– Xaricdə Azərbaycanı təkcə sənətçi kimi yox, həm də vətəndaş kimi təmsil etmək missiyası sizin üçün nə deməkdir?***

– Bu sahədə ailəmlə birlikdə gördüyümüz işlərdən, milli varlığımızın təsdiqi, təbliği üçün çalışmalarımızdan, bədxah qonşularımızın nə kimi təxribatları ilə üzləşməyimizdən açıq və geniş danışmaq istəmirəm.

Bircə onu demək istəyirəm ki, xaricdə mən özümü tək Azərbaycanın yox, bütün türk dünyasının təmsilçisi kimi dərk edirəm.

***– Firəngiz xanım, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında sizin "İntizar" adlı yeni operanız tamaşaya hazırlanır. Xahiş edirik bu haqda və ümumiyyətlə, yaradıcılıq planlarınız barədə məlumat verəsiniz.***

– Bilirsiniz, planlar çoxdur, ancaq mən görülməmiş işlərdən yox, görülmüş işlərdən danışmağı xoşlayıram. Opera üzərində artıq məşqlər gedir, buna görə də müəyyən məlumat vermək olar. Maestro M.Rastropoviçin təklifi ilə yazdığım bu əsər üzərində xeyli vaxtdır ki, işləyirəm. Professor Nərgiz xanım Paşayevanın librettosu əsasında yazılmış bu böyük həcmli opera Vətənimizin müasir tarixindən bəhs edən bu əsər bütün yaradıcı kollektivdən böyük enerji və fədakarlıq tələb edir. Çalışırıq ki, hər şey yaxşı olsun.

**P.S. Firəngiz xanımla söhbətimiz əsnasında o, böyük sənət uğurlarının təsdiqi olan daha iki ərməğan aldı. Sinqapurdan ona beynəlxalq musiqi müsabiqəsinin qalibi kimi xüsusi priz, Almaniyadan isə həyat və yaradıcılığına həsr olunmuş, yenicə çapdan çıxmış iri həcmli kitab göndərmişdilər.**

***"Xalq qəzeti", 10.06.2007***

# ƏBƏDİYYƏTİN BİR İLİ

**Müasir Azərbaycan ədəbiyyatının və ümumən ictimai fikrimizin görkəmli nümayəndəsi, Xalq şairi Bəxtiyar Vahabzadənin vəfatından bir il ötür. Yüksək insani hissləri tərənnüm edən yaradıcılığı, müasirlərinə və gələcək nəsillərə örnək olan vətəndaşlıq mövqeyi ilə adını mənəviyyat tariximizə pozulmaz hərflərlə həkk etmiş şairi "həyat nədir?" sualı, insanın həyatda yaşamasının mənası, millətinə və vətəninə xidmətinin mahiyyəti bütün yaradıcılığı boyu düşündürmüş, əsərlərində bu mövzuya dönə-dönə toxunulmuşdur.**

Hələ 1965-ci ildə qələmə aldığı bir şeirində B.Vahabzadə yazırdı:

**Ömür bizə verilmir**
**Ancaq yaşamaq üçün.**
**Ömür bizə verilir**
**Dünyanın da dərdini,**
**Qəmini çiynimizdə**
**Çəkmək, daşımaq üçün.**

**Ömür – qəlbin, zəkanın**
**Min eşqi, min əməli,**
**Ömür – ömürdən sonra**
**Yaşamağın təməli!**

Böyük rus şairi A.S.Puşkinin belə bir fikri var: Şairlik dünyada yeganə məşğuliyyətdir ki, burada insanın sözü ilə əməli həmişə üst-üstə düşür. Yəni şairin sözü elə onun əməlidir. Bəxtiyar Vahabzadə öz əməlləri ilə xalqının, vətəninin tarixində ölməzlik haqqını qazanmış bir şəxsiyyətdir. Bu gün bu əbədi həyatın yalnız bir ili tamam olur. Qarşıda isə on illər, yüz illər var. Bəxtiyar Mahmud oğlu bu gəlimli-gedimli dünyada yaşadığı 84 il ərzində şair Bəxtiyar Vahabzadənin əbədi ömrünün sarsılmaz təməlini qoyub getdi.

**20-ci əsr dünya ədəbiyyatının korifeylərindən biri, böyük qırğız yazıçısı Çingiz Aytmatov qələm və məslək dostunun sənətini yüksək qiymətləndirərək yazırdı: "Dünyada ad çıxaran çox şairlər var. Qəzet və jurnalları vərəqlədikdə görürsən ki, əsl şair azdır. Təktənha qalanda, bir neçə kəlmə ilə "həyat nədir?" sualına cavab axtaranda yalnız sözü fikirdən, obrazdan, ruh və nəfəsdən yoğrulmuş həqiqi şairlər sənin yaşamaq eşqinə, düşüncələrinə qol-qanad verir. Müasirimiz Bəxtiyar Vahabzadə belə şairlərdəndir."**

Dahi söz ustadlarının adı tarix boyunca uca zirvələr kimi qatarlanıb düzülmüş Azərbaycan poeziyasında oxucuların rəğbətini, sevgisini qazanmaq çox çətin bir işdir.

Bu mənada poetik zövq mövqeyindən yanaşılsa, B.Vahabzadə şeirinə verilən qiymətlər fərqli ola bilər. Ancaq heç kim inkar edə bilməz ki, sovet ideologiyasının hökmran olduğu dövrdə Vətənimizin azadlıq, istiqlal ideyalarını Bəxtiyar Vahabzadə qədər inadla, ardıcıl olaraq tərənnüm edən ikinci bir şair olmayıb.

Sovet rejiminin meydan suladığı, Azərbaycanın Rusiyaya "könüllü" birləşməsinin 150 illiyini bayram etməyə hazırlaşdığı bir zamanda "Gülüstan" poemasını, Qanlı Yanvar gecəsindən sonra respublikamızın paytaxtında fövqəladə vəziyyət rejminin hökm sürdüyü günlərdə "Şəhidlər" poemasını yazmaq və çap etdirmək şairlik istedadından əlavə, bəlkə də, ondan daha artıq vətəndaşlıq qeyrət tələb edirdi.

Görkəmli ədəbiyyatşünas Yaşar Qarayev B.Vahabzadə sənəti ilə şəxsiyyətinin pozulmaz vəhdətini xüsusi vurgulayaraq yazırdı: "Bəxtiyar şəxsiyəti yaradıcılığında qabarıq təzahür edən şairlərdəndir. Onun poetik "məni", fərdi üslubu, lirik qəhrəmanı poeziyamızın mənzərəsində aydın cizgiləri ilə seçilir. Bu vəhdətin ahəngi və aydınlığı onun əsərlərinə tamlıq və bütövlük, ideya, mövzu və məqsəd ümumiliyi, vahid proqram istiqaməti və məqsədəuyğunluğu verir."

**Mən Bəxtiyar Vahabzadənin oxucusu olmaqdan əlavə, həm də onun tələbəsi olmuş, ədəbiyyat dərsindən daha çox vətəndaşlıq təlimini xatırladan maraqlı mühazirələrini, şəxsi ünsiyyət zamanı ibrətamiz söhbətlə-**

**rini dinləmişəm. Bütün bu söhbətlərin vahid amal şəklində birləşən üç əsas mövzusu var idi: Vətən, Millət, Dil. Bəxtiyar müəllimin yaradıcılığı ilə yanaşı, on illər boyu davam edən bu fəaliyyətinin də insanların, xüsusən gənclərin təfəkkürünə, əqidəsinə azadlıq eşqi, istiqlal məfkurəsi toxumları səpməklə Vətənimizin bugünkü müstəqillik məqamına yetişməsində böyük rol oynaması danılmaz həqiqətdir.**

Görkəmli Türkiyə şairi Yavuz Bülənd Bakilərin sözlərilə desək, "Azəbaycan 1920-ci il əsarətindən 1991-ci il azadlığına asanlıqla gəlmədi. Azərbaycan istiqlalının qazanılmasında Bəxtiyar Vahabzadə kimi mütəfəkkir şairlərin, yazıçıların müstəsna bir yeri var. Əgər onlar Azərbaycan türklüyü üçün o əsarət illərində hayqırmasaydılar, Azərbaycan istiqlalı üçün öz əsərləri ilə zəmin hazırlamasaydılar, bu azadlıq bir xəyal olaraq qalardı."

B.Vahabzadə bir şair olaraq sözünü vaxtında və cəsarətlə deməyi özü üçün yaradıcılıq prinsipi seçmişdi. Onun qəti əqidəsi bu idi ki, gələcəyin şairi olmağın yeganə yolu öz dövrünün həqiqi şairi olmaqdır. Öz müasiri olan insanın duyğu və düşüncələrini, sevinc və kədərini, üzləşdiyi problemləri yazmayan şair gələcəyin oxucusu üçün də maraqsız və mənasız olur.

**Gecə də, gündüz də yazmalıyam mən**
**Bu günümüzdən...**
**Bu əsrin sözünü gələcək əsrə**
**Yetirmək üçün.**

**Gələcək önündə günahkar ollam**
**Yazmasam bu gün...**

**Deyirəm, bəlkə də, həməsrlərim**
**Şeirimi gözləmir o qədər mənim...**
**Çıxacaq işığa – əminəm buna,**
**Bu gün qalsa belə kölgədə şeirim.**
**Deyirəm, sabahın oxucusuna**
**Daha çox lazımdır, bəlkə də, şeirim...**

Bu şeirin yazılmasından artıq qırx il keçir və xalqımızın taleyində böyük bir tarixi mərhələni ehtiva edən bu qırx ilin təcrübəsi sübut edir ki, şair “bəlkə də” desə də, gümanında haqlı imiş.

B.Vahabzadə Vətənimizin istiqlalı uğrunda mübarizənin öncüllərindən biri olmaqla yanaşı, qazanılmış istiqlalın qorunmasının, dövlət quruculuğu təcrübəsində bərqərar edilməsinin də şahidi və tərənnümçüsü oldu. Müstəqillik illərində “Gülüstan”ın davamı kimi nəzərdə tutduğu “İstiqlal” poemasını yazdı. Ümumilli liderimiz Heydər Əliyevin sərəncamı ilə müstəqil Azərbaycan dövlətinin ali mükafatı – “İstiqlal” ordeni ilə birinci olaraq Bəxtiyar Vahabzadənin təltif edilməsi də tarixi ədalətin təntənəsi idi.

Bəxtiyar Vahabzadənin anlamında Vətənin, millətin ən ülvi dəyəri, ən müqəddəs rəmzi ana dilidir. Bütün yaradıcılığı boyu dönə-dönə vəsf etdiyi, saflığının, ucalığının qorunması uğrunda mübarizə apardığı ana dilini Bəxtiyar müəllim millətimizin mənəvi vətəni, xalqımızın namusu

adlandırır, onun ülviyyətini anamızın namusu kimi qorumağı tövsiyə edirdi.

**Ana dilim, səndədir xalqın əqli, hikməti**
**Ərəb oğlu Məcnunun dərdi səndə dil açmış.**
**Ürəklərə yol açan Füzulinin sənəti**
**Ey dilim, qüdrətinlə dünyalara yol açmış.**
**Səndə mənim xalqımın qəhrəmanlıqla dolu**
**Tarixi varaqlanır.**
**Səndə neçə min illik mənim mədəniyyətim,**
**Şan-şöhrətim saxlanır.**
**Mənim adım-sanımsan,**
**Namusum, vicdanımsan.**

B.Vahabzadənin həmişə xoş sözlərlə andığı, şəxsiyyətini çox yüksək qiymətləndirdiyi xalq yazıçısı Mehdi Hüseyn onun yaradıcılığını hələ ilk mərhələlərdən rəğbətlə qarşılamış və təqdiredici sözlərlə dəyərləndirmişdir:

"Bədii sənət aləminə ayaq basdığı ilk günlərdən xalqın məhəbbətini qazanmaq hər yazıçıya müyəssər olan bir səadət deyildir. Bəxtiyar Vahabzadə özünün fitri şairlik istedadı sayəsində hələ gənc yaşlarından oxucuların sevməyə başladığı, həmişə diqqətlə izlədiyi və böyük ümid bəslədiyi xoşbəxt sənətkarlardandır."

Bu fikrin davamı kimi demək olar ki, Bəxtiyar Vahabzadə xalq sevgisindən qaynaqlanan bu xoşbəxtliyi – bəxtiyarlığı ömrünün sonuna qədər qoruya bildi.

**Hər ömrün sonunda,**
**Son anda yalnız**

**Necə yaşamağı dərk edirik biz.**
**Qanrılıb ölümün astanasında**
**Bir də boylanırıq həyat tərəfə –**
**Başqa cür yaşardım, – deyirik onda,**
**– Dünyaya gəlsəydim ikinci dəfə.**
**Bizimlə bərabər gedir torpağa**
**Ömrün zirvəsində düşündüyümüz.**
**Bu sirri kiməsə pıçıldamağa**
**Nə macal tapırıq,**
**Nə imkan,**
**Nə söz...**

B.Vahabzadə həm də ona görə xoşbəxt insan sayıla bilər ki, taleyi ona son sözünü demək, həyat və yaradıcılığının son akkordlarını səsləndirmək imkanı verdi. Ömrünün son çağlarında Ulu Tanrıya üz tutaraq yazırdı:

**Bir an da macal ver mənə əcəldən,**
**Hələ görülməli çox işlərim var.**
**Hələ bu dünyadan doymamışam mən –**
**İstək çox, arzu çox, ürək gen, vaxt dar...**

Həyatının son mərhələsində yaradıcılığı ilə bağlı şairin ən böyük arzusu sənət yolunu tam şəkildə əhatə edən külliyyatını çap etmək idi. "...Ömrün qürubu yaxınlaşdıqca başladığım ilk illərdən bu günə qədər yaradıcılığıma nəzər salmaq, inkişaf xəttini izləmək, büdrəmələrimi təhlil etmək, xüsusən ilk yazılarımı sənət baxımından

ələk-vələk eləmək arzusu günü-gündən qəlbimdə böyüyürdü. 2000-ci ilə çatanda bu arzu reallaşmağa başladı." Beləliklə, 20-ci əsin görkəmli şairi yeni yüzilliyə, yeni minilliyə əsərlərinin tam külliyyatı ilə qədəm qoya bildi. **On iki cildlik bu möhtəşəm nəşr layihəsi tanınmış ədəbiyyatşünas alim, Bəxtiyar müəllimin ehtiramla "könül dostum" adlandırdığı filologiya elmləri doktoru, professor Ramazan Qafarlının təşəbbüsü və fədakar işgüzarlığı sayəsində həyata keçirildi. R.Qafarlı Bəxtiyar müəllimi bu işin maddi tərəfini öz üzərinə götürən iş adamı Cavanşir Feyziyevlə tanış etdi və heç kimə ağız açmaq istəməyən şairi bu nəşrə razı sala bildi. Bəxtiyar müəllim özü bütün əsərlərini bir daha gözdən keçirərək yenidən çapa hazırladı. Bu iş səhhəti ildən-ilə, aydan-aya pisləşən şairə, sanki, yeni həyat enerjisi, yaşamaq həvəsi verdi. Xalq şairi külliyatın doqquz cildini sağlığında görə bildi. Onuncu cild artıq nəşr prosesində idi, son iki cildi isə Bəxtiyar müəllim vəfatından cəmi bir neçə saat əvvəl nəzərdən keçirərək çapa imzaladı.**

Külliyatın bütün cildlərinin tərtibçisi və redaktoru olan Ramazan Qafarlı on iki cildin hər birinə on söz yazmışdır. Bu məqalələrdə B.Vahabzadə yaradıcılığının müxtəlif cəhətləri dərindən təhlil olunmuş və obyektiv elmi meyarlar mövqeyindən qiymətləndirilmişdir. Yeri gəlmişkən, bizə elə gəlir ki, bu məqalələrin bir tam halında toplanaraq ayrıca monoqrafik tədqiqat şəklində çap edil-

məsi Bəxtiyar Vahabzadə yaradıcılığının öyrənilməsinə çox dəyərli bir töhfə olardı.

**Ümumi həcmi 500 çap vərəqindən artıq olan 12 cildlik külliyyat cəmi iki il ərzində "Elm" nəşriyyatında çapa hazırlanmış, "Nurlan" nəşriyyat-poliqrafiya müəssisəsində yüksək poliqrafik keyfiyyətlə çap edilmişdir.** Müəssisənin direktoru professor N.Məmmədli, nəşrə məsul f.e.n.Ə.Ələkbərlidir. Nəşrlə bağlı təkcə bir cəhəti – tirajın çox az olmasını təəssüflə qeyd etmək lazım gəlir. Hər bir azərbaycanlı ailəsinin öz şəxsi kitabxanasında görmək istədiyi bu külliyyat cəmi 500 tirajla çap edilib. Ümid edirik ki, dövlət orqanlarının qayğısı ilə bu külliyyat kütləvi tirajla yenidən nəşr ediləcəkdir. Belə olarsa, B.Vahabzadənin 12 cildlik "Əsərləri" təkcə ölkəmizdə deyil, xaricdə yaşayan soydaşlarımız arasında və digər türk ölkələrində də geniş yayıla bilər. Külliyyatın səkkiz cildi xalq şairinin poetik yaradıcılığını – şeir və poemalarını, doqquzuncu cild nəşr və dram əsərlərini, onuncu cild ədəbiyyatşünaslıq və sənətşünaslığa aid elmi-nəzəri məqalələrini, on birinci və on ikinci cildlər isə publisistikasını əhatə edir. Son cildə bir çox görkəmli müasirlərinin Bəxtiyar Vahabzadə haqqında məqalələri də daxil etmişdir.

(Yeri gəlmişkən qeyd edək ki, bu günlərdə R.Qafarlının tərtibçiliyi və redaktəsi ilə daha bir kitab işıq üzü görmüşdür. "Bəxtiyar Vahabzadə əbədiyyət yolunda, yaxud şairsiz ötən bir ilimiz" adlı bu kitaba B.Vahabzadənin

vəfatından ötən bir il ərzində onun haqqında yazılmış nekroloq, xatirə və araşdırma xarakterli məqalələrin bir qismi daxil edilmişdir.)

R.Qafarlı birinci cildə yazdığı "Şeirin fəlsəfəsi, yaxud Bəxtiyar Vahabzadənin pəncərəsindən görünən dünya" adlı ön sözdə onun yaradıcı fəaliyyətini ümumiləşdirərək yazır: "Türk dünyasının ikinci minillikdə yetirdiyi böyük şəxsiyyətlərdən biri, Azərbaycan ədəbiyyatının, bütövlükdə 20-ci əsr poetik fikrinin görkəmli nümayəndəsi Bəxtiyar Vahabzadə çoxsahəli fəaliyyəti ilə respublikamızın sərhədlərindən çox-çox uzaqlarda tanınır. O, hər şeydən əvvəl mütəfəkkir şair olaraq həmişə xalqımızın sözünü demişdir." B.Vahabzadənin "xalqın sözünü demək" missiyası onun cismani ömrünün bitməsi ilə sona çatmır. Xalqımız, Vətənimiz var olduqca onun əsərləri şairin sözünü hələ illər uzunu deyəcəkdir. Çünki bu sözlərə ehtiyac tükənməyib. Şair özü bu həqiqəti – millətin gələcək nəsillərinə də ruhən bağlı olacağını poetik dillə belə ifadə edirdi:

**Həm sevincim, həm kədərim.**
**Bu dünyada yoxum, varım**
**Bu günümdən**
**Gələcəyə göndərdiyim məktublarım.**
**Məktublarda**
**əzablarım, qayğılarım qatar-qatar.**
**Cələcəyə neçə-neçə sualım var.**
**Sualların cavabları**

**Həm çətindir, həm yasaqdır.**
**O cavablar mənə deyil,**
**Məndən sonra gələnlərə çatacaqdır.**

**Külliyyatın birinci cildi üçün yazdığı müəllif qeydində Bəxtiyar müəllim gələcəyə ünvanlanmış daha bir fikri ifadə edərək yazır: "...Gələcək tədqiqatçılarımdan böyük bir xahişim var: kitablarımdan çıxardığım şeir və poemalarımdan müəllif olaraq mən imtina etdiyim kimi, onlar da imtina etsin və onları tədqiqatlarına cəlb etməsinlər. Əks təqdirdə onlar mənim ruhumu incitmiş olarlar. Çünki vəsiyyət hər kəs üçün müqəddəs olmalıdır." Bu sözlər Bəxtiyar Vahabzadənin 12 cildlik "Əsərləri" külliyatının onun yaradıcılığının araşdırılması və dəyərləndirilməsi üçün yeganə etibarlı mənbə kimi bundan sonrakı statusunu müəyyənləşdirməklə həmin nəşrin mədəniyyət hadisəsi kimi əhəmiyyətini bir daha təsdiqləyir.** Digər tərəfdən, şairin "vəsiyyət" adlandırdığı bu müraciət onun bir insan və sənətkar kimi öz ləyaqətini dünyadan köçdükdən sonra da qorumaq istəyindən xəbər verir. Bir vətəndaş olaraq onun ictimai fəaliyyətində və yaradıcılığının ictimai məzmununda istiqlal ideyası aparıcı faktor idisə, bir insan və şəxsiyyət kimi onun xarakterini səciyyələndirən başlıca amil ləyaqət məfhumu idi. Maraqlıdır ki, bu anlayışların hər ikisinə bədii yaradıcılığında da mühüm yer verərək həm "İstiqlal", həm də "Ləyaqət" adlı poemalar yazmışdır.

Sənət adamlarının taleyinə həmişə həssas yanaşan B.Vahabzadə görkəmli şair Əli Kərimin vəfatına həsr etdiyi şeirdə yazırdı:

**Ölür ulduzlar da adamlar kimi,**
**Ölürkən ömrünü verir bizlərə.**
**O, göydə sönsə də, yer onu bilmir –**
**Süzülür işığı yüz illər yerə.**
**Öləndən sonra da o sönmür nədən?**
**İşığı yaşayır özü var kimi.**
**Qəlbinin odunu xalqa bəxş edən**
**Adamlar kimi…**

**Bu misralarda ifadə olunmuş fikri tərəddüd etmədən Bəxtiyar Vahabzadənin öz taleyinə də aid etmək olar. Onun əbədiyyətə qovuşmasından bir il ötür. “Qəlbinin odunu xalqa bəxş edən” şairin poeziyasından süzülən mənəviyyat işığının ziyası sağlığında olduğu kimi hələ də könüllərə şəfəq saçır. Əbədiyyətin yalnız bir ili ötüb keçmişdir. Yüz illər isə hələ qarşıdadır.**

***“Xalq qəzeti”, 13.02.2010***

# DAHİ SƏNƏTKARIN XATİRƏSİ *adi bir konsertlə yad edildi*

**Rəşid Behbudov adına Mahnı Teatrında Bakı Mədəniyyət İdarəsi və böyük müğənninin adını daşıyan teatrın təşəbbüsü ilə dahi sənətkarın 85 illiyinə həsr olunmuş xatirə gecəsi keçirildi.**

**Bakı Mədəniyyət İdarəsinin rəisi Fikrət Babayev giriş sözündə şəhərin bütün mədəniyyət müəssisələrində yubiley tədbirlərinin keçirildiyini vurğuladı.**

Rəşid Behbudov sənət məktəbinin yetirməsi və davamçısı olan müğənnilər – Mübariz Tağıyev, Bilal Əliyev, Füruzə Quliyeva, Zaur Rzayev, Oqtay Ağayev, Elxan Əhədzadə, Gülyanaq Məmmədova, Zöhrə Abdullayeva, Şəbnəm Tapdıq, İlhamə onun repertuarına daxil olan və olmayan mahnılar oxudular, xatirələrini danışdılar. Çıxışlar və nəğmələr arası Mahnı Teatrının rəqs qrupu müxtəlif dünya xalqlarının rəqslərini ifa etdi. Rəşid Behbudovun

çəkildiyi bədii, musiqili və sənədli filmlərdən kadrlar nümayiş etdirildi. Görkəmli incəsənət xadimlərinin Rəşid sənəti və şəxsiyyəti haqqında fikirləri səsləndirildi – kimisini diktor oxudu, kimisi də videolentdən göstərildi. Vəssalam. Bununla da konsert proqramı başa çatdı.

Keçirilən tədbir “xatirə gecəsi” adlandırılsa da, həm məzmununa, həm də səviyyəsinə görə adicə bir konsert idi. Əlbəttə, biz təşkilatçıların və iştirakçıların zəhmətini, xoş niyyətini danmaq fikrində deyilik. Böyük sənətkarın xatirəsini anmaq üçün başqaları, daha yüksək səlahiyyətli əlaqədar təşkilatlar – ilk növbədə Mədəniyyət Nazirliyi heç bunu da etmir.Bunlar isə oxudular, oynadılar, danışdılar – əziyyət çəkdilər. Köhnə kişilər demiş, “bəqədri-qüvvə”, yəni gücləri çatan qədər. ... Amma niyə belə gücsüzük?! Axı, R.Behbudovun yubileyi belə, bu səviyyədə qeyd olunmamalıdır. Axı, rəhmətlik özü demiş, “bircə Rəşidimiz var."

**R.Behbudov bu dünyada 74 il ömür sürdü, bir dəfə də yubileylərini dəbdəbə ilə keçirmədi. Özü istəmədi. Vəfatından sonra 75, 80 illik yubileyləri ötdü... qeyd olunmadı. Yox, 80 illiyi layiqli davamçısı Müslüm Maqomayevin təşəbbüsü və təşkilatçılığı ilə Moskvada böyük təntənə ilə qeyd edildi, Deyilənə görə, Moskva yenə yubileyə hazırlaşır. Yenə bu xəcalət yükünü boynumuza götürməyə hazırlaşırıq. Axı Rəşid SSRİ-nin Xalq artisti olsa da, bütün konsertlərini “Azərbayçan” nəğməsi ilə açırdı, afişalarına “Səni tərənnüm edirəm,**

**doğma Azərbaycanım" yazırdı. Rəşid Azərbaycanı bütün dünyaya tanıdırdı, amma indi, deyəsən, Azərbaycan Rəşidi "tanımır".**

Bəlkə, hər kəsin öz işini vicdanla, məsuliyyətlə görməsi üçün mütləq dövlət başçısı işə qarışmalı, fərman verməlidir?!

"Xatirə gecəsi"nin son dərəcə primitiv ssenarisini, yarıözfəaliyyət səviyyəli çıxışları gördükcə adamın ürəyindən keçirdi ki, kaş rəhmətlik durub gələydi, bunlarla bircə dəfə məşq keçəydi. Sənətə peşəkar, tələbkar münasibətin nə olduğunu bir də başa salaydı.

...Lap başlanğıcda aparıcı Rəşidin oxuduğu "Azərbaycan" mahnısının sözlərini S.Vurğuna "bağışladı", halbuki az-çox xəbərdar olanlar bilirlər ki, mahnının sözləri Ə.Əlibəylinindir.

**İştirakçılar R.Behbudovun repertuarından oxuduqları mahnıların mətnini öyrənmək əziyyətinə qatlaşmamışdılar. Demək olar ki, hər mahnıda səhvlərə yol verirdilər.**

**Rəşid sənətinin səmimiyyətini örnək sayan müğənnilərin bəziləri onun xatirə günündə səhnə üçün ən böyük qeyri-səmimiliyi – fonoqramla oxumağı özlərinə rəva bildilər.** Rəqs nömrələrinin də hamısı fonoqramla müşayiət olundu. Halbuki Mahnı Teatrının çalğıçılar qrupu səhnədə boş-bekar oturmuşdu. Yeri gəlmişkən, hamıdan çox çıxış edən rəqs qrupunun ifasında elan olunan

“Yallı” və “Ləzginka” rəqslərinin əvəzinə tamam başqa musiqilər səsləndi. Rəşidin ifasında hamının yaddaşına hopmuş Rauf Hacıyevin “Azərbaycan” və Telman Hacıyevin “Lalələr” mahnılarını aparıcılar Tofiq Quliyevin adına çıxdılar.

Əvvəldə qeyd etmişdik ki, konsertdə R.Behbudovun iştirakı ilə lent yazıları nümayiş etdirildi. Amma, düzünə qalsa, bu da dəqiq deyil, çünki o lentlərin heç biri axıra qədər səslənmədi, Rəşidin nəğmələri hər dəfə yarımçıq kəsildi. Görünür, vaxta qənaət edirlərmiş.

Ən qəribəsi isə incəsənət xadimlərinin R. Behbudov haqqında ürək sözlərinin videolent vasitəsi ilə nümayiş etdirilməsi idi. Ekrandan danışanların, demək olar ki, hamısı – V.Adıgözəlov, Anar, F.Bədəlbəyli, X.Qasımova, A.İslamzadə, F.Poladov, F.Kərimova... salonda əyləşmişdilər və ssenarinin tələbinə uyğun olaraq özlərinə “televizorda" baxırdılar. Yəqin, bu da texnikanın imkanlarını nümayiş etdirmək üçün idi. Ancaq təşkilatçılar gözləmirdilər ki, texnikanın “imkanları” da tədbirin səviyyəsinə uyğun olacaq. Buna görə də Anarın çıxışından sonra F.Bədəlbəylinin adı elan olunanda “televizor” yenə Anarı göstərdi və Xalq yazıçısı bu dəfə Xalq artistinin əvəzinə həmin çıxışı bir də söyləməli oldu. Sonra yenidən F.Bədəlbəyliyə “söz verdilər”. Və F. Bədəlbəyli əvvəldə Mahnı Teatrının salonuna sığmayan, lakin tezliklə sıraları seyrələn tamaşaçıların yarasının qaysağını qopardan bir söz dedi: “Rəşid mü-

əllim nə iş görsəydi, çalışırdı ki, ən yüksək səviyyədə olsun.”

**Əlbəttə, bizlərdən heç birimiz Rəşid ola bilmərik. Amma çalışmağa nə söz? Heç olmasa çalışaq. Çalışaq ki, gördüyümüz iş öz adımıza yox, onun adına layiq olsun.**

**... Nə isə. Allah sənə rəhmət eləsin, Rəşid Behbudov. Yaxşı ki, bizə ümid olmadan ölməzliyini özün qazanmısan.**

***“Xalq qəzeti”, 16.12.2000***

# ÜZEYİR BƏYİN RUHUNU SEVİNDİRƏN GÖRÜŞ

**Noyabrın 12-də Üzeyir Hacıbəyovun ev muzeyində Dünya Azərbaycanlılarının I qurultayında iştirak etmək üçün Vətənə gəlmiş fransalı soydaşımız Jan-Kleman Hacıbəyli ilə qohumlarının və Üzeyir sənəti pərəstişkarlarının görüşü keçirildi. Jan-Kleman Üzeyir bəyin qürbətdə yaşamış kiçik qardaşı, görkəmli ictimai və mədəniyyət xadimi Ceyhun Hacıbəylinin nəvəsi, Azərbaycanda yaxşı tanınan Temuçin Hacıbəylinin böyuk oğludur. Tanışlıq zamanı məlum oldu ki, qonağın, əslində, iki adı var: Sənədlərdə Jan-Kleman yazılsa da, ailədə onu babasının adı ilə – Ceyhun deyə çağırırlar.**

Görüşü giriş sözü ilə açan muzeyin direktoru Səadət Qarabağlı Ceyhun bəyin Vətənə ilk dəfə gəldiyini, lakin bütün varlığı ilə Azərbaycana bağlı olduğunu, Bakıya səfərinin hər günündə Üzeyir bəyin ocağını ziyarət etdiyini, qohumlarını görüb tanımaq arzusunu bildirdiyini xüsusi vurğuladı.

Görüşdə Üzeyir və Ceyhun Hacıbəyovların həyat və yaradıcılığının tədqiqatçılarından S.Mümtaz adına Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin direktoru Maarif Teymur və professor Mirabbas Aslanov Ceyhun və Temuçin Hacıbəylilərin arxivlərinin, ədəbi və elmi yaradıcılıqlarının Azərbaycanda öyrənilməsi və nəşri haqqında danışdılar. Professor M. Aslanov muzeyin fəaliyyət göstərdiyi 25 ildən artıq müddətdə bu cür həyəcanlı və hərarətli tədbirin şahidi olmadığını söylədi.

Hacıbəyovlar nəslinin nümayəndələri adından Soltan Hacıbəyovun oğlu, Musiqi Akademiyasının professoru, bəstəkar İsmayıl Hacıbəyov, Üzeyir bəyin xalası oğlu və sənət yoldaşı Əhməd Ağdamskinin oğlu, professor Telman Ağdamski, Üzeyir bəyin xalası qızı Mina xanım, bacısı Sayad xanımın nəvəsi Dilbər xanım və onun ailə üzvləri Ceyhun bəyi salamlayaraq çoxdan bəri bu görüşün həsrətilə yaşadıqlarını bildirdilər. Qonağa təqdim olunan hədiyyələr içərisində Qarabağ xalçası və Üzeyir bəyin sağlığında yağlı boya ilə çəkilmiş portreti onu xüsusilə riqqətə gətirdi.

Ceyhun Hacıbəyli Fransada heç zaman belə səmimi qohumluq münasibətlərinin, duyğularının şahidi olmadığını söylədi. Üzeyir bəyin ocağında, yaxınları arasında özünü öz evində, ailəsindəki kimi hiss etdiyini dedi. Bu görüşün təşkili üçün muzeyin əməkdaşlarına xüsusi minnətdarlığını bildirdi. Belə bir görüşün doğma Şuşada keçiriləcəyini arzuladığını və buna inandığını deyən qonaq qeyd etdi

ki, babalarının ruhunu yad etmək üçün Şuşaya getməyə cəhd etsə də, ermənilər hətta Fransa pasportu ilə onu Qarabağa buraxmayıblar. Ceyhun bəy Dünya Azərbaycanlılarının I qurultayında iştirakından və doğmaları, soydaşları ilə görüşlərdən sonra babasının, atasının söhbətlərindən, öyüdlərindən qəlbinə hopmuş Vətən sevgisinin daha da ülviləşdiyini söylədi, bundan sonra Vətənə tez-tez gələcəyinə, Azərbaycan dilini mütləq öyrənəcəyinə, Azərbaycan həqiqətlərinin Fransada təbliği üçün daha çox çalışacağına, millətə xidmət yolunda babasının və atasının işini daha əzmlə davam etdirəcəyinə söz verdi.

Zahiri görünüşcə ata-babasına çox bənzəyən Ceyhun bəy öz sənəti ilə də Hacıbəyovlar nəslinin ənənələrini davam etdirir. O, peşəkar musiqiçi – bəstəkar və musiqişünasdır.

Görüşün sonunda Üzeyir bəyin royalı dilə gəldi. Pianoçu Ülviyyə Hacıbəyovanın, müğənnilər Rauf Adıgözəlov və Gülşən İsmayılovanın, Xalq artisti Fidan Qasımovanın ifasında Üzeyir Hacıbəyovun, onun davamçıları Əfrasiyab Bədəlbəyli, Qara Qarayev, Niyazi, Arif Məlikov və İsmayıl Hacıbəyovun vokal və instrumental əsərləri səsləndi.

***"Xalq qəzeti", 14.11. 2001***

# BAŞLIQLAR

**Muğamat ilahi nemətdir** ........................................ 3
**Türkiyə prezidentinin dəvəti ilə**.............................. 11
**Təbrizə qayıdanda...** ............................................... 14
**Dahiliyin təkrarı olmur** .......................................... 21
**Muğamatın ilk professoru** ..................................... 27
**Sənə sevirəm desəm...** ............................................ 40
**Ustad**.......................................................................... 51
**Sazı çörək ağacına çevirmək olmaz**......................... 60
**Öz yurduma gedəm mən** ......................................... 68
**Şəki teatrının yeni səhəri** ....................................... 75
**Cəmiyyət necədirsə, teatr da o cürdür**.................. 80
**Teatrın taleyi hamımızdan asılıdır**........................ 89
**Milli musiqi ikinci ana dilimizdir**.......................... 100
**Ömrün və sənətin müdriklik çağı**......................... 111
**Rejissorluq mənim taleyimdir**............................... 121
**Üzeyir bəy bizə həmişə lazımdır**.......................... . 134
**Dünyaya və zamana sığmayan səs** ...................... . 139
**Səhnəmizə şəxsiyyətlər gərəkdir**.......................... 148
**...Yanasan gərək** ...................................................... 160
**Dünya şöhrətli bəstəkarın yaradıcılıq gecəsi**....... 168
**Bütün türk dünyasının təmsilçisi**......................... 173
**Əbədiyyətin bir ili** .................................................. 184
**Dahi sənətkarın xatirəsi** ....................................... 196
**Üzeyir bəyin ruhunu sevindirən görüş** ................ 201